İLTİFAT ƏLİYARLI – ŞAHSEVƏNLİ

# AZƏRBAYCAN POLİSİNİN YARANMASI VƏ TƏŞƏKKÜLÜ TARİXİNDƏN

**(1918-1920-ci illər)**

***(Qısa tarixi tədqiqat)***

**Bakı – Mütərcim – 2018**

*Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunur.*

| | |
|---|---|
| **Elmi redaktor:** | ***Şikar Qasımov,***<br>*tarix üzrə elmlər doktoru, professor* |
| **Rəyçi:** | ***Qasım Hacıyev,***<br>*tarix üzrə elmlər doktoru, professor* |
| **Məsləhətçilər:** | ***Tahir Behbudov,***<br>*tarix üzrə fəlsəfə doktoru, dosent,*<br>*əməkdar müəllim, istefada olan polis polkovniki* |
| | ***İlqar Niftəliyev,***<br>*tarix üzrə fəlsəfə doktoru, dosent* |
| | ***Əzizə Nəzərli,***<br>*tarix üzrə fəlsəfə doktoru.* |

**İltifat Əliyarlı-Şahsevənli. Azərbaycan Polisinin yaranması və təşəkkülü tarixindən (1918-1920-ci illər). –** Bakı: Mütərcim, 2018. – 128 səh.

*Kitab üç minillik dövlətçilik tariximizdə özünəməxsus yer tutan, qısa müddət (23 ay) mövcud olmasına baxmayaraq, milli istiqlalımızın qazanılması və möhkəmləndirilməsində silinməz izlər qoymuş Birinci Respublika – Azərbaycan Xalq Cümhuriyyətinin (Qafqaz Azərbaycanı Respublikası)və onun mühüm dövlət hakimiyyəti orqanlarından biri, ölkədə ictimai-asayişin, sabitliyin qorunması və cinayətkarlıqla mübarizədə xidmətlər göstərmüş müstəqil Azərbaycan Polisinin 100 illiyinə, onların yaranmasına, tarixi təkamülünə və təşəkkülünə həsr olunmuşdur.*

*Kitab Daxili İşlər Orqanlarının əməkdaşları və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

*Azərbaycan Respublikasının müəlliflik hüququ haqqında qanunla qorunur (Bax: Müəliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu, 5 iyul 1996-cı il, № 115-1). Kitabdan istifadə ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur. Kitabı müəllifin və nəşriyyatın yazılı icazəsi olmadan bütövlükdə, yaxud hissə - hissə çap etdirmək qadağandır.*

$Ə\ \frac{1203120000}{026}\ 140\text{-}18$

© İ.Əliyarlı-Şahsevənli, 2018

# MÜNDƏRİCAT


**Elmi redaktordan** ........ 4

**Rəy** *(Qasım Hacıyev)* ........ 6

**Giriş** ........ 8

**I FƏSİL.**
Azərbaycanda Polisin yaranması və təşəkkülü tarixindən ........ 18

**§1**. Azərbaycanda polisin yaranması, təkamülü və təşəkkülü tarixindən ........ 18

**II FƏSİL.**
Azərbaycan Xalq Cümhuriyyətinin, onun Daxili İşlər Nazirliyinin və müstəqil polisinin yaranması və təşəkkülü ........ 32

**§1.** Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin təsis edilməsi ........ 32

**§2.** Müstəqil Azərbaycan Polisinin yaranması və formalaşması ........ 35

**§3.** Müstəqil Azərbaycan Polisinin təkmilləşməsi və təşəkkülünün başa çatması ........ 41

**§4.** Süqut dövrü (1 aprel-14 may 1920-ci il) ........ 67

**Nəticə** ........ 73

**Xronologiya** ........ 75

**Şəkillər** ........ 76

**İstifadə edilmiş mənbələr və ədəbiyyat** ........ 117

# ELMİ REDAKTORDAN

Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümü 1919-cu ildə qeyd olunub. Tarix elə gətirdi ki, onun ikinci ildönümü 1990-cı ildə qeyd edildi. Yəqin ki, belə bir uzun fasilədə hamının, o cümlədən humanitar fikrin də öz günahı vardı. Biz XX əsrin 80 - ci illərinə qədər ictimai elmlərdən yanğı ilə danışmışıq. Bu təsadüfi deyil: geriliyin, unutqanlığın ictimai elmlərə vurduğu zərbə çoxşaxəli olmuşdu.

Etiraf etmək olar ki, 1991-cı ilə qədər qədim tariximiz barədə daha çox fakt, sənəd, həqiqət bilməyə cəhd etdiyimiz halda, ən yaxın tariximiz olan Azərbaycan Respublikası, əslində, Xalq Cümhuriyyəti barədə heç adi, elementar təsəvvür, orijinal milli "təlim" də yaratmamışdıq. Dövlət müstəqilliyimizə nail olduqdan sonra bir daha yəqin edilmişdir ki, ictimai elmlər qarşısında unutqan yaddaşdan təmizlənməkdən daha vacib məqsəd dayanmır. 70 illik yasaqdan və təhriklərdən sonra indi aşkarlıq işığında aparılan tədqiqatlar nəticəsində aydın olmuşdur ki, tarixə və soykökə bağlılıq, yaxın milli tariximizin ilk böyük həqiqəti Xalq Cümhuriyyətində və onun istiqlal təlimində öz əksini tapmışdır. Keçilən yola nəzər salmaq, Azərbaycan Xalq Cümhuriyyətinin hüquq - mühafizə orqanlarının yaranması sahəsində fəaliyyətini işıqlandırmaq məqsədi ilə gerçək tarixə müraciət etmək daha məqsədəuyğundur. Bu baxımdan tarix üzrə fəlsəfə doktoru İltifat Əliyarlının "Azərbaycan polisinin yaranması və təşəkkülü tarixindən (1918-1920-ci illər)" mövzusuna müraciət etməsini və araya-ərsəyə böyük əhəmiyyət kəsb edən bir əsər gətirməsini təqdirəlayiq bir iş kimi qiymətləndirmək olar.

Əsəri oxuduqdan sonra adamda belə bir təsəvvür yaranır ki, müstəqillik şəraitində Azərbaycanın 1918-1920-ci illər tarixi üzərindən qaldırılan qara pərdələr yeni-yeni səhifələr üzə çıxarmışdı. Müəyyən olunmuşdu ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin bütün müsbət cəhətləri, o cümlədən onun Azərbaycan Polisinin yaranması tarixi və təşəkkülü sahəsindəki siyasəti üzərindən

sükutla keçilmişdir. Eyni zamanda, müəllifin apardığı araşdırmanın nəticəsinə görə, bu qənaətə də gəlmək olur ki, 100 illik tarixi olan Azərbaycan Polisinin yaranmasında, onun problemlərinin həllində və inkişafına hərtərəfli şərait yaradılmasında Azərbaycan Xalq Cümhuriyyəti əsaslı rol oynamışdır.

Kitabda Azərbaycan Polisinin yaranması tarixi və təşəkkülü, Daxili İşlər Nazirliyinin təsis olunması, Nazirliyin fəaliyyətində **Tiflis mühiti**, **Gəncə mühiti** Polisinin fəaliyyətinin təkmilləşməsi, təşəkkülünün başa çatması, **Bakı mühiti** və s. məsələlər zəngin ədəbiyyatlar və arxiv sənədləri əsasında araşdırılmışdır. Müəllif düzgün olaraq Azərbaycan Polisinin daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi altında bu gün də ölkəmizdə əmin-amanlığın, sabitliyin və qanunçuluğun keşiyində ləyaqətlə durmasını, cinayətkarlığa qarşı qətiyyətlə mübarizə aparmasını, polisin dövlətə, xalqa və Azərbaycan Prezidentinə sadiq olmasını qabarıq şəkildə şərh etmişdir.

Kitabın müsbət məziyyətlərinə əsaslanaraq inamla demək olar ki, tarix üzrə fəlsəfə doktoru İltifat Əliyarlının təqdim etdiyi "Azərbaycan polisinin yaranması və təşəkkülü tarixindən (1918-1920-ci illər)" mövzuda əsərindən hüquq - mühafizə orqanlarında çalışan əməkdaşlar, tədqiqatçılar, hüquq ixtisasları üzrə təhsil alan Universitet tələbələri və geniş oxucu kütləsi bəhrələnə biləcəkdir.

Müəllifə yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar diləyirəm.

# RƏY

Azərbaycan polisinin yaranmasının 100 ili tamam olur. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) atdığı ilk addımlardan biri müstəqil Azərbaycan polisinin yaradılmasıdır.

Asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlıqla mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirən Azərbaycan Polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə xidmət etmişdir. Təəssüf ki, AXC-nin süqutu ilə əlaqədar olaraq Azərbaycanın milli polisi də ləğv edildi. Onun əvəzində bolşeviklər "milis" adlandırılan bir qurum yaratdılar. Bu qurum Sovet hakimiyyəti illərində təhlükəsizliyin qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində xidmətlər göstərdi.

Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra milli polis yaradıldı.

Azərbaycan Respublikasının fiziki və mənəvi dayaqlarından biri olan milli polis dövlətimizin məcburi cəlb edildiyi Qarabağ müharibəsində, torpaqlarımızın, ərazi bütövlüyümüzün qorunmasına fəal iştirak etdilər. Bu müharibədə torpaqlarımızı müdafiə edən Daxili İşlər Nazirliyi işçilərinin və Daxili Qoşunların 1695 işçisi şəhid oldu. Azərbaycan Polisinin sıralarından 67 nəfər Milli Qəhrəman adına layiq görüldü. Həmçinin, 1143 nəfər müxtəlif orden və medallarla təltif edildi.

Ölkə daxilindəki özbaşınalığa, kriminal hadisələrə son qoymaq üçün polisin gücləndirilməsinə diqqət yetirildi.

Ulu öndərimiz Heydər Əliyevin 1994-cü ildə imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanı ilə Respublikamızda mütəşəkkil cinayətkarlığa qarşı ciddi mübarizə başlandı. Çox keçmədən ölkədə kriminogen vəziyyət dəyişdi, əmin-amanlığın daimi olması istiqamətində mühüm tədbirlərə başlandı.

Ölkədə siyasi sabitliyin, ictimai asayişin qorunub saxlanmasında Daxili İşlər orqanlarının ayıq - sayıqlığı hər zaman təminatçı rolu oynadı.

Təsadüfi deyil ki, iyulun 2-si Azərbaycan Polisi əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur. Bu, Ümumilli Liderimiz Heydər Əliyevin Prezidentliyi dövründə - 1998-ci ildə verdiyi fərmanla əlaqədardır.

Yubiley ərəfəsində ərsəyə gələn İltifat Əliyarlı - *Şahsevənlinin "Azərbaycan Polisinin yaranması və təşəkkülü tarixindən (1918-1920-ci illər)" kitabı Azərbaycan Polisinin fəaliyyətinə böyük hədiyyədir.

İ.Əliyarlı seçdiyi "Azərbaycanda polisin yaranması, təkamülü və təşəkkülü tarixindən" başlayaraq "Azərbaycan Xalq Cümhuriyyəti, onun Daxili İşlər Nazirliyinin təsis olunması", "**Tiflis mühiti**" yarımfəsillərdə bu tarixin mühüm məqamlarını konkret faktlar əsasında təhlil etmiş, "Müstəqil Azərbaycan Polisinin yaranması və formalaşması" məsələsini şərh etmişdir. Eləcə də, "**Gəncə mühiti** " (Müstəqil yaranma və formalaşma dövrü)(17 iyun - 15 sentyabr 1918-ci il) və Müstəqil Azərbaycan Polisinin təkmilləşməsi və təşəkkülünün başa çatması, **"Bakı mühiti"** (Kassik (əsas) dövr (16 sentyabr 1918 - 30 mart 1920-ci il) haqqında maraqlı məlumat vermiş, "Süqut dövrü (1 aprel – 14 may 1920-ci il)" yarımfəsillərində polisin tarixi və təşəkkülünə dair dəyərli məlumatlar və fikirlər öz əksini tapmışdır.

Daxili işlər orqanlarının əməkdaşları və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab dəyərli bir tədqiqat işidir. İnanıram ki, burada oxucu dəyərli faktlara, məntiqi təhlillərə və mülahizələrə rast gələcək və onları dəyərləndirəcəkdir.

**Qasım Hacıyev,**
tarix üzrə elmlər doktoru, professor

# GİRİŞ

Hələ sovet dövründə üç minillik dövlətçilik tariximzidə qısa zaman kəsiyində (iki ilə yaxın -23 ay; 721 gün) mövcud olmasına baxmayaraq, bütün Şərqdə müsəlman və türk dünyasında ilk parlament idarə üsullu demokratik respublika kimi yaranıb (28 May 1918-ci il) fəaliyyət göstərmiş, öz əməli işləri ilə silinməz izlər qoymuş birinci müstəqil respublikamız- Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) (28 may 1918 - 27 aprel 1920) (müasir anlamda tarixi ədəbiyyatda Azərbaycan Demokratik Respublikası (ADR) kimi də adlanır) həqiqi tarixi, onun milli mahiyyəti, gördüyü işlər biləkdən təhrif edilmiş, ona aid arxiv sənədləri qəsdən yandırılmışdır... O cümlədən, ilk növbədə 1918-20-ci illərdə Azərbaycanda ictimai asayişin və sabitliyin mühafizəsinin təmin edilməsində, cinayətkarlıq, onun ayrı-ayrı növləri ilə mübarizədə böyük rolu olmuş Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinə, Azərbaycan Polisinə aid çoxlu materiallar və hüquqi sənədlər məhv edilmişdir... Lakin bunlar tamamilə yox edilməmişdir və bir sıra mövcud  tarixi mənbələrdə, hüquqi sənədlərdə və səciyyəvi tarixi ədəbiyyatlarda öz mahiyyətin və varlığını saxlamışdır...

... 70 il Sovetlər İttifaqının tərkibində müstəqilliyi əlində olmayan Azərbaycan xalqı 80-ci illərin ikinci yarısından böhran keçirməyə, laxlamağa və süquta doğru getməyə başlayan "SSRİ" adlanan sovet imperiyasının boyunduruğundan  qurtararaq, o vaxt yaranmış tarixi şəraitdə - 1991-ci il oktyabrın 18-də XX əsrdə ikinci dəfə tarixdə Dövlət müstəqilliyini qazandı. Bu, xalqımızın şərəfli milli-azadlıq mübarizəsi, həmin yolda verdiyi qurbanlar bahasına başa gəlmişdi. Dünyanın başqa xalqlarında olduğu kimi, Azərbaycanda da baş verən milli-azadlıq hərəkatının  mənzərəsi fonunda əmələ gəlmiş labüd keçid dövründə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldi və dəyişikliklərə başladı... 1992-ci il iyunun 6-da Azərbaycan milisi sadəcə "Azərbaycan polisi" adlandırıldı və bu, Azərbaycan Respublikası Prezidenti Ə.Elçibəyin 830 nömrəli fər-

manının 5-ci bəndi ilə rəsmi qanunvericilik statusu aldı. Bu, özlüyündə müsbət addım, müsbət akt idi, lakin sonrakı yaşam və təcrübə göstərdi ki, "6 iyun"un "Azərbaycan Polisi Günü" -polislərin peşə bayramı günü kimi qəbul edilməsi tarixi həqiqəti əsla düzgün əks etdirmir. Çünki, həmin vaxtdan öncə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncədə müstəqil Azərbaycan Polisi yaranmış **(2 iyul 1918-ci il)** və fəaliyyət göstərmişdi... Nədənsə, bu tarixi təcrübə araşdırılmamış və unudulmuşdu...

Hazırda "**2 iyul**" ölkəmizdə hər il Azərbaycan Polisinin peşə bayramı günü kimi qeyd olunur. Bu günün ərsəyə gəlməsi ümummilli lider, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə həqiqi, hüquqi qiymətini almışdır. Belə ki, 1997-ci il martın 28-də ulu öndər respublikanın milli təhlükəsizlik qüvvələri əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində demişdi: "... Bizim başqa dövlət strukturları da öz günlərini, məsələn, Daxili İşlər Nazirliyi polis gününü qeyd edir. Hesab edirəm ki, onlarda öz tarixlərini məhz 1918-1919-cu illərdən götürməlidir. Çünki, belə olmayan surətdə elə çıxır ki, Azərbaycanda 1991-ci və ya 1992-ci ilə qədər heç bir şey olmayıbdır, polis yenidən yaranıbdır. Bu, düzgün deyil, bunun adı dəyişib və Azərbaycanın müstəqilliyinə görə funksiyaları da müəyyən qədər dəyişilibdir".

Qeyd etmək lazımdır ki, Azərbaycanda polisin ilk yaranması və fəaliyyəti hələ rus çarizminin hökmranlığı və Azərbaycanın müstəmləkə altında olduğu dövrdə konkret zamanda (aprel 1840 - fevral 1917) mövcud olmuşdur... Rusiyada 1917-ci il fevral inqilabından sonra yaranmış mürəkkəb tarixi ikihakimiyyətlilik dövründə (mart 1917 - aprel 1918) bütün keçmiş çar Rusiyası ərazisində , Zaqafqaziyada, o cümlədən Azərbaycanda Müvəqqəti Hökuməti təmsil edən burjua "xalq milisi", polis, habelə inqilabi Sovetlərin tabeliyində olan fəhə-kəndli milisi mövcud idi. Buna baxmayaraq, həmin dövrdə heç bir həqiqi Azərbaycan Polisindən söhbət gedə bilməzdi. Məsələyə yalnız və yalnız milli müstəqil dövlətçiliyimiz nöqteyi-nəzərindən yanaşıla bilərdi. Yəni, Azərbaycan Polisinin həqiqi tarixi

ancaq 1918-ci il may ayının sonunda yaranmış və fəaliyyət göstərmiş müstəqil Azərbaycan Xalq Cümhuriyyəti tarixindən götürülə bilərdi.

1998-ci il yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncam verdi" və bu sərəncamı xalqımız əlamətdar hadisə kimi, böyük iftixar hissi və təntənə ilə qeyd etdi. 1998-ci il mayın 27-də Respublika Sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə "Xalqımızın birliyi və dövlətimizin düzgün siyasəti sayəsində müstəqilliyimizi qoruyub saxlayacaq, daha da möhkəmləndirəcəyik" adlı geniş nitq söyləyən ümimmilli lider, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir : "Azərbaycan Xalq Cümhuriyyəti ... iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur... Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləriyik... Mən bu gün qürurla deyirəm ki, biz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisləriyik". Ulu öndərin belə doğru, şəksiz qiymətləndirməsinə, tarixi mənbələr və faktlara əsaslanaraq bir tədqiqatçıi kimi qeyd etmək istəyirəm ki, həqiqətən məhz XX əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk müstəqil Daxili İşlər Nazirliyimiz və Azərbaycan Polisi orqanlarımız yaranmış, mürəkkəb təkamül yolu keçmiş, təşəkkül tapmış, şərəfli, şanlı tarix yazmaqla bu günə gəlib çıxmışdır. Sözün əsl mənasında bu günkü Azərbaycan Polisi öz sələfi Azərbaycan Xalq Cümhuriyyəti Polisinin həqiqi layiqli varisidir.

Azərbaycan Polisi tarixinin öyrənilməsi və tədiq edilməsinin də tarixşünaslığımızda öz durumu var. Azərbaycan Xalq Cümhuriyyəti polisinin tarixinə dair Azərbaycan Milli Arxiv İdarəsinin (ARMAİ) müxtəlif fondlarında, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin 894 №-li fondunda, Bakı Qubernator İdarəsinin 1046 №-nömrəli fondunda, Bakı Şəhər Qradonaçalniklyinin fondunda, Azərbaycan Respublikasının Dövlət Arxivindəki (ARDA) 970, 649 №-nömrəli fondlarında, Azərbaycan

Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin (ARPAİİSSA) 19, 188, 276, 277, 456 №-nömrəli fondlarında, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 4, 51 №-li fondlarında xeyli xarakterik materiallar və sənədlər vardır. Azərbaycan Respublikasının 1920-ci ilə aid Ünvan-Təqvimində, 1918-20-ci illərin dövrü mətbuatında (xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olmuş "Azərbaycan" (rusca və azərbaycanca) qəzetinin səhifələrində zəngin səciyəvi materiallardan istifadə etmək mümkündür...

Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti polisinin tarixinin respublikada birinci tədqiqatçıları, **"2 iyul Azərbaycan Polisi Günü"**nün həqiqi tarixinin tədqiq edilməsinə cəlb edilmiş tarix üzrə fəlsəfə doktoru İltifat Əliyarlı ("Mübariz keşikdə" qəzetinin keçmiş əməkdaşı) və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının dosenti, "Əməkdar müəllim", tarix üzrə fəlsəfə doktoru, istefada olan pois polkovniki Tahir Behbudov, istefada olan polis polkovniki Georgi Zapletinin araşdırmaları ilk növbədə qeyd olunmalıdır. Bu mənada İ.Əliyarlı və T.Behbudovun "Müstəqil Azərbaycan Polisinin yaranması və fəaliyyəti" (1918-1920-ci illər). Bakı, 1998; onların müştərək nəşr etdirdikləri "Azərbaycan Daxili İşlər Orqanlarının tarixi". Ensiklopedik soraq kiitabı . Xronoloji toplu. 1840-2003-cü illər. Bakı, 2003-cü il; "İstiqlal fədailəri. Azərbaycan Cümhuriyyyətinin daxili işlər nazirləri və silahdaşları (1918-1920-ci illər), Bakı, 2013-cü il; İltifat Əliyarlının "Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları (1918-1920-ci illər). Bakı, 2017; Georgi Zapletinin "Azərbaycan Polisinin tarixi. 1900-1933. Bakı, 1999-cu il və s. kitablarını ilk növbədə qeyd etmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimləri - daxili işlər nazirləri F.Xoyski, B.Cavanşir, X.Xasməmmədov, N.Yusifbəyli, M.H.Hacınski, M.Vəkilov, nazir əvəzi (vitse-nazir) general-mayor M.S.Ağabəzadə, nazir müavini general-mayor Ə. Haşımbəyov, Qarabağın general qubernatoru X. Sultanov, Gəncənin general-qubernatoru X.Rəfibəyli, Bakının qubernatoru

M.Axıcanlı və digər şəxsiyyətlər (onların şəkilləri və özləri haqqında qısa bioqrafik məlumatlar təqdim etdiyim kitabın axırında verilmişdir-İ.Ə,) haqqında hərb tariximizin tədqiqatçısı, tanınmış jurnalist Şəmistan Nəzirlinin əsərlərində: "Cümhuriyyət generalları". Bakı, 1995; "Azərbaycan generalları. Bakı, 1991; 1920-ci il Qarabağ döyüşləri". Bakı, 2009 və s., etimologiya üzrə mütəxəssis Ə.Çingizoğlunun "Xosrov bəy Sultanov". Bakı, 2012; "Qarabağlı hüquqşünaslar (1822-1920)." Bakı, 2012; professor Qasım Hacıyevin "Qarabağlı hərbçilər". Bakı, 2011; professor Şikar Qasımovun "Xalq qəhrəmanı "Sultan bəy Sultanov". Bakı, 2011; professor Aydın Dadaşovun "Məhəmməd Həsən Hacınski. Bakı, 2004; professor İsmayıl Musayevin "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər. Bakı, 1996; istefada olan polis polkovniki Elbrus Şahmarın "Daxili İşlər Orqanları generalları". Bakı, 1999; akademik Ziya Bünyadovun və Mövsüm Əliyevin Fətəli xan Xoyski. Bakı, 1997; professor Vilayət Quliyevin Behbud xan Cavanşir və Nəsib bəy Yusiflinin aqibətləri haqqında "525-ci qəzet" (31 dekabr 2010) və "Zerkalo" qəzetindəki (31 mart; 7, 14, 28 aprel; 5, 12, 19 may 2002) silsilə məqalələri, Moskvada yaşayan soydaşımız Fərhad Nağdəliyevin"Naxçıvan xanları Rusiya imperiyasında. M, 2006; professor Ədalət Tahirzadənin Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini İbrahim bəy Heydərov haqqında. Bakı, 2012; yenə Moskvada yaşayan həmyerlimiz Elbrus İsmayılovun "Fətəli xan Xoyski və onun genealogiyası. Sankt - Peterburq, 2007; istefada olan polis mayoru Ramin Məmmədovun Azərbaycan Xalq Cümhuriyyəti daxili işlər nazirinin müavini kimi fəaliyyət göstərmiş Şəfi bəy Rüstəmbəyli haqqında yazdığı oçerki (Bax: Qəbələ: İnsanlar, talelər, ziyalılar. Bakı, 1998); Aygün Məmmədovanın "Fətəli xan Xoyskinin əsil-nəcabəti haqqında" ("Elm" qəzeti, 4 oktyabr 2002) və s. tədqiqatları ancaq təqdir etmək olar.

... Ulu öndər, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev daxili işlər naziri Ramil Usubova Azərbaycan Polisi Gününün həqiqi tarixinin araşdırılıb üzə çıxarılmasını həvalə etmişdi...

Daxili işlər naziri cənab R.Usubovun göstərişi ilə yaradılmış xüsusi tədqiqat komissyasının arxivlərdəki axtarışları və təqdim etdiyi arayış əsasında, Prezident Administrasiyasının Hüquq-Mühafizə Orqanları ilə İş Şöbəsində və Daxili İşlər Nazirliyinin Kollegiyasında aparılan geniş müzakirələrdən və onların əsasında möhtərəm Prezidentə təqdim olunan arayış üzrə (hüquqi əsas kimi) nəhayət, Azərbaycan Respublikasaı Prezidenti Heydər Əliyevin "Azərbaycan Polisi Gününün təsis edilməsi haqqında" 24 may 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı çıxdı. Fərmanda deyilirdi: "1. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün - 2 iyul Azərbaycam Polisi günü elan esdilsin. 2. Azərbaycan Respublikası prezidentinin 1992-ci il 6 iyun tarixli 830 nömrəli fərmanının 5- ci bəndi qüvədən düşmüş hesab edilsin".

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 may 1998-ci il.

Beləliklə, həmin tarixdən "**2 İyul**" Azərbaycan Polisi Günü kimi qüvvəyə mindi. 1998-ci il iyulun 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sisteminin şəxsi heyətini Azərbaycan Polisinin yaranmasının 80 illiyi münasibətilə təbrik etdi. 1998-ci il iyulun 2-də Azərbaycan Polisinin 80 illiyi respublika səviyyəsində ilk dəfə təntənəli surətdə keçirildi. İyulun 2-də ölkə Prezidenti Heydər Əliyev yubiley tədbiri münasibətilə Azərbaycan Opera və Balet Teatrında keçirilən təntənəli iclasda iştirak edərək "Vətənimizə, xalqımıza, müstəqil dövlətimizə daim sədaqətlə xidmət etməli" adlı geniş nitq söylədi və tövsiyələrini verdi. Həmin nitqində ulu öndər demişdir: " ... Polis, milis, Daxili İşlər Nazirliyi orqanlarında ötən dövrdə -80 il ərzində işləmiş, əməkdaşlıq etmiş insanların tam əksəriyyəti öz xalqına, doğma torpağına, Azərbaycana sədaqətlə xidmət etmişdir". Təntənəli mərasimdə Azərbaycan Respublikasının daxili işlər naziri, general-leytenant Ramil Usubov da "Müstəqil Azərbaycan dövləti-

nin, xalqımızın, Konstitutsiyamızın keşiyində" adlı dərin məzmunlu mərizə etmişdi...

1999-cu il oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı ölkəmizdə "Polis haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" imzaladığı qanunlar qəbul edildi və polisin gələcək fəaliyyəti üçün yeni hüquqi əsas oldu. 2001-ci il iyunun 30-da Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnamə və strukturunun təsdiq esdilməsi haqqında " Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Fərmanı çıxdı. 2006-cı il iyunun 12-də müasir Azərbaycanın qurucusu, ulu öndər, ümummilli lider, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasətinin layiqli davamçısı, Azərbaycan Daxili İşlər Orqanlarına, Azərbaycan Polisinə daim qayğı göstərən və onların şərəfli əməyini daim qiymətləndirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" Fərman verdi. 2008-ci il iyulun 2-də Azərbaycan Polisi özünün 90 illik yubileyini böyük təntənə ilə qeyd emişdir. 2009-ci il iyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Polisinin 90 illiyi" Azərbaycan Respublikasının Yubiley Medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamışdır.

... Bu il **İyulun 2-də** qürur yerimiz - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi tamam olur. Bu böyük əlamətdar tarixi hadisə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun ümumxalq və dövlət səviyyəsində qeyd olunması üçün 2017-ci il mayın 16-da "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalamışdır. 2017-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı və Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" yubiley medalı təsis edilmiş-

dir. 2017-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Polisinin 100 illiyi (1918-2018” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2 oktyabr 2017-ci il tarixli 790-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalamışdır. Fərmanın 2-ci bəndinə görə “Azərbaycan Polisinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respubliksının daxili işlər nazirinə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 oktyabr 2018-ci il tarixli Fərmanı ilə həmçinin “Azərbaycan Polisinin 100 illiyi (1918-2018) “ Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamədə təsdiq edilmişdir. Əsasnaməyə görə “Azərbaycan Polisinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə daxili işlər orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən daxili işlər orqanlarının əməkdaşları, veteranları, cinayətkarlara qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin olunmasında fəal iştirak edən və polis orqnlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər. Azərbaycan Prezidentinin 10 yanvar 2018-ci il tarixli daha bir Sərəncamı ilə isə 2018-ci il “Azərbaycan Xalq Cüümhuriyyəti ili” elan olunmuşdur. Bu mötəbər qanunvericilik aktlarından müstəqil Azərbaycan Xalq Cümhuriyyəti Polisinin varisi olan müasir Azərbaycan Respublikası Polisinə də pay düşür. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin 2 iyul 1918-ci ildə təsis etdiyi müstəqil Azərbaycan Polisi müasir Azərbaycan Polisinin sələfidir. Müasir Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Polisi öz 100 illik yubileyini böyük uğurlar və yüksək nailiyyətlərlə qarşılayır.

Azərbaycan Polisi daim Prezidentin və xalqın etimadını doğruldur. Azərbaycan Daxili İşlər Nazirliyinin, Azərbaycan Polisinin şəxsi heyəti suverenliyimiz, ərazimizin bütövlüyü və torpaq-

larımızın müdafiəsi uğrunda erməni qəsbkarlarına qarşı müqəddəs savaşlarda 1695 nəfər şəhid vermişdir, 1710 nəfər isə yaralanmışdır... Göstərdikləri şücaət və igidliyə görə 67 nəfər əməkdaş "Azərbaycanın Milli Qəhrəmanı" adına, 1143 nəfər orden və medallara, o cümlədən son 15 ildə 626 əməkdaş, ümumiyyətlə, müstəqillik illərində qanunla müəyyən edilmiş vəzifələrin icrasında fərqləndiklərinə və xüsusi xidmətlərinə görə daxili işlər orqanlarının 1272 əməkdaşı və hərbi qulluqçusu layiqli xidmətlərinə görə dövlət mükafatlarına, 44 nəfər vəzifəli şəxs ali xüsusi rütbələrə layiq görülmüş, polis əməkdaşlarının rütbə və vəzifə maaşları 16 dəfə artırılmışdır. Bunlarla əlaqədar möhtərəm Prezidentimiz İlham Əliyev 14 sərəncam imzalamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi olan müasir Azərbaycan Respublikası Polisi zamanın, dövrün zəruri tələblərinə uyğun təşkilati və struktur cəhətdən daim təkmilləşir, AR DİN-in Polis Akademiyasının hazırladığı kadrların səviyyəsi ildən-ilə dahada yüsəlir, bütövlükdə Azərbaycan Polisi dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq və təcrübə mübadiləsi (DİN-in 2016-cı il 2 iyul məlumatına görə, BMT. NATO, Avropa Şurası, ATƏT və digər beynəlxalq qurumların təşkil etdiyi müxtəlif form və müşavirələrdə son 14 ildə 8 mindən çox əməkdaşımız iştirak etmiş, təcrübə mübadiləsi aparmış, cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə 445 fərman və sərəncam imzalanmışdır) inteqrasiya yolu ilə sivil forma, tam mədəni polis yolunda inamla irəliləyir.

Azərbaycan Polisi bu gün də ölkəmizdə əmin-amanlığın, sabitliyin və qanunçuluğun keşiyində duraraq, cinayətkarlıq və onun yeni növləri ilə qətiyyətlə mübarizə apararaq dövlətinə, xalqına və Prezidentinə sadiqdir. Ulu öndər Heydər Əliyevin seçdiyi ən uğurlu kadrlarından biri, onun ideallarını layiqincə həyata keçirən general-polkovnik Ramil Usubovun rəhbərliyi altında (yeri gəlmişkən, 1918-ci ildən bəri Azərbaycanda cəmi 34 nəfər daxili işlər naziri vəzifəsində işləmişdir. Onlardan cəmi 4 nəfəri general-leytenant rütbəsinə malik olmuşdrur. 1994-cü il aprelin 29-dan ulu öndər,

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən daxili işlər nazir təyin edilmiş Ramil Usubov **general-polkovnik rütbəsinə** layiq görülmüş (**15 yanvar 2002-ci il**) yeganə nazirdir. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, bütövlükdə Azərbaycan Polisi bu gün cəmiyyətimizdə çox mühüm rol oynayır və öz xidmətilə xalqın məhəbbətini qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə söyləmişdir : "Azərbaycan Polisinin çox böyük və şərəfli yolu var. Bu yol Azərbaycan dövlətçiliyinin yoludur". Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov isə demişdir: "Vətənə, xalqa, ulu öndərimiz Heydər Əliyevin dövlətçilik konsepsiyasına, Prezident İlham Əliyevin siyasi kursuna sədaqət Azərbaycan Polisinin ən ali prinsipidir".

# I FƏSİL

# Azərbaycanda Polisin yaranması və təşəkkülü tarixindən

## §1. Azərbaycanda polisin yaranması, təkamülü və təşəkkülü tarixindən

Bir hakimiyyət strukturu, bir güc qüvvəsi kimi polisin tarixi ("polis" alman-yunanca "politeia" sözündən olub, mənası "dövləti, dövlət işlərini idarə edən" deməkdir) dövlətin tarixi, dövlətçiliyin tarixi ilə bağlıdır. Belə ki, ta qədimdən təşəkkül tapan müxtəlif xarakterli və formalı dövlətlərin (məsələn, qədim Yunanıstan, qədim Roma, qədim Misir, qədim İran və s.) asayişi, sabitliyi qoruyan və bilavasitə cinayətkarlıqla mübarizə aparan hüquq-mühafizə qüvvələri - silahlı inzibati orqanları olmuşdur. İran hökmdarı I Daranın, Makedoniyalı İsgəndərin qüdrətli qədim dövlətləri, Sasanilər, Ərəb Xilafəti, Səlcuqlar, Monqollar, Osmanlı, Səfəvi, Rusiya və s. imperiyalarda da belə idi. Üçminillik dövlətçilik tarixi olan Azərbaycanın klassik quldarlıq dövlətləri Manna, Atropatena dövlətlərində, orta əslərdə Şirvanşahlar, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətlərində və xanlıqlarda müxtəlif mahiyyət daşıyan, polis funksiyasını yerinə yetirən, lakin ayr-ayrı ad və formalarda daxili güc və mühafizə qurumları mövcud olmuşdur. Məsələn, IX əsrdə paytaxtı Şamaxı olan Şirvanşahlar dövlətində feodal –inzibati sisteminin hökm sürdüyü şəraitdə şəhərin asayişini, qayda-qanunu təmin edən və cinayətkarlıqla mübarizəni təşkil edən məmur ("rəis") "**mühtəsib**", onun müavini "**nəqib**" adlanırdı. Onların vəzifəsinə həmçinin şəhərin məhəllələrinə, bazarlara, ticarət-sənətkarlıq obyektlərinə göz qoymaq, xüsusən ticarətdə ölçü və çəkiyə düzgün əməl edilməsinə nəzarət etmək, bunları pozanları cəzalandırmaq (cərimə etmək), həmçinin şəhər əhalisinin təhlü-

kəsizliyini və əmlakını qorumaq və s. daxil idi. Şəhər hakimi mühtəsibə cinayətkar ünsürlərə, oğru və xuliqanlara, sərxoşluq edənlərə qarşı istintaq vəzifəsini də həvalə etmişdi. Əhali arasında müsəlman əxlaqı, dini adət və ənənələrə riayət edilməsinə, sərxoşluq və əyləncəli (meyxana və s.) oyunlarını nəzarətdə saxlamaq da mühtəsibin ümdə vəzifələrindən idi.

Azərbaycan Atabəylər (Eldənizlər) dövlətində (1236-1225) şəhərlərdə ictimai asayişi qoruyan qarnizon **şihnə** adlanırdı. O, baş vəzir tərəfindən təyin edilən geniş səlahiyyətli dövlət məmuruna - şəhər rəisinə ("**rəis**" ərəb sözüdür, "başçı", "amir", "amirlik edən", sədr"", "rəhbər", "idarə edən" deməkdir) tabe idi və onun əmrlərini icra edirdi. Rəis bir qayda olaraq yerli vəziyyəti, xüsisiyyətləri, ənənələri və adətləri yaxşı bilən nüfuzlu, əsilli çəxslərdən təyin edilirdi. O, şəhərin idarə edilməsində geniş səlahiyyətlərə və hətta müstəsna (sərbəst) hüquqlarada malik idi. Rəis, valiyə (**qubernator)** tabe idi. Rəis şəhərin hakimi qarşısında şəxsi məsuliyyət daşıyırdı. XVI əsrdə Azərbaycanın mərkəzləşdirilmiş Səfəvilər dövlətində (1501-1736) polis rəisi bilavasitə şah tərəfindən təyin edilən **darğa (**keçmiş mühtəsib**)** adlanırdı. Bu haqda Səfəvilər dövlətində olmuş alman səyyahı **Kemfer** və fransız taciri **Tavernye** məlumat verir... Onlar yazırlar ki, darğa şəhəri **kələntər** adlanan şəxslə birlikdə idarə edirdi. Onların funksiyasına şəhərin daxili sabitliyini, vətəndaşların təhlükəsizliyini təmin etmək, cinayət işlərinə baxmaq, axtarış aparmaq və cinayətkarları tutmaq, cərimə və həbs etmək daxil idi. Darğa müstəsna hallarda xüsusilə təhlükəli cinayətkarları edam etmək hüququna da malik idi. Tavernye yazır ki, hər həftənin birinci günü darğa müxtəlif təlabatlı zəruri ərzaq məhsullarının qiymətini əvvəlcədən müəyyənləşdirir və onları carçılar əhaliyə elan edirdilər. Həmin qiymət, ölçü və çəki qaydalarını pozanlar darğa tərəfindən ciddi cəzalandırılırdı. Səfəvilərin paytaxtı Təbriz çox böyük şəhər olduğu üçün onun idarə edilməsində darğa 3 nəfər **qazi** ilə də mütləq razılaşırdı. Belə ki, darğa öz köməkçisini - **naibi** (müavini-İ.Ə.) təyin edəndə, ali ruhani vəzifəsi daşıyan həmin qazilərin mütləq razılığını almalı idi. Darğa müasir polis rəisi-

nin malik olduğu bütün səlahiyyətlərə malik idi. Orta əsrlərdə şəhərlərdə (Təbriz və. i.) gecə gəzintiləri aparan və keşik çəkənlər **şihnə** və **"asarlar**" ("gecə patrul xidməti qüvvələri", "dəstələri") adlanırdı. Hər bir şihnənin ("komandir") tabeliyində bir neçə köməkçi-**mülazim olurdu**. Səfəvilər dövründə qayda-qanunu qoruyan **yasaullar** ("Yasa"-" "qanun", "qayda" deməkdir) yaradılmışdı. Lakin yasaullar qayda-qanun və təhlükəsizliyi o yerlərdə qoruyurdular ki, orada **şah** olurdu (bir növ şahın şəxsi mühafizəsi və qvardiya üzvləri-İ.Ə.). Yasavullar şaha yaxın nüfuzlu əmirlərin ailələrindən seçilrdilər. Onlar 8-9 nəfərdən ibarət qrup təşkil edirdilər. Şahın iştirak etdiyi təntənələrdə və tədbirlərdə yasaullar şahın yanında, lap yaxınlığında olur, təhlükəsizliyi təmin etmək üçün tam hakimiyyətə malik idilər. Yasaulların rəisi **eşik ağasıbaşı** adlanırdı. O, yasavulların xidmət yerini və istəklərini müəyyən edirdi. Bundan başqa, şahın yanında onu müşayiət etmək və başqa məqsədləri yerinə yetirmək üçün sayı 700 nəfərə çatan şəxsi qvardiya-**qorçular** vardı. Sayı 4 mindən 6 minədək təşkil edən qorçilara **qorçubaşı (komandir - rəis - İ.Ə.)** başçılıq edirdi**.** Qorçubaşı şahın ən yaxın nüfuzlu əyanlarından (əmirlərindən olan **əl-umara** (əmirlərin böyüyü) tərəfindən təyin olunur, onun qarşısında şəxsən məruzə edirdi. Öz əzəmətli xarici görünüşləri ilə başqalarından fərqlənməli olan qorçular ilk növbədə hündürboy, möhkəm bədənli, cəsur, güclü gənclərdən seçilir və ancaq **qızılbaş** nəslinə mənsub idlər. Onlar hər an operativ əməliyyatlara hazır olan xüsusi mobil hissə (indiki daxili qoşun hissəsi-İ.Ə.) kimi qılınc, qalxan, xəncərlərlə, döyüş baltaları ilə silahlanır, zəruri hallarda süvari dəstələr halında da toparlanırdılar...

XVII-XVIII əsrlərdə otaylı - bu taylı Azərbaycan feodal dağınıqlığı dövrünü yaşayırdı. Ölkə müxtəlif feodal xanlıqlarına (19 xanlığa) bölünmüşdü. Hər bir xanlıq əsasən öz paytaxtı olan şəhərlərin adı ilə adlanırdı (məsələn, Bakı xanlığı, Gəncə xanlığı, Təbriz xanlığı, Naxçıvan xanlığı, Quba xanlığı, Dərbənd xanlığı, Urmiya xanlığı, Şamaxı xanlığı, İrəvan xanlığı və s.). Şəhərlər həmdə inzibati mərkəzlər idi. Səfəvilər dövründə olduğu kimi xanlıqlar dövründə də (**Nadir şah Əfşarın öldürüldüyü 1747-ci llədək**) şə-

hərlərdə ictimai asayişin qorunmasını və cinayətkarlarla mübarizəni yenə darğalar həyata keçirirdilər. Onların tabeçiliyindəki qüvvələr (müasir polis əməkdaşları - İ.Ə.) **mülazimlər (nökərlər-qulluqçular)** adlanırdılar. İnzibati cəhətdən xanlıqlar mahallara bölünürdü. Mahalı **naib** idarə edirdi. Naiblərin tabeliyindəki mülazimlərdən başqa **keşikçilər və yasavullarda vardı ki**, onlarında vəzifəsi xanın, onun sarayının və ailəsinin (hərəmxanasının - İ.Ə) mühafizəsini təmin etmək idi. Xanlıqlarda ali "polis" funksiyası tamamilə xanın özünə məxsus idi. İcraçılar isə naiblər, mülazimlər, keşikçilər və yasavullar idi. Onlara vergi və mükəlləfiyyətləri toplamaq da tapşırılmışdı. Yasavullara yığılan vergilərin 10 faizini özlərinə götürmək hüququ da verilmişdi. Lakin darğaların, naiblərin, keşikçilərin və yasavulların cinayət işlərini aparmaq hüququ yox idi. Bu hüquq həmin dövrdə yalnız ruhanilərə və dini məhkəmələrə məxsus idi.

XIX əsrin əvvəllərində baş verən iki (1804-1813 və 1826-1828-ci illər) Rusiya- İiran müharibəsi nəticəsində İranın məğlubiyyətindən sonra bağlanan, xalqımız üçün faciəli olan Türkmənçay "sülh" müqaviləsinin (10 fevral 1828-cil il) şərtlərinə görə, Azərbaycan bölünmüş, Şimali Azərbaycan (Quzey Azərbaycanı) zorla çar Rusiyasının tərkibinə qatılmışdı. Təxminən 1804-1826-cı illərdə xanlıqlar bir-birinin ardınca istiqlaliyyətlərini itirmiş və Azərbaycan xalqı müstəmləkə əsarəti altına düşmüşdü. Bundan sonra, Azərbaycan Rusiya imperiyasında keçirilən inzibati-ərazi vahidinin, müstəmləkə imperiya hərbi-inzibati rejiminin, o cümlədən yeni polis idarəçiliyinin subyekti olmuşdu. Belə ki, tezliklə Rusiyada hərbi komendant sistemi tətbiq edilmiş, bütün ölkədə, həmçinin Azərbaycan ərazisində hərbi komendant - polis idarə sistemi (1828-1840-ci illər) tətbiq edilmişdir. Bu sistemin aparıcıları olan hərbi komendantlar məhkəmə, hətta ölüm cəzası tətbiq etmək hüquqlarına malik idirlər. Bütün şəhərlər və kəndlər hərbi çar zabitləri, komendantları vasitəsilə idarə olunur, eyni zamanda, kobud, olduqca amansız hərbi və polis səlahiyyətlərindən istifadə edirdilər. Şəhərin bütün məmurlarını (mahal naiblərini, hətta qazilərıdə) komendant özü təyin edirdi. Komendantların özbaşınalığının həddi - hüdudu yox idi...

Belə şəraitdə, **1840-cı il yanvarın 1-də Lənkəran şəhərində Azərbaycanda ilk polis idarəsi təsis olunmuşdu**. Onun aparatı rəisdən, onun müavinindən, yerli sakinlərdən ibarət 2 nümayəndədən, katib və mirzədən ibarət idi. Bu idarənin əsas funksiyası şəhərdə sakitliyi qorumaqdan və onun təsərrüfatını idarə etməkdən ibarətdi. Bu, artıq laxlamaqda, özünü doğrultmayan və süquta uğramaqda olan komendant üsul-idarəsini saxlamağa yönəlmiş son uğursuz cəhdlərdən biri idi. Lənkəranın ardınca1840-cı il apreilin 10-da həmçinin Bakı şəhər Polis İdarəsi də yaranmışdı.

... 1840-cı il aprelin 10-da çar hökuməti Zaqafqaziyada inzibati-məhkəmə islahatı haqqında qanun verdi. 1841-ci il yanvarın 1-dən qüvvəyə minən bu qanun Rusiya imperiyası ərazisində yeni ərazi-inzibati bölgüsü - quberniya inzibati ərazi idarəetmə vahidinin tətbiq olunduğunu hüquqi cəhətdən təsbit etmiş oldu. “Zaqafqaziya ölkəsinin idarə olunması haqqında” həmin Qanuna uğun olaraq Azərbaycanda da komendant idarəçiliyi ləğv edildi və ümumrusiya inzibati sistemi tətbiq olundu. Ləğv edilmiş köhnə müəssisələrin yerinə yeni - quberniya, qəza və sahə idarəçiliyi təsis edildi. Zaqafqaziya ölkəsinin başında general-qubernator hüququnda olan baş komandan saxlandı. Qəza hakimiyyət orqanlarının quruluşu Rusiyanın mərkəzindəki kimi idi. Hər bir qəza idarəsinin başında köməkçisi (müavini-İ.Ə.), yanında qəza məhkəməsi, ona tabe olan şəhər rəisi olan qəza rəisi dururdu. Onlar kəndlilərin vaxtlı-vaxtında dövlət vergisini və müxtəlif mükəlləfiyyətləri necə ödəməsinə də nəzarət edir, həmçinin xırda hərəkətlərin təhqiqatını aparırdılar.

Çar hökuməti Qafqazda öz mövqeyini möhkəmlətmək üçün 1844-cü il dekabrın 27-də iqamətgahı Tiflisdə yerləşən Qafqaz Canişinliyi təsis etdi (Qafqazın ilk canişini qraf Mixali Vorontsov (27 dekabr 1844 – 1 mart 1854) olmuşdu. Qafqazda keçirilən belə inzibati-ərazi dəyişikliklərinə uyğun olaraq şəhərlərdə yeni polis idarələri yaradıldı. Belə ki, “Zaqafqaziya ölkəsinin idarə edilməsi haqqında” 1840 –cı il 10 aprel tarixli Qanunüna əsasən ən birinci ərazi (qəza) polis idarələri əvvəlcə Yelizavetpolda (Gəncə), Qarabağda (1846-cı ildə Şuşada), Qubada, Naxçıvanda, Talışda (1846-cı

ildə Lənkəranda) və Şirvanda (1846-cı ildə Şamaxıda) qəza polis idarələri açılmışdı. (Bakı şəhəri ilə yanaşı Şamaxı şəhərindədə polis idarəsi hələ 1840-cı ildə yaranmışdı). Onların hamısı bilavasitə qubernatorun, quberniya (vilayət) rəisinin və Rusiya Daxili İşlər Nazirliyinin (DİN) Dəftərxanasının tabeliyində idi. 1846-cı ildə Kaspi Vilayətinin əvəzinə Şamaxı quberniyası yaradılmışdı. Tez-tez zəlzələ baş verdiyindən bu quberniyanın mərkəzi 1859-cu ildə Bakıya köçürülmüşdü. 1860-cı ildə keçirilən islahat nəticəsində Quba qəzası Bakıya birləşdirildikdən sonra Bakı quberniyası yaradılmışdı. Sonralar (1866-cı il) Bakı şəhər polisinin ştatları məhz ştatları ixtisar edilmiş Şamaxı şəhər polisinin hesabına artırılmışdı.

Çar hökumətinin qəbul etdiyi 1862-ci il 25 dekabr tarixli "Şəhərlərdə və qəzalarda polisin quruluşu haqqında" müvəqqəti qaydalara əsasən şəhər və zemski polisi əvəzinə hər bir qəzada vahid polis orqanı - qəza polis idarəsi təsis olunmağa başlanmışdı. 1864-cü il 20 noyabr tarixli məhkəmə nizamnaməsinə görə isə, polisin məhkəmə səlahiyyəti onun əlindən alınmışdı.

Çarın "Qafqazın idarə edilməsinin və Zaqafqaziya ölkəsinin yenidən yaradılması" haqqında 1867-ci il 9 dekabr tarixli fərmanına (1 yanvar 1841-ci il yanvarın 1-dən qüvvəyə minmişdi) əsasən 1868-ci ilin martında qəza idarələri qəza polis idarələri strukturunda yenidən təşkil olunub qubernatorlara və quberniya idarələrinə tabe edildilər. Qəza polis idarələrində pristavlıqlar və qəzaların sərhədyanı mühafizə dəstələri yaradılmışdı. Həmin vaxt qəzalardakı ümumi polisin bütün məmurlarının məvacibləri dövlət hesabına, şəhərlərdəki polisin şəxsi heyəti əmlakları onlar tərəfindən qorunan sahibkarlar, yaxud sahibkarlar ittifaqı tərəfindən ödənilirdi.

60-cı illərin sonlarında qəza polis idarəsinin strukturu qəza rəisindən, onun böyük və kiçik köməkçilərindən, katibdən, iki karqüzardan, tərcüməçidən, sənəd daşıyanlardan, strajniklərdən, həbsxana yaxud həbs evləri nəzarətçisindən ibarət idi. Qəza rəisləri Qafqaz Ali Administrasiyası tərəfindən təyin olunurdu; hər bir qəza polis idarəsi şöbəyə bərabər mühüm struktur sayılan dəftərxanaya malik idi. Dəftərxana özü də iki stola bölünürdü. 1867-ci ildə

inqilabi çıxışlarla mübarizə məqsədilə Bakı Quberniya Jandarm İdarəsi yaradılmışdı.

... Çarın yuxarıda göstərilən 1867-ci il 9 dekabr tarixli fərmanına uyğun olaraq polis orqanlarının 1841-1867-ci illərdə həyata keçmiş yenidəntəşkili prosesindən sonra sahə polis idarələri pristavlıqlarla (1868-1888) əvəz edilmişdi. Hətta Bakı quberniyasında Lahıc (İsmayıllıda) və Bərgüşad (Ucarda) pristavlıqları yaradılmışdı. Pristavlar qəza rəislərinə tabe idilər, onların yaxından nəzarəti və rəhbərliyi altında fəaliyyət göstərirdilər; daimi iqamətgahları yox idi, dəftərxana işləri aparmırdılar. Qəzalar daha kiçik inzibati polis vahidliklərinə (nahiyələrə, sahələrə və s.) bölünürdülər. Şəhər polis idarəsi polismeysterdən, onun köməkçisindən və şəhər silki təbəqəsindən olan iki iclasçıdan ibarət idi. Polismeyster və onun köməkçisi vəzifəyə qubernator tərəfindən təyin olunurdu. Şəhərlər qubernatorlar tərəfindən təyin edilən, başında pristavların durduğu sahələrə bölünürdü. Bundan başqa, qubernator şəhər pristavına kömək üçün ona köməkçi və polis nəzarətçisi də təyin edirdi. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılmışdı. Onun başında polisin də tabe olduğu qubernator dudrurdu.

... XIX əsrin sonlarında kapitalizmin, xüsusilə neft sənayesinin inkişafı ilk növbədə Bakıda və Azərbaycanın digər ərazilərində polis idarəçiliyi sistemində də yeni təşkilati və struktur dəyişikliklərinə səbəb olmuşdu. Hələ 70-ci illərdən etibarən polis də islahatlar keçirilməyə başlanmışdı. 1874-cü ildə polislərin sayı və hüquqları artırılmışdı. Bakı quberniyasında polis idarəsinə hüquq verilmişdi ki, siyasətlə məşğul olanların işi üzrə geniş təhqiqat aparsın. “Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki. 1968-ciilədək Şəki Nuxa adlanmışdır-İ.Ə.), Naxçıvan və Ordubad şəhərlərinin Əsasnaməsi”nə (1874) uyğun olaraq çar hökuməti Azərbaycanda jandarm-polis sistemini möhkəmlətməyə başlamışdı... 1867-ci ildə Bakı Quberniya Jandarm İdarəsi, 1868-ci ildə Ordubad Polis İdarəsi yaradılmışdı. 1871-ci il də qəbul edilmiş qanuna görə, jandarmaya yeni səlahiyyətlər verilmişdi. 1876-cı ildə Şərur-Dərələyəz Qəza Polis İdarəsi, 1877-ci ildə Zaqafqaziya Polis Strajasının Bakı Quberniya

İnspeksiyası (Müfəttişliyi), 1879-cu ildə Yelizavetpol (Gəncə) Quberniya Jandarm İdarəsi yaradılmışdı. Həmin dövrdə Rusiyada cəmi 8 jandarm dairəsi vardıki bunun biri Zaqafqaziya ölkəsində idiı . Bakı və Yelizavetpol Jandarm İdarələri həmin dairəyə tabe idilər. 1881-ci il martın 14-də "Dövlət təhlükəsizliyinin və ictimai sakitliyin qorunması tədbirləri haqqında" Əsasnaməyə görə istintaq - təhqiqatın aparılması işlərində, inzibati - polis hakimiyyətində jandarmanın hüquq və səlahiyyətləri daha da genişlənmişdi. 1885-ci ildə Bakı Qəza Polis İdarəsi yaranmışdı.

... 1873-cü ildən ilk dəfə olaraq polisə muzdlu mülki vətəndaşların cəlb olunmasının tətbiqinə keçilmişdi. Həmin ildən polisdə 5 il qüsursuz xidmətə görə verilən qızıl və gümüşdən düzəldilmiş müxtəlif dərəcəli Georgi və Vladimir orden və medalları ilə təltif olunması, polis məmurlarına ilk dəfə olaraq "Müqəddəs Anna" ordeninin də verilməsi başlanmışdı. Cənubi Dağıstanda baş verən qiyamla (1877-1878) əlaqədar hadisələrdən sonra 1878-ci ildə yerlərdə vəziyyətə nəzarət edən, 30-40 nəfərlik dəstələrlə polis xidmətini həyata keçirən **uryadnik qüvvələri** yaradılmışdı. Onlar ərazi polis pristavlarına tabe olmaqla fəaliyyət göstərirdilər.

Hələ 1867-ci ildən Peterburqda peşəkar polis kadrları hazırlayan xüsusi məktəb açılmışdı. 1881-ci ildə belə məktəb Moskvadada açılmışdı. Sonralar - 1905 ildə Bakı Qradonaçalnikliyi nəzdində də şəhər polismeysterinə tabe olan Ehtiyat **Polisi** Şöbəsi yaradılmışdı. Burada atlı və piyada polislər hazırlanırdı.

Çar II Aleksandrın öldürülməsindən sonra bütün ölkədə Daxili İşlər Nazirliyinin mərkəzləşdirilməsi və polis rejiminin gücləndirilməsi başlanmışdı. 1882-ci il dekabrın 31-də Bakı Şəhər Polisi yeni inzibati bölgü üzrə iki hissəyə və 6 sahə üzrə fəaliyyət göstərməyə başlamışdı.

1888-ci il mayın 10-da Rusiya Dövlət Şurası "Zaqafqaziya quberniyaları qəza polisinin yenidən yaradılması haqqında" qərarı qəbul etmişdi. Bu qərara görə, Azərbaycan ərazisində qəzalar 50-dən artıq sahəyə bölünmüşdü. Onlar qəza rəisinə tabe edilmişdilər və ştatlar üzrə aşağıdakı qaydada komplektləşdirimişdilər: qəza və

ya şəhər polis pristavı, onun köməkçiləri, məhəllə nəzarətçiləri və qorodovaylar. Aşağı polis vəzifələrini polis strajaları icra edirdilər. Sahə polis idarələrinə kənd ictimai idarəsinin vəzifəli şəxsləri - kənd ağsaqqalları və kovxalar da tabe olunurdular. 1888-ci ildə Bakı həbsxanası tikilmişdi. 1899-cu il may ayının 24-də Bakıda soyğunçuluq, quldurluq və başqa ağır cinayətlərə qarşı mübarizə aparmaqla bilavasitə məşğul olacaq **xüsusi polis dəstəsi** yaradılmışdı.

XIX əsrin 90-cı illərindən Azərbaycan ərazisində çar hakimiyyətinə və bəylərə qarşı qaçaqçılıq hərəkatı geniş vüsət almışdı. Buna qarşı mübarizə, ictimai asayişi və təhlükəsizliyi təmin etmək, cinayətlərin qarşısını kəsmək üçün "Zaqafqaziya müvəqqəti polis strajası" və "Zaqafqaziyanın Bakı quberniyasının polis strajasıı" haqqında verilən fərmanlara uyğun olaraq **xüsusi polis (keşik, qarovul) təşkilatı** yaradılmışdı (Bu təşkilat 1899-cu il avqustun 1-dən fəaliyyətə başlamışdı). **Polis strajası** bilavasitə yerli administrasiyaya tabe edilmişdi və bir növ hərbi təşkilat xarakteri daşıyırdı. Strajanın müdiri (rəisi - İ.Ə.) bir qayda olaraq sıra qərargah zabitindən təyin olunurdu. Strajniklər isə uryadniklərə tabe idilər. Uryadniklər polis vızifələrindən başqa prokurorların, müstəntiqlərin və jandarma zabitlərinin tapşırıqlarını da yerinə yetirirdilər. 1895-ci il iyunun 1-də Bakı polisinin ştatları artırılmışdı. **1897-ci ildə Balaxanı - Sabunçu Polismeysterlik İdarəs**i yaradılmışdı. Əvvəllərdə olduğu kimi, həmin dövrdədə azərbaycanlılar polisə az qəbuil olunurdular...1902-ci ilin may ayında Bakı Şəhər Polis İdarəsi məmurlarının sayı 260 nəfər idiki, bunun da 225 nəfəri qorodovoylar və məhəllə nəzarətçiləri idi. Lakin Bakı qubernatoru D.A.Odinsov bu sayı iki dəfə artırmağı tələb edirdi... Hələ 1904-cü il fevralın 15-də Bakı Ünvan Stolu özünüidarə səlahiyyəti almaqla yeni əsaslarla fəaliyyətə başlamışdı

XX əsrin əvvəllərində Azərbaycanda polis-jandarm rejimi gücləndirilmişdi. Rus-yapon müharibəsi və fəhlə hərəkatının artması çarizmi ölkədə inzibati-polis aparatını möhkəmləndirməyə sövq etmişdi. **1905-ci il fevralın 15-də Bakı müvəqqəti general-qubernatorluğu vəzifəsi təsis edildi**, fevralın 18-də isə çarın fərmanı ilə

Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan olundu. 1905-ci il fevralın 26-da Qafqazda baş komandanlıq vəzifəsi ləğv edildi və əvəzində hələ 1881- ci il noyabrın 22-də də ləğv olunmuş Qafqaz Canişinliyi fəalyyətini bərpa etdi. Həmin il Qafqaz canişini Vorontsov-Daşkov Bakıya gəlmiş, polisin müşayiətilə Bakı neft mədənlərinin polis tərəfindən necə mühafizə olunması ilə tanış olmuşdu.

... 1905-ci il aprelin 15-də general-mayor Kanevski Bakı qradonaçalniki təyin edilmişdi. Bundan 2 gün əvvəl - 1905-ci il aprel ayının 13-də knyaz Mixail Nakaşidze Bakının qubernatoru təyin olunmuşdu. Lakin onun fəaliyyətindən narazı qalan 5 erməni terrorçusu 1905-ci il mayın 11-də o şəhərin mərkəzindəki Parapet (indiki Fəvvarələr meydanı-İ.Ə.) bağından faytonla keçib Vrangel küçəsinə daxil olarkən faytona bomba tullamış və Nakaşidze aldığı yaralardan ölmüşdü (onu “Daşnaksütyun” partiyasının 22 yaşlı üzvü “Dro” ləqəbli” Drostamat Kanayanın öldürdüyü tarixi ədəbiyyatda yazılır). Bundan sonra, şəhərdə vəziyyət olduqca kəskinləşmişdi. 1905-ci il avqustun 26-də Bakı general-qubernatoru şəhərdə mühasirə vəziyyəti elan etmişdi. Belə ki, avqustun 22-25-də “qanlı hadisələr”... baş vermiş, nəticədə Balaxanı-Sabunçu və Bibiheybət neft mədənlərində güclü yanğınlar törədilməsi üzündən 124 neft qülləsi sıradan çıxmışdı. Ümumiyyətlə, Abşeron yarımadasında olan 3133 neft- qazma qülləsindən 1795-i yanmış, kütləvi qarma-qarışıqlıqlar, etnik toqquşmalar, ekstremizm, ölümlər, yanğınlar və soyğunçuluğa görə 19.500.000 rubl zərər dəymişdi. Odurki, Bakı burjuaziyası hökumətdən təsirli tədbirlər görməyi, ilk növbədə təxirəsalınmadan Qradonaçalniklik (Şəhər rəisliyi-İ.Ə.) təsis olunmasını tələb edirdi.

1905-ci il sentyabrın 12-də çar hökuməti öz iclasında Bakıda polismeysterliyin təsis edilməsi məsələsini müzakirə etmişdi. Nəhayət, 1906-cı il oktyabrın 28 Rusiya Dövlət Şurası “Bakı Qradonaçalnikliyinin təsdiq edilməsi haqqında”, “Qradonaçalnikliyin müvəqqəti əsasnaməsinin təsdiq edilməsi haqqında”, “Bakı Qradonaçalnikliyi və Balaxanı-Sabunçu Polismeysterliyinin müvəqqəti ştatları haqqında” qərar qəbul etmişdi. Qərara əsasən, Neft Sənayeçiləri Qurultayı Şurasının vəsaiti hesabına maliyyləşdirilməsi

nəzərdə tutulmaqla Bakı və Balaxanı-Sabunçu Polismeysterlikləri yaradılmışdı. Onların idarə edilməsi üçün Qradonaçalniklik yanında iki qurum: ümumi inzibati və neft işi strukturları (şöbə hüququnda) yaradılmış, həmçinin Bakı və Balaxanı-Sabunçu Polismeysterliklərinin müvəqqəti ştatları təsdiq olunmuşdu. Ştatlar belə idi: 1 polismeyster, 1 köməkçi, 1 katib, 4 stol rəisi, 4 tərcüməçi, 1 qeydiyatçı-ekzekutor, 1 arxivarius, 10 pristav, onların 15 köməkçisi, 10 məktubdaşıyan, 40 məhəllə nəzarətçisi, 120 böyük, 480 kiçik qorodovoy, 100 atlı qorodovoy və Ehtiyat Polisi (Ehtiyat Polisi 1 müdirdən və 30 qorodovoydan ibarət idi). Balaxanı-Sabunçu Polismeysterliyi: 1 polismeysterdən, onun 1 köməkçisindən, 1 katibdən, 6 pristavdan, 20 məhəllə nəzarətçisindən və s. ibarət idi. Bakı Polismeysterliyində çalışan məmurlar müxtəlif millətlərdən idilər. Onların 401 nəfəri rus, 12-si gürcü, 24-ü erməni, 148-i azərbaycanlı, 2-si isə osetin idi. Rəis heyətində ruslar və gürcülər çoxluq təşkil edirdilər. 1906-cı il noyabrın 2-də çar hökuməti tərəfindən Bakı və Balaxanı-Sabunçu Polismeysterliyinin yeni ştatları rəsmən təsdiq edilmişdi. Çar hökumətinin qərarı ilə Bakı Polismeysterliyinin köməkçisi (müavini-İ.Ə.) əvvələr çar sarayında polis rəisi işləmiş general-leytenant E.N.Şirinkin təyin olunmuşdu.

1906-cı il 28 oktyabr tarixli qərar ilə polisdə mühüm strukturlardan biri olan Bakı Qradonaçalnikliyinin **Xəfiyyə (Axtarış-İ.Ə.) Polisi** yaradılmışdı. Polis islahatına başlanması ilk növbədə xəfiyyə təşkilatına toxunmuşdu. O zaman xəfiyyə xidməti cinayət və siyasi xidmət olmaqla iki yerə bölünürdü. Azərbaycanda ümumcinayət xəfiyyəsi yalnız 1908-ci ildən sonra komplektləşdirilmişdi. Xəfiyyə Şöbəsinin tərkibinə rəis, onun köməkçisi, 4 polis nəzarətçisi və agentlər, agent filerlər (ştatdankənar şəxslər), stol müdirləri və qorodovoylar daxil idi. Rəislər və onların köməkçiləri vəzifəyə qubernator və prokurorlarla əvvəldən razılaşdırılmaqla dairə məhkəməsi tərəfindən təyin olunur və xidmətdən azad edilirdilər.

1911-ci ildə Bakı Qradonaçalnikliyinin Xəfiyyə Şöbəsi nəzdində **antropometrik və daktloskopik büro** təşkil olunmuşdu. Xəfiyyə şöbələrinə ümumi rəhbərliyi Rusiya DİN-in Polis Departa-

mentinin 8 Kargüzarlıq strukturu həyata keçirirdi. "Xəfiyyə hissəsinin təşkili haqqında" 1908-ci il 6 iyul tarixli qanuna əsasən ilk dəfə xəfiyyə hissələri ümumi polisin tərkibindən ayrılmışdı; imperiyanın bütün ərazisində cəmi 89 xəfiyyə şöbəsi yaradılmışdı. 1905-1907-ci illər inqilabından sonra xəfiyyə polisinin, xüsusən siyasi xəfiyyə polisi xidmətinin rolu dahada artırılmış, getdikcə təkmilləşdirilmişdi. 1908-ci ildə Bakı Xəfiyyə Polisi yanında ilk dəfə olaraq **antrometrik foto bürosu** təsis olunmuşdu.

1910-cu ildə **Bakı Mühafizə Polisinin** yaradılmasının mühüm əhəmiyyəti olmuşdu. Həmin il mayın 1-dən Bakı polismeysteri təyin edilmiş və 1914-cü ilədək bu vəzifədə uğurla çalışmış, yenilikçi, islahatçı kimi tarixdə qalmış podpolkovnik **Vladimir İvanoviç Nazanskinin** fəaliyyəti dövründə polismeysterlik aparatında müxtəlif millətlərdən olan 39 nəfər məmur çalışırdı. Polismeysterliyin yanında **Artel təsərrüfatı**, polislər üçün ayaqqabı və paltar tikən **emalatxana,** ayrıca t**ipoqrafiya** (16 noyabr 1910-cu ildən fəaliyyət göstərirdi), polislərdən ibarət 60 nəfərlik **musiqi orkestri** vardı. Polismeyeterliyin nəzdində "**siyasi" korteteka** da yaradılmışdı.

1910-cu il dekabrın 2-də Bakı Şəhər Dumasının qərarı ilə **Ünvan Bürosu** yenədə polisin səlahiyyətinə keçirilmişdi. Çünki, o maliyyə cəhətdən hələ şəhər özünüidarəsinin tabeliyində qalırdı. Ünvan Bürosunun polisin səlahiyyətinə keçirilməsindən sonra **Mərkəzi Stolun** nəzdində axtarış şöbəsi fəaliyyətə başlamışdı. 1911-ci ildə Bakı Polismeysterliyi yanında polis kadrları üçün 4 aylıq ixisasartırma kursu təşkil olunmuşdu. Kursa gələnlər həftədə 3 dəfə 3 saat məşğələlərdə hazırlıqlarını artıtırdılar.

1912-ci ilin əvvəlində Rusiyanın daxili işlər naziri A.A.Makarov tərəfindən hazırlanmış polisdə islahat layihəsi həmin il dekabrın 16-da onun yerinə gələn N.A.Maklakov tərəfindən həyata keçirilməmişdi... Həmin ilin martında Bakı polisinin yeni ştatları təsdiq olunmuşdu. Bu dövrdə Bakı Polismeysterliyi 10 sahə və Liman sahə polis pristavlığından ibarət idi. Polismeysterlik jandarm orqanları ilə sıx əlaqdə fəaliyyət göstərirdi. 1912-ci ildə Bakı polismeysteri V.İ.Nazanski podpolkovnik rütbəsinə layiq görülmüşdü.

1912-ci il noyabrın 30-da polkovnik Minkeviç Bakı Quberniya Jandarm İdarəsinin rəisi təyin edildikdən sonra bu əməkdaşlıq daha da intensivləşmişdi. **1913-cü il fevralın 1-dən Bakı Polismeysterliyi 3 növbəli xidmət rejiminə keçmişdi.** 1914-cü il fevralın 14-də isə Dumanın qərarı ilə Bakı Ünvan Stolu tamamilə Bakı Polismeysterliyinin tabeliyinə keçirilmiş, Polismeysterliyin 2, 3, 4 və 5-ci **məxfi stolları**nın hər birinin funksiyaları və fəaliyətinin əsasları təkmilləşdirilmiş, səmərəliliyinin səviyyəsi artırılmışdı... 1914-cü ilin dekabrında Bakı polismeysteri V.İ.Nazanski göstərdiyi xidmətlərə görə 4-cü dərəcəli "Müqəddəs Vladimir"ordeni ilə təltif olunmuşdu. Həmin vaxt Bakı qradonaçalniki polkovnik İ.D.Martınov idi.

...1916-cı ildə Bakı Xəfiyyə Polisi nəzdində **Qeydiyyat Şöbəsi** yaradılmışdı. Həmin il l oktyabrın 30-da çar II Nikolay tərəfindən "Quberniya polis orqanlarının möhkəmləndirilməsi, onların maddi cəhətdən yaxşılaşdırılması" haqqında əsasnamə təsdiq edilmişdi. Sonrakı illərdə, Rusiyada 1917-ci il fevral inqilabı ərəfəsində polisin siyasi partiyalar və ictimai hərəkatlarla mübarizəsi diqqəti cəlb edir. Həmin dövrdə Azərbaycanda polisin müxtəlif formalarının təşəkkül tapdığı, hətta şəxsi və qeyri-dövlət polisinin (kapitalistləri, maqnatları və sənayeçiləri, şəxsi şirkət və kompaniyaları, firma və cəmiyyətləri, varlı şəxsləri qoruyan qarovulçular, özəl mühafizə polisi, muzdlu mühafizə polisi, şəhərin müsəlman hissəsində "qoçu"lar ("piştonçular"), erməni hissəsində "mauzerçilər və s.) yarandığına dair tarixi faktlar var. Məsələn, Bakıda Danimarkadan olan sahibkarlar və iş adamlarına məxsus "Nobel qardaşları və K" yoldaşlığına 33 nəfərdən ibarət atlı və piyada özəl polis xidmət göstərirdi. Onların saxlanmasına 1916-cı ildə 18.019 rubl ödənilmişdi. "Neft" rus yoldaşlığı şirkətinə 35 polis xidmət edirdi, həmin ildə onların saxlanmasına sərf edilən məbləğ 18.326 rubl təşkil edirdi. "T.A.Kələntərov" sənaye firmasını qoruyan qorodovoylar müqavilə əsasında həmin firma tərəfindən maliyyələşdirilirdilər. Ümumiyyətlə, 15 firma 1916-cı il yanvarın 1-dən həmin il oktyabrın 1-dək göstərilən polis qulluğu üçün rəsmi məlumata görə Bakı və Balaxanı-Sabunçu Polismeysterliyinin hesabına 25.570 rubl pul

keçirmişdilər və s. Beləliklə, xarakterik mənbələrdən və əldə olan mövcud tarixi faktlardan aydın olur ki, Azərbaycanda ümumi, jandarm, xəfiyyə, bayır və siyasi, atlı və piyada , qəza və şəhər polis növlərilə yanaşı, fabrik, zavod, dəmiryol, liman, çay (su) polisi, o cümlədən qeyri-dövlət, xüsusi, özəl polis qurumlarıda yaranmış və fəaliyyət göstərmişdir. 1917-ci il fevral-burjua inqilabı nəticəsində onların bir qismi ləğv olunmuş, əvəzində milis orqanları (“milis” latın sözü olub, mənası “hərbi xidmət”, “qoşun” deməkdir) yaradılmış (məsələn, 1917-ci il aprelin 1-də Bakı Hərbi Milisi yaradılmış və A.Leonteviç onun rəisi təyin olunmuşdu və s.), digər bir qismi isə hələ bir müddət, hətta Birinci müstəqil respublikamız- Azərbaycan Xalq Cümhuriyyəti dövründə (28 may 1918-27 aprel 1920-ci illər) öz fəaliyyətlərini davam etdirmişdilər... Onların mövcudluğu və fəaliyyətinin tarixi təcrübəsi Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil polis orqanlarının yaranmasına və təşəkkülünə təsirsiz ötüşməmişdi...

# II FƏSİL

# Azərbaycan Xalq Cümhuriyyətinin, onun Daxili İşlər Nazirliyinin və müstəqil polisinin yaranması və təşəkkülü

## §1. Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin təsis edilməsi

***Tiflis mühiti*** (Bəsit (ilk) təsis dövrü) (**28 may - 16 iyun 1918-ci il).**

1918-ci ilin yazında 132 üzvü olan Zaqafqaziya Seymində böhran olduqca şiddətlənmişdi. Bunun əsas səbəblərdən biri həmin il martın 29-31-də S.Şaumyan və erməni-millətçi "Daşnaksutyun" partiyasının Bakıda və Azərbaycanın qəzalarında törətdikləri soyqırımı idi. Belə ki, Bakı XKS və erməni milli birləşmələrinin silahlı qüvvələri təkcə 3 gün ərzində 12 mindən çox, ümumiyyətlə isə, bütün Azərbaycanda on minlərlə azərbaycanlı və müsəlman əhalisini qırmış, qətliam törətmişdilər. Bu, Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Seymdəki müsəlman-Azərbaycan (Müsavat) fraksiyasının dərin qəzəbinə düçar olmuşdu. Gürcü (menşevik) və erməni (daşnak) fraksiyaları ilə də şiddətli daxili ziddiyyətlər, xüsusilə ərazi məsələləri üstündə münaqişələr suveren Zaqafqaziya Federasiyasının və Seymin tezliklə süqutuna gətirib çıxardı. 1918-ci il mayın 26-da Seymdən çıxan gürcü deputatlar müstəqil Gürcüstan Respublikası yarandığını elan etdilər. Mayın 27-də Seymdəki 44 nəfər azərbaycanlı deputat Tiflisdə sabiq Qafqaz canişini Konstantin Qrandükün vaxtılə oturduğu sarayda **Milli Şurada** birləşdilər və ertəsi gün - **mayın 28-də** Şərqdə yeni respublikanın - müstəqil **Azərbaycan Xalq Cümhuriyyətinin (AXC**) yarandığını elan etdilər. Həmin gün axşam xalqımızın azadlığı uğrunda böyük istiqlal

fədailərindən biri, Moskva Universitetinin hüquq fakültəsini bitirmiş, Rusiyada II və III Dövlət Dumasının üzvü, görkəmli ictimai-siyasi xadim, Zaqafqaziya Seyminin üzvü, Zaqafqaziya Federativ Respublikasının ədliyyə naziri olmuş, böyük nüfuza malik, partiya mənsubiyyəti üzrə bitərəf **Fətəli xan Xoyski** (1875-1920) başda olmaqla **Azərbaycan Xalq Cümhuriyyətinin Birinci Koalisiyalı Müvəqqəti Milli Hökuməti yaradıldı**. F.Xoyski ilk Baş nazir (rəisi-vükalə) və eyni zamanda ilk daxili işlər naziri (28 may - 16 iyun 1918) oldu. F.Xoyski bütün müsəlman Şərqində dünyəvi təməl üzərində qurulmuş ilk parlament idarə üsullu, demokratik respublika kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasında və gələcək istiqlaliyyətinin qorunmasında mühüm rol oynadı. Azərbaycan Xalq Cümhuriyyətinin 5 hökumət kabinetindən üçündə Nazirlər Şurasının sədri olan F.Xoyskinin təşəbbüsü ilə 1918-ci il iyunun 4-də Osmanlı Türkiyəsi ilə "Dostluq və əməkdaşlıq haqqında" müqavilə bağlandı.

Mayın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan edən 6 maddədən ibarət "**İstiqlal Bəyannaməsi**" Nazirlər Şurasının sədri F. Xoyskinin imzası ilə dünya ölkələrinin paytaxtlarına və dövlət başçılarına Cənubi və Şərqi Zaqafqaziyada müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı, onun siyasi idarə quruluşu formasının parlamentə malik bir respublika, fəaliyyətinin əsaslarının demokratik prinsiplər olduğu barədə teleqrafla bəyan edildi.

Birinci Müvəqqəti Milli Hökumət 9 nazirlikdən ibarət yaradılmışdı. Həmin nazirliklər+ içərisində ən mühümlərindən birincisi, yeni yaranmış müstəqil dövlətimizin bel sütunu - müstəqil **Daxili İşlər Nazirliyi (DİN**) idi. Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin ilk daxili işlər naziri, eyni zamanda Baş nazir olan F.Xoyskinin o zaman baş nazir və həm də daxili işlər naziri vəzifəsini də öz üzərinə götürməsi Qərbi Avropa modeli idi. Baş nazirin eyni zamanda daxili işlər naziri vəzifəsini öz üzərinə götürməsi o vaxtkı mürəkkəb şəraitdə həmin nazirliyin olduqca məsuliyyətli qurum, ali inzibati icraedici hüquq-mühafizə orqanı sayılması və onun üzərinə düşən çətin vəzifələrlə əlaqədar idi. Azərbaycan Xalq Cümhuriyyətinin

elan olunduğu dövrdə əsl anarxiya hökm sürürdü. Belə bir zamanda gənc dövlətin ilk tədbirlərindən biri məhz anarxiyaya son qoymaq və ciddi qayda-qanun yaratmaq idi. Bu işdə isə yeni yaradılmış DİN və onun polis orqanlarının rolu çox önəmli idi.

Mənbələr və hüquqi sənədlər təsdiq edirki, Tiflisdə rəsmən 1918-ci il mayın 28-də müstəqil nazirlik kimi təsis edilən Azərbaycan Xalq Cümhuriyyəinin Daxili İşlər Nazirliyi də, digər nazirliklər kimi ertəsi gün, yəni mayın 29-da fəaliyyətə başlamış, şübhəsiz, onun ilk strukturları və aparatlarının təşkili getmiş, həmçinin öncə ilk vəzifələri müəyyənləşmişdi… Bu vəzifələr xüsusilə ilk dövrlərdə çar Rusiyası Daxili İşlər Nazirliyinin polis-jandarm sisteminin tarixi təcrübəsinin (1840-1917) və ənənəsinin həyata keçirdiyi başlıca vəzifələrin, demək olar ki, eyni idi. Bu vəzifələr yerli xüsusiyyətlərdə nəzərə alınmaqla daxili işlər naziri F.Xoyskinin rəhbərliyi altında hazırlanmış Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin ilk Əsasnaməsində öz əksini tapmışdı… Təəssüfki, həmin Əsasnamə əlmizdə yoxdur... Baş nazir və eyni zamanda bir daxili işlər naziri, həm də hüquqşünas kimi F.Xoyski çar Rusiyasının və Osmanlı Türkiyəsinin polis sisteminə, fəaliyyət təcrübəsinə bələd idi.

... Müstəqil Azərbaycan Polisinin yaranması və təşəkkülü tədrici bir proses idi. Əldə qalmış məhdud tarixi mənbələr və sənədlər sübut edirki, Birinci Müvəqqəti Milli Hökumət Kabineti dövründə bizim klasik anlamda başa düşdüyümüz Azərbaycan Polisinin nizami orqanlarının yaranması barədə qanunvericilik aktları cüzidir. Çünki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, kommunistlər və əsasən də hakimiyyətdə yüksək vəzifə tutan bolşevik erməni nümayəndələri (A.Mikoyan. Sarkis (Danilyan), L.Mirzoyan, X.Qriqoryan, R.Markaryan və s.) AXC-nin, xüsusilə DİN-in sənədlərini bilərəkdən məhv etmişlər. Başqa dövlətin (Gürcüstanın) ərazisində Azərbaycan Polisini yaratmaq, inkişaf etdirmək və təkmilləşdirməyə o zamankı tarixi mühitdə sadəcə imkan olmamış, bu proses hələ zəif getmişdir. Odur ki, **Tiflis mühitində** polisdə nə mükəmməl təşkilat, nədə ki, nizami strukturların əməli yaradılması ləng gedən bir proses idi. Mənbələr və tarixi faktlar göstərir ki,

Azərbaycan Polisinin yaranması barədə ilkin normativ qanunverici aktlar Birinci hökumət kabineti Gəncəyə köçdükdən sonra mümkün olmuşdur.

## §2. Müstəqil Azərbaycan Polisinin yaranması və formalaşması

***Gəncə mühiti*** (Müstəqil yaranma və formalaşma dövrü) **(17 iyun-15 sentyabr 1918-ci il).**

Gürcüstanın münasibətinin soyuqlaşması və onun ərazisini tərk etməyi andırması Azərbaycan Xalq Cümhuriyyətinin Birinci Milli Hökumətini cəmi 20 günlük fəaliyyətdən sonra - 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçməyə sövq etdi (hökumət əvvəlcə Baş nazir F.Xoyskinin ata evinə, sonra Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının (indiki binasına köçmüşdü - İ.Ə.). Gəncədə yeni əlverişli tarixi şərait vardısada, ancaq real hakimiyyət hələ Cəbrayıl-Qazax-Göyçay marşrutu ilə Gəncəyə 300 nəfərlik qüvvə ilə köməyə gəlmiş (7-9 iyun 1918-ci il) Qafqaz İslam Ordusunun komandanı, Türkiyənin hərbi naziri, general-leytenant Ənvər paşanın (İsmayıl Əhməd) ögey qardaşı, Rumelili hərbçi Əhməd Tofiq Paşanın oğlu, tum general (general-leytenant) **Faruq Mustafa Nuru Paşanın** (1889, İstanbul – 2 mart 1949, İstanbul) əlində idi. Hökumətin köçməsinin ertəsi günü - iyunun 17-də Gəncə qubernatorunun binasında, gündüz saat 12-14 arasında keçirilən iclasda Azərbaycan Milli Şurası buraxıldı və **İkinci Hökumət Kabineti** (17 iyun - 7 dekabr 1918-ci il) yaradıldı. Yeni hökumətin başında bu dəfə də F.Xoyski durdu. Hökumətin təşkilində o zaman Nuru Paşanın siyasi işlər üzrə müşaviri, Azərbaycanın görkəmli mütəfəkkiri və xadimi Əhməd bəy Ağaoğlunun (1869, Şuşa – 1939, Malta) məsləhətləri mühüm rol oynadı. Hökumət özünün ilk qapalı iclasında o zamankı mövcud qanunların hələlik saxlanması barədə qərar qəbul etdi.

İkinci hökumət kabineti 12 nazirlikdən ibarət təşkil olundu. Nazirlərdən 6 nəfəri 1-ci hökumət kabinetinin üzvü, digər 6 nəfəri

isə yeni nazir seçilən şəxslər idi. Bu kabinetdə daxili işlər naziri (17 iyun - 7 dekabr 1918-ci il) o zaman böyük hörmətə malik, öz fəaliyyəti ilə neft sənayesində ad çıxarmış, Almaniyada ali təhsil almış mühəndis, poliqlotçu (6 dil - ingilis, alman, fransız, rus, gürcü və erməni dillərini bilirdi), görkəmli ictimai-siyasi xadim **Behbud xan Cavanşir** (1877-1921) oldu. **B.Cavanşirin daxili işlər nazirliyi dövrü Azərbaycan Polisi tarixinin ilkin** formalaşdığı dövrdür. Daxili İşlər Nazirliyi hökumətin 18 iyun 1918-ci il tarixli ayrıca qərarına uyğun olaraq iyunun 19-dan əməli fəaliyyətə başladı. Ölkədə daxili sabitliyi və hüquq normalarına riayət edilməsini təmin etmək, milliyyətindən və dinindən asılı olmayaraq bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını qorumaq, cinayətkarlıqla mübarizə aparmaq, milli ordu, təhlükəsizlik qüvvələri ilə bərabər, ərazi bütövlüyümüzə və suverenliyimizə qəsd etməyə cəsarət göstərə biləcək hər hansı təcavüzkar qüvvələrə qarşı mübarizə aparmaq üçün nizami polis orqanlarının yaradılması ən ümdə ilkin vəzifələrdən idi. Pasport, Viza və Qeydiyyat işləri, əcnəbi vətəndaşların və təbəələrin qeydiyyatı, yoxlanması, VVAQ və nikah məsələləri, hərbi təlim görmüş şəxslərdən kadr ehtiyatı hazırlamaq, Azərbaycan Ordusu sıralarına yeni çağırışçıların toplanması, hərbi çağırışdan boyun qaçıranlar və fərarilərlə mübarizə, torpaqlarımızı qoruyacaq sərhəd qüvvələrinin yaradılmasında iştirak, siyasi partiyalara, fəhlə partiyalarına, milli komitələrə və ictimai təşkilatlara, mədən-zavod komitələrinə, həbsxanalara, mətbuata, poçt-teleqrafa, yol-tikinti və təsərrüfat, sanitariya və abadlıq işlərinə, ticarət müəssisələrinə nəzarət, dini təşkilatları və cəmiyyətləri qeydə almaq, milli ədavət törədilməsinin qarşısını kəsmək, həmçinin bütün siyasi, hüquqi normativ aktların və sənədlərin yaradılmasında iştirak etmək və s. AXC Daxili İşlər Nazirliyinin və Polisinin əlavə və dolayı vəzifələri sırasına daxil idi.

**Gəncə mühitində** - Azərbaycan Xalq Cümhuriyyətinin ilkin formalaşma dövründə mühüm şərt daxili sabitliyin bərqərar olması və hüquqi normalara riayiət olunmasının təmin edilməsi idi. Daxili İşlər Nairliyi bu dövrdən etibarən təşəkkül tapmaqda olan müstəqil

dövlətimizin həyatının ümdə sahələrinə xüsusi diqqət yetirirdi. Ölkədə anarxiyanın və xaosun hökm sürdüyü bir şəraitdə Azərbaycan hökuməti məhz Daxili İşlər Nazirliyinin vasitəsilə cinayətkar ünsürləri təcrid etməklə qısa bir zamanda dövlət icra aparatının fəaliyyətini bütün gücü ilə bərpa edə bildi. Məhz həmin mərhələdə B.Cavanşirin rəhbərlik etdiyi DİN bir ali icraedici qurum kimi təşəkkül tapmaqda və yeni mərhələyə qədəm qoymaqda idi. Bu dövrdə Daxili İşlər Nazirliyinin qarşısında duran başlıca vəzifələrdən biri idarə orqanlarını milliləşdirmək, hərbi təlim görmüş adamlardan ibarət kadr ehtiyatı hazırlamaq idi.

İlk dövrün ənənəvi mövcud çətinliklərinə baxmayaraq, polis işinə yaxşı bələd olan daxili işlər naziri Behbud xan Cavanşir və peşəkar hərbçi, **vitse-nazir** (nazir əvəzi) vəzifəsinə dəvət olunmuş, hələ çar Rusiyası ordusunda xidmətəlrinə görə genaral-mayor rütbəsinə layiq görülmüş **Məhəmməd Sadıq bəy Ağabəyzadə (Ağabəyov)**(1865-1944) müstəqil Azərbaycan Polisinin yaranması və təşəkkülündə, həmçinin sonrakı inkişafında müstəsna rol oynamışdı. M.S.Ağabəyzadə 1918-ci il oktyabrın 23-dən 1920-ci il yanvarın 23-dək Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyində xidmət göstərmişdi. Ona nazir müavini deyil, "cənab nazir", "cənab nazir əvəzi!", - deyə müraciət edirdilər. Daxili İşlər Nazirliyində vitse-nazir vəzifəsi F.Xoyski hökuməti tərəfindən ilk dəfə Şərqdə məhz Azərbaycanda tətbiq olunmuşdu.

... 1918-ci ilin ortaları müstəqil Azərbaycan Polisinin yaranması, tədrici təkamülü və təşəkkülü dövrüdür. 1918-ci il iyunun 23-də AXC hökuməti Nazirlər Şurasının sədri F.Xoyskinin məruzəsi üzrə "Mövcud Rusiya və Zaqafqaziya qanunlarının müvəqqəti saxlanması və hökumət tərəfindən bunun müvafiq nəşri haqqında" qərar qəbul etdi. Həmin gün "Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin hazırlığı haqqında" hökumət tərəfindən icbari qərar qəbul olundu. 1918-ci il iyunun 23-də daxili işlər naziri B.Cavanşirin əmri ilə peşəkar hərbçi kadrlardan biri, polkovnik **İbrahim ağa Vəkilov** (1853-1934) Gəncənin birinci qubernatoru təyin edildi. O zaman, çar dövründən qalma quberniya idarəçiliyinə qubernator,

onun müavini, qəza müfəttişləri, tərcüməçilər, xüsusi işlər üzrə məmurlar və s. vəzifələr daxil idi. Quberniyanın inzibati, o cümlədən polis aparatı və bütün hökumət idarələri, həmçinin mülki hakimiyyət qubernatorun səlahiyyətində və şəxsi nəzarətində idi. Gəncə qubernatoru kimi görülən işlər barədə daxili işlər naziri B.Cavanşirə vaxtaşırı raport göndərən İ.Vəkilov bu vəzifəyə təyin edildikdən sonra gənc müstəqil hökumətimiz əleyhinə olan qüvvələrə qarşı qətiyyəti və təsirli tədbirlərilə ad çıxarmışdı. İ.Vəkilov Goranboyda, onun ayrı-ayrı kəndlərində sığınacaq tapmış daşnak törtöküntülərinə divan tutub onları tərksilah etmişdi…

**1918-ci il iyunun 24-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Hökumət müəssisələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında" 178 №-li 42-a bəndli qərar qəbul etdi.** Qərarda bütün nazirliklərə, o cümlədən Daxili İşlər Nazirliyinə tabeliklərində olan idarələr, müəssisələr və strukturlar üzrə hökumət məlumatı hazırlamaq tapşırılaraq, çarizm və onun devrilməsindən (fevral 1917) sonrakı dövrdə Azərbaycanın hökumət idarələrində xidmət edən, yaxud işə çıxmasa da, rəsmən işdə sayılan, lakin hazırda öz vəzifələrini tərk edərək üzürsüz işə çıxmayan qulluqçulara, o cümlədən polis və milis orqanlarındakı əməkdaşlara iyulun 1-dən işə çıxmaq təklif olunur, eyni zamanda, bu qərarla yeni yaradılacaq müstəqil polisin tərkibinə daha çox azərbaycanlı kadrların qəbul ediləcəyi haqqında xəbərdarlıq edilirdi. Qərarda əhalisi 1 milyon 64 min 647 nəfər olan Yelizavetpol quberniyasının 9 qəzasında - Gəncə, Zəngəzur, Cəbrayıl, Cavanşir, Qazax, Şuşa, Cavad, Nuxa və Ərəş qəzalarında yeni əsaslarla dövlət hakimiyyəti orqanlarının (o cümlədən polisin) yaradılacağı bəyan edilirdi (həmin vaxt Azərbaycanın bir hissəsi - Bakı quberniyası, onun tərkibində olan Lənkəran, Şamaxı, Quba və Cavad qəzaları, Göyçay qəzasının bir hissəsi Azərbaycan Xalq Cümhuriyyəti ilə müharibə aparan, cəmi 97 gün (25 aprel - 31 iyul 1918-ci il) mövcud olmuş Bakı Xalq Komissarları Sovetinin (Bak XKS) hakimiyyəti altında idi və orada fəhlə-kəndli sovet milisi təşkil olunmuşdu). Azərbaycan hökumətinin 24 iyun 1918-ci il tarixli 178 №-li qərarına uyğun olaraq Gəncə şəhər

milisi şəhər özünüidarəsinin tabeçiliyindən çıxarılıb yerli ümumi inzibati hakimiyyətin sərəncamına keçirildi. Hökumətin 1918-ci il 25 iyun tarixli qərarı ilə Azərbaycan ərazisindəki bütün dəmir yollarının mühafizəsi özünüidarə hakimiyyətindən alınıb Daxili İşlər Nazirliyinə tabe edildi. Azərbaycan hökuməti 1918-ci il 27 iyun tarixli başqa bir yeni qərarı ilə Göyçay qəza milisinə 35 min rubl kredit ayırdı.

Azərbaycan hökuməti özünün 1918-ci il 24 iyun tarixli 178 nömrəli qərarının əməli olaraq həyata keçirilməsi üçün daxili işlər naziri B.Cavanşirin məruzəsi üzrə **2 İyul 1918-ci ildə** Gəncə quberniyasında müstəqil polisin yaradılması haqqında, yeni ştatlar və əmək haqqının artırılmasını nəzərdə tutan və bunu təsdiq edən xüsusi bir qərar qəbul etdi. **Bu, müstəqil Azərbaycan Polisinin yaranmasını hüquqi cəhətdən özündə təsbit edən dövlət qanunvericilik aktı idi**. Həmin vaxt polisin yaradılması üçün sosial baza da vardı. Belə ki, vaxtı ilə Bakıda və Azərbaycanın digər yerlərində xidmət etmiş sabiq polis və burjua milisi əməkdaşları ölkənin paytaxtı sayılan Gəncəyə toplaşmışdılar. F. Xoyski və B. Cavanşir ilk müstəqil polis orqanlarını yaradarkən həm də digər millətlərdən olan sədaqətli və peşəkar kadrlardan da istifadə etməyi qərara almışdılar. Qərara əsasən Gəncə quberniyası polisinin əvvəlki dövrlərlə müqayisədə əmək haqqı arıtırılmaqla yeni ştatları təsdiq olundu və onun əməli yaradılmasına başlandı. Qərara görə, quberniyanın şəhər və qəzalarında polis rəisləri, onların böyük və kiçik köməkçiləri, sahə və şəhər polis pristavları və milis nəfərləri vəzifələri təsis olunub yeni əsaslarla fəaliyyət göstərməyə başladılar. **Beləliklə, 2 İyul 1918-ci ildə yeni ştat tarifi üzrə Yelizavetpol (Gəncə) şəhər polisinin ştatları polismeyster (əmək haqqı ayda 650 rubl), böyük köməkçidən (550 r.), kiçik köməkçidən (500 r.), 7 pristavdan (hər birinin əmək haqqı 500 r.), onların 7 köməkçisindən (hər birinin əmək haqqı ayda 375 r.), 36 nəfər polis (hər birinin aylıq əmək haqqı 300 r.), 80 nəfər piyada milis (hər birinin aylıq əmək haqqı 260 r.) və 20 atlı milis (hər birinin aylıq əmək haqqqı 260 r.) nəfərindən ibarət yaradıldı**. Qəza

İdarə rəisinin aylıq əmək haqqı 650 rubl., onun böyük köməkçisinin aylıq əmək haqqı 550 r., kiçik köməkçisiniki 500 r., qəza sahə və şəhər pristavlarının əmək haqqı ayda 450 r., böyük milis nəfərinki 250 və kiçik milis nəfərinki ayda 225 r. təsdiq olunmuşdu.

Azərbaycan Xalq Cünhuriyyətinin Daxili İşlər Nazirliyi ilk dövrlərdə hələlik həm polis, həm də milis təşkilati formalarından istifadə edirdi ki, bu da o dövrün saxlanmaqda davam edən inzibati orqanlarının təşkil və təcrübəsinin labüd zəruruliyi ilə əlaqədar idi. F.Xoyski Azərbaycan Polisinin ilkin yaranması və təşəkkülü prosesini xarakterizə edərək, 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin açılışında hökumətin hesabat məruzəsində demişdi: "Fəaliyyətimizin ötən ilk 6 ayı ərzində mümkün olan hər şeyi etdik ki, ölkəni anarxiya və xaos vəziyyətindən çıxaraq, biz qayda-qanunu bərpa etdik, Polisi təsis etdik".

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərar və sərəncamları üzrə Daxili İşlər Nazirliyi, onun mərkəzi aparatları və yerli polis orqanları tədricən formalaşaraq ölkədə bir inzibati hakimiyyət vahidi kimi rolunu getdikcə artırırdı. Məsələn, 1918-ci il iyunun 30-da Azərbaycan hökuməti "Şəhər özünüidarəçiliyində Daxili İşlər Nazirliyinin və polisin səlahiyyətlərinin artırılması haqqında" qərar vermişdi. Qərarla DİN-ə şəhərlərdə mövcud özünüidarə sisteminin bərpası üçün tədbirlər görmək tapşırılmış, Ağdaş, Salyan, Bərdə, Qazax qəzalarında və digər bölgələrdə özünüidarə sistemi olmayan yerlərdə ayda 300 manat məvaciblə rəis, xidmət müdiri və mühafizəçi ştatları yaradılmışdı. Daxili işlər naziri B.Cavanşirin baçılıq etdiyi mərkəzi icraedici-inzibati təşkilat - DİN, onun yuxarı və aşağı vəsilələri, orqanları tədrici inkişaf yolu keçməklə yeni-yeni struktur dəyişikliklərinə məruz qalır, təkmilləşirdi. Misal üçün, 1918-ci il iyulun 15-də Azərbaycan Nazirlər Şurasının qərarı və daxili işlər naziri B.Cavanşirin müvafiq əmri ilə DİN-in yanında birbaşa hökumətə tabe olmaqla **Fövqəladə Təhqiqat Komissiyası (FTK)** yaradıldı və ona əslən Gəncədən olan nüfuzlu bir şəxs - Moskva Universitetinin məzunu, hüquqşünas **Ələkbər bəy Xasməmmədov (**1893-1925) sədr təyin edildi (sonralar - 1925 ildə so-

vet hakimiyyət orqanları onu keçmişinə görə həbs edib güllələmişdilər. Ə.Xasməmmədov görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin 3-cü daxili işlər naziri olmuş **Xəlil bəy Xasməmmədovun** böyük qardaşı idi). Yaxud, hökumətin 1918-ci il 31 avqust tarixli başqa bir qərarı ilə **Daxili İşlər Nazirliyinin Xüsusi İstintaq Komissiyası** yaradılmış, FTK ilə bərabər ona da 1918-ci ilin Mart soyqırımı, Zəngəzurda və Qarabağda azərbaycanlılara və ümumən müsəlmanlara qarşı erməni quldur dəstələri tərəfindən törədilmiş cinayətləri təhqiq etmək tapşırılmışdı.

… Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin səlahiyyətləri dövrün tələblərinə uyğun genişləndirlirdi. 1918-ci il avqustun 11-də Azərbaycan hökuməti və Daxili İşlər Nazirliyi vətəndaşların Milli Orduya çağırışı ilə əlaqədar yeni bir sərəncam verdi. Sərəncamın müvafiq bəndinə əsasən əsgərliyə "Yelizavetpol çağırışı" "Azərbaycan çağırışı" adlandırıldı və onun icrası zamanı toplaşan hərbi hissələr daxili işlər nazirinə tabe edildi.

## §3. Müstəqil Azərbaycan Polisinin təkmilləşməsi və təşəkkülünün başa çatması

***Bakı mühiti** (Klassik (əsas) dövr)**(16 sentyabr 1918 - 30 mart 1920-ci il).***

1918-ci il sentyabrın 16-da Azərbaycan hökuməti müvəqqəti paytaxt kimi məskunlaşdığı Gəncə şəhərindən xüsusi zirehli qatarla tum general (gen.-leyt.) **Mürsəl Paşanın ("Bakı Mürsəl Paşa")** komandanlıq etdiy 5-ci Qafqaz diviziyası və general-leytenant Nuru Paşanın komandan olduğu Qafqaz İslam Ordusu və AXC birləşmiş silahlı (o cümlədən polis) qüvvələri tərəfindən azad edilmiş **(15 sentyabr 1918**) Bakıya köçdükdən (Bakının azad olunması haqqında ilk xəbər Danimarka konsulluğu vasitəsilə bütün dünyaya yayılmışdı) sonra Daxili İşlər Nazirliyinin fəaliyyəti və münasibətlər dairəsi əhəmiyyətli dərəcədə dəyişdi və eyni zamanda da mürəkkəbləşdi. Bu, Azərbaycan hökumətinin başçısı F.Xoyskinin

18 sentyabr 1918-ci il tarixli xalqa müraciətində şəhərdə asayişin, sabitliyin polis tərəfindən etibarlı qorunacağı barədə söylədiyi fikirlərdə öz əksini tapmışdı...

... Hökumət başçısı F.Xoyski özü əvvəlcə "Metropol" mehmanxanasında 31 nömrəli otaqda oturur, hər gün saat 12-dən 14-dək vətəndaşları qəbul edirdi. Əksər nazirlər, o cümlədən daxili işlər naziri Behbud xan Cavanşir də oradakı otaqlardan birində əyləşirdi. Bakı azad edildikdən sonra türk zabiti - yarbay (podpolkovnik) **Mehmet Fəthi** müvəqqəti olaraq Bakının qubernatoru (15 sentyabr - 10 noyabr 1918-ci il), onun böyük köməkçisi (müavini) isə, Azərbaycan xalqının azadlığı uğrunda əsil istiqlal fədailərindən və AXC-nin görkəmli xadimlərindən biri, polkovnik **Əli bəy Zizikski** (1878-1928) təyin edildi, şəhərdə asayiş bərqərar olundu.

B.Cavanşirin rəhbərlik etdiyi Daxili İşlər Nazirliyi hökumətin əldə tutduğu demokratik prinsipləri bir vəzifə kimi qəbul etmişdi. O, islahatçı, yenilikçi nazir idi. B.Çavanşir 1918-ci il avqustun 22-də xarici pasportların verilməsi səlahiyyətinin qubernatorlara həvalə olunması barədə əmr verdi. B.Cavanşirin şəxsi nüfuzu və rolu az deyildi… O vaxtkı maddi imkanın o qədər də yüksək olmamasına baxmayaraq, Azərbaycan hökuməti Behbud xanın təşəbbüs və təkliflərinə biganə qalmır, bacardıqca Daxili İşlər Nazirliyinin mərkəzi və yerli orqanlarının təşkilati və strukturca inkişafı, təkmilləşməsi üçün maliyyə-büdcə xərclərini artırırdı…

1918-ci il oktyabrın 6-da Azərbaycan hökumətinin tərkibində kabinədaxili dəyişikliklər baş verdi və B.Cavanşir yenidən daxili işlər naziri təyin olundu, lakin ona həm də sənaye və ticarət naziri vəzifəsini yerinə yetirmək tapşırıldı. 1918-ci il oktyabrın 12-də B.Cavanşirin 78 nömrəli əmri ilə bunadək Ərəş qəzasında polis pristavı vəzifəsində işləyən **Lütvəli (Niftəli) bəy Zülqədərov** (1881-1920) Şamaxı qəzasının müvəqqəti rəisi təyin olundu və bu vəzifədə 1919-cu il iyunun 23-dək işlədi. 1918-ci il noyabrın 1-də vitse-nazir (nazir əvəzi), general-mayor M.S.Ağabəyzadə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini daşımağa başladı və bu vəzifədə həmin il dekabrın 26-dək xidmət göstərdi.

1918-ci il noyabrın 10-da F.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökuməti Nuru Paşa başda olmaqla Bakını tərk edən türk generallarının şərəfinə, onlara minnətdarlıq əlaməti olaraq 400 nəfərin iştirak etdiyi vida ziyafəti təşkil etdi (yeri gəlmişkən, 1918-ci ildə Gəncədən üzü bəri Azərbaycan qəzalarının və Bakının düşmən qüvvələrindən azad edilməsi uğrunda sovet-bolşevik-daşnak qoşunlarına qarşı savaşlarda qardaş Türkiyə Ordusunun **1130** nəfər əsgər və zabiti şəhid olmuşdur (onlar Bakıda Dağüstü parkda və digər ərazilərdə dəfn olunmuşlar...). Vida ziyafətində F.Xoyskinin və general Nuru Paşanın alovlu çıxışları tarixin yaddaşında qalmışdır...

... Hələ 1918-ci il oktyabrın 28-də peşəkar hərbçi, general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadə AXC Daxili İşlər Nazirliyinə vitse-nazir-nazir əvəzi vəzifəsinə təyin edilmişdi. Behbud xana nazir işlədiyi dövrdə islahatların həyata keçirilməsində məhz M.S.Ağabəyzadə və 1918-ci ilin sentyabrından onun müavini işləyən **Mehdi bəy Hacınski** (1879-1941) kömək edirdilər. Nazir B.Cavanşirin təqdimatı və onların səyi ilə 1918-ci ilin sentyabrında İçəri Şəhərdə Polis məmurları hazırlayan **Bakı Qorodovoy Məktəbi** açıldı. Məktəbin müdiri (rəisi - İ.Ə.) vaxtıilə çar ordusunda xidmət etmiş podpolkovnik **Şükür bəy Əbdürrəhim oğlu Yüzbaşılı (əslən Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsindən idi)** təyin edildi. Məktəbin təşkilində M.S.Ağabəyzadənin bilavasitə rolu olmuşdu. Məktəbdə 1200 nəfər polis məmurunun hazırlanması nəzərdə tutulmuşdu. Bunu 1918-ci il oktyabrın 26-da Gəncədə gizir məktəbinin ilk buraxılış mərasimində DİN-in rəsmi nümayəndəsi kimi iştirak və çıxış edən daxili işlər naziri B.Cavanşirin müavini M.Hacınski söyləmişdi.

... Vitse-nazir general-mayor M.S.Ağabəyzadə kabinet adamı deyildi. O, tez-tez yerlərə gedir, ərazi polis orqanlarının təftişində bilavasitə iştirak edir və əməli köməklik göstərirdi. Ümumiyyətlə, M.S.Ağabəyzadənin gənc milli, müstəqil polis orqanlarımızın təşəkkülü və inkişafında, onun hüquqi bazasının, normativ qanunverici aktlarının hazırlanmasında müstəsna xidmətləri olmuşdur. M.S.Ağabəyzadə nazir əvəzi - vitse-nazir təyin olunduğu ilk gündən

təşkilat-səfərbərlik məsələləri, polisin bütün strukturlarının maddi-texniki təchizatı ilə məşğul idi. Onun ilk təkliflərindən biri Daxili İşlər Nazirliyi üçün dövlət büdcəsindən maliyyə vəsaitinin artırılması barədə olmuşdu.

1918-ci il oktyabrın 30-da Aralıq dənizində Saqqız (Lemnos) adasında Mudros limanında ingilis kreyseri "Aqarmemnon"da I Dünya müharibəsində qalib gəlmiş Antanta dövlətləri (İngiltərə, Fransa və ABŞ) ilə məğlub olmuş Osmanlı Türkiyəsi arasında bağlanan Mudros (Mondros) sazişinin 11-ci maddəsinin şərtlərinə görə, Türkiyə öz qoşunlarını noyabrın 10-da Azərbaycandan çıxardı. Əvəzində həmin il noyabrın 17-də İranın Ənzəli limanından içərisinə 39 piyada biriqa qüvvələrinin yerləşdirildiyi 17 hərbi dəniz gəmisi ("Kryuger", "Tula", "Evelina" və s.) ilə Böyük Britaniyanın İrandakı ekspedisiya korpusunun - yeni yaradılmış Şimali İran ordusunun komandanı, general-mayor Vilyam Tomson başda olmaqla qalib Antanta orudusunu (müttəfiqləri) təmsil edən 2 min nəfərədək, o cümlədən, 1000 nəfərdən ibarət ingilis-fransız-amerikan hərbi kontingenti, əsgərləri 800 nəfərdən ibarət muzdlu hindlilərdən, zabitləri isə ingilislərdən ibarət olan Böyük Britaniya qoşunları səhər saat 10-da Bakıya daxil oldu. Bu kontingentin tərkibində hərbi polis hissələri də vardı. İngilislər Bakıya daxil olarkən Azərbaycan hökuməti tərəfindən Bakı limanında general V.Tomsonun şərəfinə rəsmi qarşılanma və qəbul təşkil olundu. Rəsmi qəbul mərasimində xarici işlər naziri vəzifəsini daşıyan Adil xan Ziyadxanlı Qacar nitq söylədi. Qarşılanma mərasimində daxili işlər naziri Behbud xan Cavanşir də iştirak edirdi. Saat 12-də Bakıda hərbi vəziyyət elan edildi. Cəmi 38 otaqdan ibarət olan şəhərin "Metropol" mehmanxanasında (AMEA-nın indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binası; milyonçu **Hacı Hacıağaya** məxsus idi) qərargah quran general V.Tomson özünü Bakının general-qubernatoru elan etdi. Bakı polisinə nəzarət də tezliklə ingilis zabitinə tapşırıldı. Bu zaman Bakıda cəmi 500 nəfər polis qüvvəsi vardı.

1918-ci ilin noyabr-dekabrında B.Cavanşir əslində sənaye və ticarət naziri vəzifəsini yerinə yetirdiyi üçün nazir əvəzi M.S.Ağa-

bəyzadə daxili işlər naziri vəzifəsini daşıyırdı. Əvvəl **“Müsavat” (Bərabərlik**) partiyasında olmuş B.Cavanşir “siyasi səbəblərə” görə onun tərkibindən çıxıb 1918-ci il dekabrın 7-dən Azərbaycan Parlamentinin üzvü olmasına baxmayaraq, həmin il dekabrın 21-dək rəsmən daxili işlər naziri vəzifəsində qalır və DİN-lə əlaqədar həyata keçirilən tədbirlərdə daxili işlər naziri hüququnda iştirak edir, hələ sənədlərə qol çəkirdi.

1918-ci il dekabrın 2-də general V.Tomson bəyanat verərək bildirdi ki, F.Xoyskinin sədrliyi ilə yaradılmış koalisyon hökumət Azərbaycanda yeganə qanuni hakimiyyətdir. **1918-ci il dekabrın 7-də** milyonçu **Musa Nağıyevin** (1842, Biləcəri, Bakı - 18 mart 1919, Bakı) xəstə oğlu Ağa İsmayılın şərəfinə Bakının baş memarı, polyak **İ.K. Ploşkoya** (1867, Varşava - 1931, Paris) tikdirdiyi (1908-1910**)** “**İsmailiyyə**” binasında gündüz saat 2-də təntənəli surətdə plüralizm və demokratik mühitli Azərbaycan Məclisi Məbusanı (Parlamenti) açıldı. Bu əlamətdar hadisələrdən sonra Azərbaycan Polisinin təşəkkülü prosesi daha da intensivləşdi.

Tarixi faktlar var ki, Azərbaycan Polisi ilə Bakıda yaradılmış polkovnik F.P.Kokkerelin başçılıq etdiyi ingilis polisi arasında qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi mövcud olmuşdur. İngilislərin Azərbaycan Hərbi və Daxili İşlər Nazirliyinə, o cümlədən Bakı şəhər polisinə hökm vermək tələbləri özünü büruzə versə də, hər halda, Böyük Britaniyanın (həmçinin onun tərkibində olan Şotlandiya polisinin) daha qədim, daha klassik polis işi təcrübəsi **Müstəqil Azərbaycan Polisinin təşəkkülündə (17 noyabr 1918 - 30 mart 1919**) müsbət rol oynamışdır. Bu proses Azərbaycan hökumətilə qarşılıqlı razılıq əsasında aparılmış və 1919-cu il martın 30-dək davam etmişdir. Odur ki, həmin dövr Azərbaycan Polisinin (ilk növbədə Bakı polisinin) tarixində müstəqil polis orqanlarımıza ikili rəhbərlik və idarəçilik mexanizminin tətbiqi ilə səciyələnir. Bu dövrdə Bakıda mövcud real hərbi-inzibati kontingentin təşkilati strukturu belə idi:

- General-qubernator, Bakı şəhərində müttəfiq dövlətlər qoşunlarının Komandanı və Qərargahı, Müvəqqəti Polis Komissarlığı, onun Xüsusi Dəftərxanası, Bakı Polismeysterliyi və Balaxanı-Sa-

bunçu Polismeysterliyi. Bakıda müttəfiq qoşunların Müvəqqəti Polis Komissarlığının baş polis komissarı təyin edilmiş polkovnik F.P. Kokkerelin əmri ilə (o, “Metropol” mehmanxanasındakı otaqlardan birində otururdu), eyni zamanda, 1918-ci il noyabrın 19-da komissarlığın yanında Xüsusi Dəftərxana yaradılmışdı. Komissarlığın tam əməli təşkili isə noyabrın 29-da başa çatdırılmışdı. Komissarlıq Dəftərxanası ilə birlikdə Molokan (indiki Xaqani) bağına üzbəüz binada yerləşirdi.

... 1918-ci ilin noyabrında **Mir Ağadi bəy Talışxanov** Bakı Polismeysterliyinin rəisi təyin edilmiş, 1919-cu ilin aprelinədək bu vəzifədə xidmət göstərmiş, daha sonra polkovnik rütbəsində Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Lənkəran qəzasında xüsusi tapşırıqlar üzrə məmuru olmuş və general-mayor rütbəsinə layiq görülmüşdü…

... General V.Tomson Bakıda polis işlərinə nəzarəti ingilis zabitinə tapşırsa da, bu iş zor tətbiq edilməklə aparılmamışdır. Əksinə, V.Tomsonun 1918-ci il noyabrın 21-də verdiyi əmrlə Bakıda yaradılan **Xüsusi Müstəmləkə Polisi**nin rəisi, eyni zamanda Bakı Polis İdarəsinin də başçısı təyin edilmiş, İranda da müstəmləkə polisinin (1911-ci ildə yaradılmışdı) rəisi sayılan polkovnik F.P.Kokkerel şəhərdə qayda-qanunu, asayişi bərpa etmək, onu möhkəmləndirmək məqsədilə sovet Rusiyasına casusluq edən bolşeviklərə və digər pozucu əks-qüvvələrə qarşı tədbirlər (əməliyyatlar) həyata keçirərkən, yerli xüsusiyyətləri nəzərə almaq üçün AXC Daxili İşlər Nazirliyi və Bakı Polismeysterliyi ilə əməkdaşlıq etmişdir. Bakıdakı neft mədənlərinədək olan 15 verstlik məsafəni qoruyan Bakı Polismeysterliyinin Mühafizə Polisi ilə Britaniya Xüsusi Polisi bunu olduqca ciddi qaydada aparırdı. İngilis polisinin velosipedçilərdən ibarət patrul dəsələri hətta Bakının ətrafını da gəzərək o ərazini də nəzarətdə saxlayırdılar. Çünki, həmin vaxtda da misilsiz sərvət və kapital sayılan “qara qızıl”ın qorunmasında Britaniya dövləti çox maraqlı idi. 1918-ci il dekabrın 18-də Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığı yanında azərbaycanlı əhaliyə hücum faktlarının müəyyən edilməsilə məşğul olan Xüsusi Nəzarət Komissiyası yaradılmışdı.

1918-ci il dekabrın 26-da görkəmli ictimai-siyasi xadim, Rusiyanın III Dövlət Dumasının, Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü, "Müsavat" partiyasının liderlərindən biri **Xəlil bəy Xasməmmədov ("Gurgörən**")(1873-1945) Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri təyin edildi və bu vəzifədə 1919-cu il martın 14-dək səmərəli, qətiyyətli fəaliyyət göstərdi. Xəlil bəy Xasməmmədovun daxili işlər nazirlyi dövrü **Azərbaycan Polisinin tarixinin ikinci dövrü** sayılır. Onun dövründə, **1919-cu il yanvarın 1-də Azərbaycan Polisinin ümumi sayı 9.661 nəfərə çatmışdı.** Bundan 1-ci dərəcəli qorodovoylar 498 nəfər, 2-ci dərəcəli qorodovoylar 5089 nəfər, 1-ci dərəcələi keşikçilər (postovoylar) 242 nəfər, 2-ci dərəcəli keşikçilər 243 nəfər idi. Bunun **1200 nəfəri Bakı şəhər polisinin**, **820 nəfəri Balaxanı-Sabunçu polisinin,** 1954 nəfəri Gəncə qubernatorluğunun, 906 nəfəri Qarabağ General-Qubernatorluğunun, 215 nəfəri Zaqatala qəzasının payına düşürdü. Polis məmurlarının artırılmış aylıq məvacibi belə idi: – polismeyster 3500, onun böyük köməkçisi 3200, kiçik köməkçisi 2900, dairə pristavı 2600, pristavın böyük köməkçisi 1500, kiçik köməkçisi 1600, böyük qorodovoy 1500, kiçik qorodovoy 1400 rubl; bir polisin gün ərzində pul təminatı 33-40 rubl təşkil edirdi.

1919-cu il yanvarın 1-də Bakıda Sanitar Büro Mərkəzi yaradıldı. Onun rəhbəri ingilis həkimi idi. Büroya digər aidiyyəti təmsilçilərlə yanaşı, Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi də daxil olmuşdu. Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə polis orqanlarında həmkarlar ittifaqları yox idi və onların bolşeviklərin təsiri altında olması ucbatından mövcud olması məqsədəuyğun sayılmırdı.

1919-cu il yanvarın əvvəlində Müttəfiq qoşunlar komandanlığı tərəfindən əvvəllər ləğv edilmiş Bakı şəhər Qradonaçalnikliyi (Rəisliyi) bərpa olunaraq Daxili İşlər Nazirliyinə tabe edilmişdi. Həmin il yanvarın 10-da Bakının general-qubernatoru V.Tomsonun əmri ilə Bakı Polismeysterliyinin Xəfiyyə Hissəsinin rəisi **Həsən bəy Fətəlibəyova** (1886, Ətyeməzli kəndi, Ağdam - 1920, Tiflis?) uğurlu fəaliyyətinə görə təşəkkür elan edilmiş və Müvəqqəti Polis

Komissarlığının razılığı ilə o, bir həftədən sonra Bakı Şəhər Polismeysterliyinin yenidən təşkil edilmiş **Xəfiyyə Polisinin** rəisi vəzifəsinə təyin olunmuşdu. İngilislərin H.Fətəlibəyovu vəzifədə irəli çəkmələri və mükafatlandırmaları onların zahiri qayğısı idi. Faktlar sübut edir ki, ingilislər hər halda ikiüzlü siyasət yeridir, Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışır (halbuki, V.Tomson "başqa vədlər" vermişdi), onun dövlət hakimiyyət orqanlarını, o cümlədən Daxili İşlər Nazirliyini "nəzarətdə" saxlamağa can atırdılar. Məsələn, 1919-cu il yanvarın 28-də ingilis hərbi polis komissarı, polkovnik F.P.Kokkerel daxili işlər naziri X.Xasmmədovdan tələb etmişdi ki, polis əməkdaşlarının vəzifələrə təyin olunmasını şəxsən onunla razılaşdırsın və "polis rütbəsi olan şəxsi heyətdə" və ya təyinatlarda hər cür dəyişikliklər mütləq onun Xüsusi Dəftərxanasından keçsin. Daxili işlər naziri X.Xasməmədov bu haqda Nazirlər Şurasının sədri F.Xoyskiyə aşağıdakı məzmunda məlumat yazmışdı:

-"Müttəfiq dövlətlərin polis komissarı bütün Bakı rayonu polisinin rəhbəri təyin edilmiş və polisin bütün üzvləri ona tabe olunmuşdur. Bu komissarın sərəncamı və əmrləri tez-tez Azərbaycan Cümhuriyyətinin hakimiyyət orqanlarının sərəncam və əmrlərini ləğv etsədə, polis məmurları tərəfindən qeyd-şərtsiz icra olunur. İşlərə müdaxilə o həddə çatıb ki, hətta polis komissarı tələb edir: - "polisin şəxsi heyətindəki dəyişikliklər və təyinatlar yalnız onun Xüsusi Dəftərxanası vasitəsilə aparılsın".

**... 1919-cu il yanvarın 15-də** Azərbaycan hökuməti ermənilərin arasıkəsilməz təcavüzünün qarşısını almaq məqsədilə Şuşa, Cəbrayıl, Zəngəzur və Cavanşir qəzalarını Gəncə qəzasının tərkibindən çıxarıb onların əsasında ayrıca **Müvəqqəti Qarabağ General-Qubernatorluğu** yaratdı. Mərkəzi Şuşa şəhəri olan Qarabağ-General Qubernatorluğu Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinə tabe olub, vaxtaşırı ona hesabat verirdi. Azərbaycan hökumətinin qərarı ilə görkəmli ictimai-siyasi xadim, 1-ci hökumət kabinetində ilk hərbi nazir olmuş **Xosrov bəy Sultanov (Sultanzadə)** (1879-1943) Qarabağ general-qubernatoru təyin olunmuşdu (bu təyinat müəyyən səbəblər üzündən rəsmən fevralın 12-də

təsdiq olunmuşdu). Həmin tarixdə Bakı şəhəri və rayonlarının mühafizəsini gücləndirmək məqsədilə **Abşeron Yarımadası Xüsusi General-Qubernatorluğu** da yaradılmışdı.

**1919-cu il fevralın 9-da** Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin əmri ilə ali təhsilli hüquqşünas **Rəşid bəy Axundzadə** (1880-1940) Bakı şəhərinin yeni qubernatoru təyin olundu. Buna qədər həmin vəzifəni müvəqqəti olaraq hüquqşünas **Müseyib bəy Axıcanlı (Axıcanov**) (1892-1920) icra edirdi.

Hökumətin **1919-cu il 14 fevral tarixli qərarı ilə** baş verən cinayətləri təhqiq etmək və xidməti vəzifəsindən sui-istifadəyə qarşı mübarizə aparmaq məqsədilə **Daxili İşlər Nazirliyinin yanında Xüsusi Təftiş - İstintaq Komissiyası,** Azərbaycan Parlamentinin **1919-cu il 18 fevral** tarixli qərarı ilə isə 200 nəfərlik "Parlamenti mühafizə polisi" yaradıldı. M.Ə.Rəsulzadənin (31 yanvar 1884, Bakı, Novxanı k. - 6 mart 1955, Ankara, Türkiyə) təklifi ilə yeni yaradılmış polis strukturu "Parlamenti mühafizə dəstəsi" adlandırılmışdı. "Parlamenti mühafizə dəstəsi"nin yardılmasında "İttihad" partiyasının sədri Qarabəy Qarabəyovun (14 yanvar 1873, Yelizavetpol qub., Yuxarı Ayıblı k. - sentyabr 1953, Səmərqənd, Özbəkistan) səmərəli təklifləri bəyənilmişdi. "Parlamenti mühafizə dəstəsi"nin rəisi, vaxtılə çar ordusunda xidmət etmiş podpolkovnik **Nağı bəy Əlizadə (Əliyev**)(1897-1920) (aylıq əmək haqqı 3000 min manat olmaqla) təyin edilmişdi. Onun 2 köməkçisinin (müavinin) hər biri ayda 2.400 manat, 8 nəfər feldfebelin hər biri ayda 250 manat, 192 nəfər sıravi polis işçisinin hər biri ayda 200 manat alırdı. Rəis Nağı bəy Əlizadənin köməkçisi **Əliyar bəy Haşımbəyov** (1856-1920) (sonralar general-mayor, general-qubernator və daxili işlər nazirinin müavini) olmuşdu... Bu yeni polis strukturunun yaradılmasına dövlət xəzinəsindən 2.200.000 manat pul ayrılmışdı.

...B.Cavanşir daxili işlər naziri vəzifəsindən istefa verdiyi üçün olduqca tələbkar, intizamsevən nazir əvəzi general-mayor M.S.Ağabəyzadə (Ağabəyov) yeni daxili işlər naziri X.Xasməmmədov vəzifəsini tutana qədər daxili işlər naziri vəzifəsini icra etməyə

başlamışdı. Bununla əlaqədar Nazirlər Şurasının sədri F.Xoyskinin M.S.Ağabəyova 1918-ci il 21 dekabr tarixli müraciətində deyilirdi:

- ”Daxili işlər naziri əvəzi general-mayor Ağabəyova!.

Nazirlər Kabinetinin yeni tərkibinin toplanması ilə əlaqədar Əlahəzrətlərinizdən xahiş edirəm ki, yeni daxili işlər naziri Xəlil bəy Xasməmmədov gələnə qədər daxili işlər naziri Behbud xan Cavanşirdən işləri təhvil götürəsiniz”.

1919-cu il martın 20-də Azərbaycan Parlamenti Daxili İşlər Nazirliyinin bu vaxta qədər olmayan yeni ştatlarının layihəsinin geniş müzakirəsinə başladı. Bu işdə daxili işlər naziri əvəzi, vitse-nazir M.S.Ağabəyzadənin rolu böyük idi. Yeni ştatlara görə, Bakıda həmin vaxtadək qubernator, qradonaçalnik (şəhər rəisi) və Quberniya İdarəsinin dəftərxanaları ayrı-ayrılıqda mövcud idi. İndi bunlar birləşdirlirdi. Qubernator və qradonaçalnik əvvəllər hərəsi bir köməkçiyə malik idi. İndi Qradonaçalniklikdə köməkçinin əvəzinə qubernatorun kiçik köməkçisi vəzifəsi təsis olunur və onun üzərinə polisə rəhbərlik həvalə edilirdi. Dəftərxananın yanında quberniya idarəsinin 3 məsləhətçisi, arxitektura şöbəsinin rəisi, 1 katib, 1 mühafizə inspektoru, 11 gözətçi və kuryerlər saxlanırdı. Qradonaçalnikin yanında xüsusi tapşırıqlar üzrə 4 məmur əvəzinə 2 nəfər, 8 kargüzar əvəzinə 4, 6 kargüzar köməkçisi əvəzinə 3 və 30 dəftərxana məmuru əvəzinə 20 nəfər qalırdı. İş həcminin artması ilə əlaqədar polismeysterin ikinci köməkçisi vəzifəsi təsis olunurdu. Əvvəllər bu vəzifəni pristavlardan biri icra edirdi ki, buda onun birbaşa vəzifəsinin icrasını çətinləşdirirdi. Şəxsi heyət 320 nəfər artırılırdı. Bunların 225 nəfəri piyada və 95 nəfəri atlı qorodovoy idi. Bakının qəza rəisi vəzifəsi ləğv edilir və qəzanın bütün ərazisi Balaxanı-Sabunçu Polismeysterliyinə birləşdirilir, orada təkcə 1 köməkçi saxlanılırdı. Qorodovoyların sayı da artırılır, 140-dan 200-dək çatdırılırdı. Quba və Göyçay qəzalarında qəza rəisinin 2-ci köməkçisi vəzifəsinə daha ehtiyac duyulmadığından ləğv edilir, onları mühafizə polisinin zabitləri əvəz edirdi. Cavad və Göyçay qəzalarında 2 yeni sahə polis pristavlığı təsis olunur, sahə pristavlıqları yanında pristav köməkçiləri vəzifəsi təsis edilirdi. Bir sıra şəhərlərdə, cəmi 1 pristav

vardı, yeni ştatlar üzrə indi 2-ci pristav vəzifəsi də təsis olunurdu. Bakı Xəfiyyə Şöbəsi nəzarətçilərinin sayı da artırılıb 10 nəfərdən 15 nəfərə çatdırılırdı. Agentlərin sayı isə əksinə, 50 nəfərdən 30 nəfərədək azaldılırdı. Şuşa qəzasının iri Ağdam kəndində pristav vəzifələri təsis olunurdu. Keçmiş Zaqatala dairəsi ləğv edilir və quberniya yaradılırdı. Orada inzibati idarəçilik qubernatordan, onun 1 köməkçisindən, 1 məsləhətçidən, xüsusi tapşırıqlar üzrə 1 köməkçidən, 1 mühəndisdən, 2 kargüzardan, 6 dəftərxana qulluqçusundan, 6 kuryerdən, 6 sahə pristavından və onların 6 köməkçisindən, 6 dəftərxana məmurundan və 6 gözətçidən ibarət olaraq təşkil edilirdi. Zaqatala şəhərinin özündə pristav və 2 nəzarətçi, 15 qorodovoy və 2 şəriət məhkəməsi, 1 mühafizə inspektoru, 20 böyük gözətçi və 150 kiçik gözətçi (polis strajnikləri) saxlanırdı.. Hesab olunurdu ki, Azərbaycan kimi çox da böyük olmayan ölkədə qubernator vəzifələrinə daha ehtiyac yoxdur, onların ləğvi vasitəçiliyi aradan götürəcək və Daxili İşlər Nazirliyinin xalqa daha yaxın olmasını asanlaşdıracaqdır. Zaqatala şəhərində pristav vəzifəsi polismeyster vəzifəsi ilə əvəz edilirdi. Parlamentin iclası belə hesab etdi ki, Daxili İşlər Nazirliyi sistemi işçilərinin əmək haqqını artırmağa da ehtiyac vardır. Çünki, digər nazirliklərlə (məsələn, maliyyə, ədliyyə və s.) müqayisədə onların əmək haqqı çox aşağıdır. Buna görə də, Daxili İşlər Nazirliyi və yerli polis əməkdaşlarının əmək haqqının yeni ştat tarifi üzrə 16 dərəcəyə bölünməklə artırılması qərarı qəbul olundu. Parlamentin 1919-cu il 3 aprel tarixli iclasında "Daşnaksutyun" fraksiyasının nümayəndəsi A.Malxazyan bu qərarın əleyhinə çıxış etməsinə baxmayaraq, daxili işlər naziri Xəlil bəy Xasməmmədov çıxış edərək, onu yerində oturtdu. Azərbaycan hökumətinin Büdcə-Maliyyə Komissiyasının sədri Musa Rəfibəylinin (Gəncə, 1888 - Təbriz, 1938) təqdiri və Azərbaycan Parlamentinin 1919-cu il 9 aprel tarixli iclasının qərarı ilə Daxili İşlər Nazirlyinin 14 maddədən ibarət yeni ştatları 44 nəfər lehinə və 8 nəfər əleyhinə olmaqla qəbul edildi.Yeni ştatlar üzrə Bakı şəhər polisinin əmək haqı aşağıdakı kimi idi: qubernator 3600 rubl, polismeyster aylıq əmək haqqı 3200 rubl, kiçik köməkçisi 2900 r., sahə pristavı 2600 r., pristav

köməkçisi 2500 r., məhəllə nəzarətçis1600 r., böyük qorodovoy 1500 r. və kiçik qorodovoy 1400 r.

Qeyd etmək lazımdır ki, daxili işlər naziri X.Xasməmmədovun təşəbbüsü ilə dövlətin 1919-cu ildəki illik gəlir büdcəsindən (665 milyon manatdan) 20 milyon manatı Daxili İşlər Nazirliyinin illik xərcləri üçün ayrılmışdı. Bu, o dövr üçün az məbləğ olmasada, digər əsas nazirliklərlə (məsələn, hərbi nazirlik, maliyyə nazirliyi, ədliyyə nazirliyi və s.) müqayisədə aşağı idi. Odur ki, Xəlil bəy bir nazir kimi bu çatışmazlığı aradan qaldırmağa çalışırdı... O, 1919-cu ilin iyununda Bakı şəhər polisinin ştatlarının artırılmasına və ona 5,5 milyon pul ayrılmasına nail olmuşdu.

**1919-cu il martın 30-da** Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Daxili İşlər Nazirliyinin təqdimatı üzrə nümunəvi xidmətinə görə Gəncənin sabiq qubernatoru **İbrahim ağa Paşa ağa oğlu Vəkilova general-mayor rütbəsi vermişdi.**

**1919-cu ilin aprelində** Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi yanında **"Müvəqqəti Xüsusi Səlahiyyətli Müvəkkilər İnstitutu"** yaradıldı. Onun əsas vəzifəsi respublikanın qəzalarında yerli inzibati hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət etmək, milli təşkilatlar və komitələrin qarşılıqlı münasibətlərini nizama salmaq idi. Daxili İşlər Nazirliyinin bu strukturu Azərbaycan Xalq Cümhuriyyətinin süqutunadək fəaliyyət göstərmişdi.

... 1919-cü il martın 14-dən aprelin 16-dək Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini nazir əvəzi, general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadə yerinə yetirirdi... Həmin il martın 21-də general-mayor V.Tomson və baş polis komissarı F.P. Kokkerelin təklifi ilə daşnakların 1918-ci ildə xalqımıza qarşı törətdiyi Mart soyqrımı və etnik təmizləmə faktları üzrə yaradılmış Fövqəladə Təhqiqat Komissiyası bilavasitə Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin IV şöbəsinin (rəisi **Sonazır Taprov** idi) tabeliyinə verilmişdi.

...1919-cu il martın 29-da Bakıda müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığı fəaliyyətini dayandırdı, onun başçısı polkovnik F.P.Kokkerel öz səlahiyyətlərini verərək yenidən rəhbəri ol-

duğu Xüsusi Müstəmləkə Polisinə rəhbərlik etmək üçün ertəsi gün İrana yola düşdü. Həmin gün martın 30-da general-mayor M.S.Ağabəyzadə "Vəzifəli şəxslərin cinayətlərinin təhqiqatı və təhqiqatların səviyyəsinin yaxşılaşdırılması" haqqında təlimnamə (əmr) vermişdi.

1919-cu il aprelin 5-də Azərbaycan hökuməti daxili işlər naziri əvəzi M.S.Ağabəyzadəyə Bakı şəhərində təhlükəsizliyi və sabitliyi bərpa etmək barədə sərəncam vermişdi. Bu, Azərbaycan Ordusunun 1 batalyon piyada, 400 nəfər süvari və 1 batareya hissəsinin Bakıya gətirilməsi ilə əlaqədar idi. Hərbi hissə qüvvələrinin paytaxta gətirilməsi polisin vəzifəsini çətinləşdirmişdi. Hərbi nazir, tam artilleriya generalı **Səməd bəy Mehmandarov** (16 oktyabr 1955, Lənkəran - 12 fevral 1931, Bakı) Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri N.Yusifbəyliyə yazdığı raportda bildirirdi: "…Mən Bakı hərbi qarnizonunda bolşevizm əhval-ruhiyyəsinin genişlənən təsirindən qorxuram". Qeyd etmək lazımdır ki, Azərbaycanda müttəfiq qoşunların komandanı V.Tomson hələ 1918-ci il dekabrın 18-də Şimali Qafqaz xalqlarına müraciətində bəyan etmişdi: "Bolşevizmi məhv etmək bizim ümumi işimizdir. Müttəfiqlər bolşevizmin düşmənidirlər".

1919-cu il aprelin 16-da Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü hökumətinin sədri, eyni zamanda daxili işlər naziri (16 aprel - 22 dekabr 1919) olan görkəmli ictimai-siyasi xadim **Nəsib bəy Yusifbəylinin** (1881-1920) 63 saylı əmri elan olundu. Əmrlə qəza rəisləri vəzifələrinə namizədlərin seçilməsində qubernatorlara müstəqillik verildi və həmin rəislərin təsdiqi onların təqdimatı və məsuliyyəti ilə olacağı bildirildi. Qəza inzibati orqanı agentlərinin aşağı rütbələri üçün sərbəst namizəd seçmək hüququ da qəza rəislərinə verildi. Vəzifələrə təyin olunmuş şəxslərin fəaliyyəti üçün tam məsuliyyət qubernatorların üzərinə qoyuldu. Qeyd etmək lazımdır ki, N.Yusifbəylinin daxili işlər nazirlyi dövrü Azərbaycan Polisi tarixinin **klassik dövrü** sayıla bilər... Daxili İşlər Nazirliyi müstəqil dövlətimizin demokratik mahiyyətini təmsil edirdi. General-mayor M.S.Ağabəyzadənin 28 aprel 1919-cu il tarixli vətəndaşlara müraciətində deyilirdi: "… Arzu edən hər kəs, o cüm-

lədən siyasətlə məşğul olanlar Azərbaycan hüdudlarından kənara heç bir əlavə vizayə ehtiyac olmadan gedə bilərlər. Bu cür imtiyaz siyasi partiyalara və ictimai təşkilatlara da şamil olunur…”.

1919-cu il aprelin 24-də V.Tomson öz səlahiyyətlərini Bakıdakı müttəfiq qoşunların yeni komandanı Q.N. Koriyə, o isə öz növbəsində həmin il iyunun 11-də Cənubi Qafqazda müttəfiq qoşunların yeni komandanı D.Şatelvorta verdi. Bununla yanaşı, Müvəqqəti Müstəmləkə Polisinin ləğv edilməsi ilə Bakı şəhər polisinin ikili tabeçiliyinə son qoyuldu.

... Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 28 aprel 1919-cu tarixli 2977 saylı sərəncamı ilə vitse-nazir M.S.Ağabəyzadə tərəfindən Bakı quberniyasının polis orqanları təftiş edilmişdi. Təftiş o zaman Bakı quberniyasının tərkibinə daxil olan Göyçay qəzasından başlanmış, 1919-cu il mayın 8-də Cavad (mərkəzi Salyan şəhəri idi) qəzasında başa çatdırılmışdı. Sərəncamla polisdəki məsul vəzifəli şəxslərin səhlənkarlığı üzə çıxdıqda, onları cəzalandırmaqda M.S.Ağabəyzadəyə geniş səlahiyyətlər verilmişdi. Təftişin aparılmasında M.S.Ağabəyzadə ilə bərabər, nazirin Dəftərxanasının şöbə rəislərindən biri və xüsusi tapşırıqlar üzrə məmur da iştirak etmişdi. Təftişin aparılması işləri üçün Daxili İşlər Nazirliyinin ehtiyatındakı 100 minlik kreditdən 8 min rubl ayrılmışdı. 1919-cu il mayın 14-də Daxili İşlər Nazirliyi Bakı quberniyasında da belə təftiş keçirmişdi.

1919-cu il mayın 6-da görkəmli ictimai-siyasi xadim **Xudadat bəy Rəfibəyli** (1877-1920)(görkəmli Azərbaycan şairəsi **Nigar Rəfibəylinin** atası, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı **Anarın** ana babası) Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin əmri ilə Gəncənin general-qubernatoru vəzifəsinə təyin edilmiş və sona qədər (30 aprel 1919-cu il) dönməz fəaliyyət göstərmişdi.

**1919-cu il iyunun 11-də Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi yanında İctimai Təhlükəsizlik Şöbəsi yaradıldı.** Həmin il iyulun 1-də daxili işlər naziri əvəzi general-mayor M.S.Ağabəyzadənin Gəncə general-qubernatoru X.Rəfibəyliyə əmri göndərilmişdi. Əmrdə deyilirdi:

”Sizin nəzərinizə çatdırırıq ki, Daxili İşlər Nazirlyinin hər bir zabiti xüsusi formada və rütbədə olmalıdır”. Daxili işlər naziri əvəzi M.S.Ağabəyzadənin Gəncə qubernatoru X.Rəfibəyliyə 30 sentyabr 1919-cu il tarixldə “Hərbi iş, hərbi forma və paqonlar barədə” daha bir sirkulyar məktubu göndərilmişdi.

1919-cu il iyulun 27-də Azərbaycan Parlamenti respublikanın sərhədlərinin qorummasını təmin etmək məqsədilə “Sərhəd mühafizəsinin təşkili haqqında” qanun qəbul etmişdi. Qanuna uyğun olaraq həmin ildə İranla sərhəd əraziləri və Cavad qəzasının sərhədlərini qoruyan 200 nəfərlik polis dəstəsi yaradılmışdı. **1919-cu il avqustun 31-də Bakı Şəhər Polismeysterliyi yanında Qorodovoylar Məktəbi açılmışdı.** Məktəbin daimi heyəti 7 nəfərdən (1 rəis, 3 təlimatçı, 1 feldfebel, 2 vzvod komandiri) ibarət idi. Məktəbdə 95-100 nəfər hazırlanırdı.

1919-cu ilin avqust-sentyabr aylarında Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında 17, Ərəş, Şəki və Gəncə qəzalarında 26, Quba, Göyçay, Cavad və Şamaxı qəzalarında 22 sahə polis pristavlığı yaradılmışdı. Həmin il noyabrın 27-də Dövlət Müdafiə Komitəsinin (DMK) sədri N.Yusifbəyli iclasda ölkədə polis və milis təşkilinin gedişi barədə ayrıca məruzə etmişdi. İclasda həmçinin Qarabağ General-Qubernatorluğunun sərəncamına polis və milisin təşkili üçün 2 milyon, Gəncə qubernatoruna 1 milyon, Lənkəran qəzasına avans olaraq 2 milyon rubl ayrılmış, Bakı qubernatoruna həm də yazılı şəkildə tapşırılmışdı ki, Quba qəzasında 200 nəfərdən ibarət daimi xalq milisi yaratsın və o, hərbi idarənin ixtiyarında olsun.

... Respublikanın ümumi mənafeyinin tələblərinə uyğun olaraq Daxili İşlər Nazirliyi sistemində mütəmadi olaraq zəruri təşkilati və struktur dəyişiklikləri aparılırdı. Məsələn, 1919-cu ilin avqustunda Daxili İşlər Nazirliyinin öz təşəbbüsü ilə həbsxana işlərinə nəzarət (Həbsxana Şöbəsinin rəisi **Xəlil bəy Sultanov** idi) onun sərəncamından çıxarılıb Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdi.

Nəsib bəy Yusifbəyli Baş nazir və eyni zamanda daxili işlər naziri təyin edildikdən (16 aprel 1919) sonra DİN-in işlərinə kənar təşkilatların, xüsusilə hərbi idarələrin müdaxilə edilməsinin qarşısı

alınmış, Azərbaycanda ən ali hakimiyyət orqanı kimi yaradılmış (9 iyun 1919) Dövlət Müdafiə Komitəsinin (DMK) qərarı ilə respublikada bütün inzibati hakimiyyət yalnız Daxili İşlər Nazirliyinin əlində cəmləşdirilmişdi. Belə ki, bundan sonra Daxili İşlər Nazirliyinin təsdiq etmədiyi hər hansı bir sənəd qüvvvəsiz sayılmağa başlamışdı.

**Təyinat**. Daxili işlər naziri əvəzi, vitse-nazir M.S.Ağabəyzadənin 1919-cu il 2 sentyabr tarixli əmri ilə ixtisasca hüquqşünas olan **Əmir bəy Nəriman bəy oğlu Nərimanbəyov Bakı şəhərinin general-qubernatoru, Əmir xan Cahangir xan oğlu Xoyski** isə onun böyük köməkçisi (1-ci müavini - İ.Ə.) təyin edilmişdi.

**1919-cu il sentyabrın 16-da** DMK-nın qərarı ilə polis məmurlarının qanunçuluğa necə əməl etməsinə nəzarət üçün **Daxili İşlər Nazirliyi yanında Xüsusi Polisİnspeksiyası (Müfəttişliyi**) yaradılmış və onun 10 bənddən ibarət **Əsasnaməsi** qəbul edilmişdi. Müfəttişlik Nikolayev (indiki İstiqlaliyyət) küçəsi, 7-də yerləşirdi və ştat üzrə 25 nəfərdən (1 baş inspektor, 1 köməkçidən, 1 katibdən, 6 müfətişdən, 1 dəftərxana direktorundan, 1 kargüzardan, 1 qeydiyyatçıdan, dəftərxana yanında 1 kuryerdən, 8 nəfər müfəttişin yanındakı 8 kuryerdən) ibarət idi. Müfəttişliyin **ilk baş inspektoru (rəis əvəzi** - İ.Ə) görkəmli ictimai-siyasi xadim, yazıçı-jurnalist **Ömər Faiq Nemanzadə** (1872-1938) təyin edilmişdi. Polis Müfəttişliyinin respublika daxili işlər orqanlarında qanunçuluğun möhkəmləndirilməsində mühüm rolu olmuşdu...

1919-cu il oktyabrın 3-də DİN-in sərəncamı ilə Gəncə quberniyası mühafizə polisinin ştatları artırılmışdı.

1919-cu il oktyabrın 4-də Azərbaycan Cümhuriyyətinin Baş naziri və eyni zamanda daxili işlər naziri N.Yusifbəylinin əmri ilə vitse-nazir, daxili işlər naziri əvəzi, general-mayor M.S.Ağabəyzadə Amerika generalı Ceyms Harbortu qarşılayıb Bakıya müşayiət etmək üçün Batuma (Gürcüstan) yola düşmüşdü...

Mühüm əhəmiyyəti olan Azərbaysan Polisinin o dövrdə necə silahlanması da maraqlıdır. 1919-cu ilin oktyabr ayına olan məlumata görə, Bakı Polismeysterliyinin sərəncamında 1117 ədəd, Balaxanı-Sabunçu Polisində 319, Quba qəza polisində 26, Cavad

(Salyan) qəza polisində 507, Göyçay qəza polisində 105 və Şamaxı qəza polisində 192 ədəd üçxətli rus tüfəngi vardı. Qarabağ General-Qubernatorluğunun tərkibinə daxil olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında biri 1200, digəri isə 1000 nəfərdən ibarət olan iki xalq milisi dəstəsi vardı. Onların silahlanması üçün 200 dövlət nişanlı tüfəng, 120 Avstriya və 162 rus üçxətli tüfəngi və 100 ədəd onatılan tüfəng ayrılmışdı. Bundan başqa, uçotda ehtiyat 1118 üçxətli tüfəng, 204 "Mauzer" tipli tapanca, 102 berdanka və 130 ədəd "Lebel" tipli tüfəng vardı.

**Təyinat.** Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin 1919-cu il 13 oktyabr tarixli əmri ilə bu vaxtadək Bakı general-qubernatorunun böyük köməkçisi (1-ci müavini) vəzifəsini tutan **Əmir xan Cahangir xan oğlu Xoyski** (Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş nazir və ilk daxili işlər naziri F.Xoyskinin böyük qardaşı oğlu) Qazax qəzasının qubernatoru təyin edilmişdi.

1919-cu il noyabrın 27-də Azərbaycan Xalq Cümhuriyyəti DMK-nın qərarı ilə Quba qəzasında 200 nəfərlik daimi xalq milisi yaradılmış, onun təşkili üçün 2 milyon rubl avans ayrılmışdı. Qərara əsasən, hərbi əməliyyatlar başlanacağı təqdirdə, bütün şəxsi heyət hərbi idarə komandanlığının tabeçiliyinə keçməli idi.

**1919-cu il dekabrın 4-də** Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı və Daxili İşlər Nazirliyinin əmri ilə **general-mayor Murad Gəray bəy Tlexas (**milliyyətcə çərkəz idi) Bakı şəhərinin general-qubernatoru təyin edilmişdi. Murad Gəray bəy bu vəzifədə 1920-ci il aprelin 28-dək sədaqətlə xidmət etmişdi. 1919-cu il dekabrın 24-də görkəmli ictimai-siyasi xadim Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski (1876-1931) Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri təyin edilmişdi. Digər görkəmli ictimai-siyasi xadimi **Şəfi bəy Rüstəmbəyli** (1893-1960) daxili işlər naziri M.H.Hacınskinin müavini təyin olunmuş və AXC-nin süqutunadək (27 aprel 1920) qətiyyətli və dönməz fəaliyyət göstərmişdir. O, nazir əvəzi vəzifəsini də daşımışdır.

... Azərbaycan Parlamenti mütəmadi surətdə Daxili İşlər Nazirliyinin hesbatlarını qəbul və müzakirə edir, vaxtaşırı olaraq

DİN-in təşəbbüsləri və təklifləri üzrə ona aid məsələlərə baxır və müvafiq qanun layihələri hazırlıyırdı. 1919-cu il dekabrın 26-da Azərbaycan Parlamentinin növbəti iclası keçirilmişdi. İclasda digər məsələlərlə yanaşı polisə dair müzakirələr də aparılmış və qeyd edilmişdiki, Parlamentin yarandığı gündən, yəni 1918-ci il dekabrın 7-dən bu günə kimi (dekabrın 25-dək) onun gündəliyinə Daxili İşlər Nazirliyi və polislə əlaqədar 24 məsələ daxil olunmuş, bir o qədərdə qanun layihəsinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər nazirləri olmuş F.Xoyski, B.Cavanşir, X.Xasməmmədov, N.Yusifbəyli, M.H.Hacınski, M.Vəkilov və daxili işlər naziri əvəzi, general-mayor M.S.Ağabəyzadə Azərbaycan Polisinin yaradılmasında və təşəkkülündə özlərini islahatçı kimi göstərmişdilər. Məsələn, Azərbaycan Xalq Cümhuriyyətinin **sonuncu daxili işlər naziri** (18 fevral - 28 aprel 1920-ci il) **Mustafa bəy Vəkilov** (1896-1965) Daxili İşlər Nazirliyinə rəhbərliyə çox ağır dövrdə gəlsədə, onu zəifləməyə qoymamışdı. Çox gənc - 23 yaşında daxili işlər naziri vəzifəsini sələfi M.Hacınskidən qəbul etmişdi. Onun nazirliyi dövründə, 1920-ci ilin martında Azərbaycan Polisinin çar Rusiyasında və bəzi Qərbi Avropa ölkələrindəki (məsələn, Böyük Britaniya, Şotlandiya, Almaniya, Fransa və s.) kimi **klassik yöndə** təşəkkül tapdığı nəzərə çarpırdı. Həmin vaxt Azərbaycan Polisi artıq ölkədə ictimai-asayişi müstəqil qoruya bilən və cinayətkarlıqla bilavasitə mübarizə aparmağa qadir olan, real inzibati icraedici və çoxsahəli bir hüquq-mühafizə orqanına çevrilmişdi. Mötəbər xarakterik sənədlər sübut edir ki, 1920-ci il aprelin sonunda - Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsindətam təşəkkül tapmış Daxili İşlər Nazirliyi və Polisinin təşkilati strukturu aşağıdakı kimi olmuşdur.

**Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi:**

**-** daxili işlər naziri (**Mustafa bəy Vəkilov**), müavin (**Şəfi bəy Rüstəmbəyli**), Dəftərxana (direktoru İrza bəy Ağasıbəyov), vitse-direktor, 1-ci şöbə (rəis Nikolay Doljenkov), 2-ci şöbə (rəis Aleksandr Motorin), 3-cü şöbə (rəis İvan Baliçki), 4-cü şöbə (rəis Sonazır Taprov), 5-ci şöbə (rəis knyaz Vladimir Çaçba (Şervaşidze),

İnşaat şöbəsi (rəis Panteleymon Kosyurp), hüquq məsləhətçisi (Vladimir Qadaseviç), kargüzar, xüsusi tapşırıqlar üzrə baş polis məmuru (İlya Pavliyev), kiçik polis məmuru (Abdulla Dadaşov), katiblik (rəis Məmmədağa Ağayev), İnzibati İnspeksiya (Polis Müfəttişliyi) (baş inspektor **Ömər Faiq Nemanzadə**), qeydiyyatçı (Əhməd Əfəndizadə), Bakı rayonu üzrə polis redaktoru (Səməd bəy Əlisgəndərov), Gəncə rayonu üzrə polis redaktoru (İsmayıl Ağa Vəkilov), Göyçay rayonu üzrə polis redaktoru (Əhməd Ağa Vəkilov), Şuşa rayonu üzrə polis redaktoru (Məmməd Həsən bəy Mirzəcamalov) və Quba rayonu üzrə polis redaktoru (Mirzə Vəlizadə).

**Bakı Polisi:**

**- Bakı Möhkəmləndirilmiş Rayonunun Hərbi General-Qubernatorluğu** (Birja - indiki Ü.Hacıbəyov küçəsi, 8 nömrəli ev). **Hərbi general-qubernator (general-mayor Murad Gəray bəy Tlexas**). Dəftərxana (rəis Sergey Romanov), xüsusi tapşırıqlar üzrə məmur (Boris Spektor), Mənzil Şöbəsi (rəis Xəlil bəy Sultanov), köməkçi (Musa bəy Hüseynov).

**Bakı Qubernatorluğu (general-qubernator Əmir bəy Nərimanbəyov**. Böyük köməkçi (1-ci müavin-İ.Ə.).(Əmir xan Xoyski).

**Bakı Qradonaçalnikliyi** (Bakı şəhər rəisliyi-İ.Ə.). Naberejnaya (indiki Neftçilər) küçəsində yerləşirdi. **Qradonaçalnik (Puda Qudiyev**). Köməkçi (Zalsman). Dəftərxana (rəis Georgi Dqebuadze). Xüsusi tapşırıqlar üzrə baş məmur (Xas-Bulat Cambulatov), kargüzar (Vasili Lukin), arxivarius (Məmməd Cəfərov), tərcüməçi (Əzimağa Vəlixanov). **Bakı Qorodovoy Məktəbi. İçərişəhər. Müdir (rəis-İ.Ə.) (podpolkovnik Şükür bəy Yüzbaşılı).**

**Bakı Polismeysterliyi** (Birja küçəsi-21. Skobelevlərin evi). **Polismeyster (Rüstəm bəy Mirzəyev**). Baş polis qulluqçusu (Mehrəlı bəy Fərzəlibəyov), kiçik polis qulluqçusu (Şıxlinski), köməkçilər (FyodorVarakin və Mixail Lasinski), onların köməkçiləri (Velyamin Naydel və Mirhəmid bəy Talışxanov), Xəzinədar (Anatoli Fetotyeviç), qeydiyyatçı (Mariya Karaseva), arxivarius (Yusif Ağayev). Bakı Polismeysterliyi 10 sahə pristavlığından, Liman və Ehtiyat Polisindən ibarət idi**: Bakı Şəhər 1-ci Sahə Polis**

**Pristavlığı** (Bayıl-Bibiheybət, 58 nömrəli ev). **Pristav (Abbas bəy Usubbəyov**), köməkçi (Stepan Popov). **2-ci Sahə Qala Polis Pristavlığı** (Böyük Çəmbərəkənd küçəsi, ev 111/113). **Pristav (İlyas bəy Hacı Əlibəyov),** köməkçi (Qafar Həsənov), katib (Vlasi Selivançik**). 3-cü Aleksandr Nevski Sahə Polis Pristavlığı** (Spassk, (Qasım İsmayılov) küçəsi, ev 53). **Pristav Rzaqulu bəy Məmmədzadə**), köməkçi (Həbib İsgəndərbəyov), katib (Leonti Vyaznov). **4-cü Şamaxı Sahə Polis Pristavlığı** (Spassk küçəsi, ev 122). **Pristav (Nurəddin Seyidov**). Köməkçi (Qərib-Sultan Alboqaçiyev), katib (Adam Ravinski). **5-ci Mərkəzi Sahə Polis Pristavlığı** (Merkuryev, indiki Z.Əliyeva küçəsi, 1/21). **Pristav (Mixail Vakula**). Köməkçi (Mirzə Axundov). Katib (Yakob Yefimov). **6-cı Mixaylovski Sahə Polis Pristavlaığı** (Qoqol, indiki Mərdanov qardaşları küçəsi, ev 46). **Pristav (Abutalıb Sadıxov**). Köməkçi (Məhəmməd Sultanov). Katib (İlya Bezsonov). **7-ci Romanovski Sahə Polis Pristavlığı** (Bolşaya Morskaya (indiki Bül-Bül prospekti), ev 36. **Pristav (Qriqori Şpak**). Köməkçi (Camir Adjı Mustafa Əlimmədov). Katib (Dmitri Zaldastanov). **8-ci Kanitapinski Sahə Polis** P**ristavlığı** (N.Priyutskoy küçəsinin tini, Stanislavski küçəsi, ev 219/58). **Pristav (Fatalyon Qulambəyov**). Köməkçi (Paçaxat bəy Abaşidze). Katib (Trofim Vasuyenko-Bobruyusok). 9**-cu Zavağzal Sahə Polis Pristavlığı** (1-ci Sloboda küçəsi, ev 13). **Pristav (Həsən bəy Firidunbəyov**). Köməkçi (Məmmədəli Baxşəliyev). **10-cu Qaraşəhər Sahə Polis Pristavlığı** (Ağşəhər şossesi, Yaqub Sərkisovun evi). **Pristav əvəzi (SadıxAbbasov**). **Liman Sahə Polis Pristavlığı** (Minarət küçəsi ev 18). **Pristav (Hüseyn bəy Şıxlinski).** Köməkçi (Talıb bəy Həsənbəyov). **Ehtiyat Polisi** (Birja (indiki Ü.Hacıbəyov küçəsi, ev 21). **Müdir (rəis-İ.Ə.) (Nikolay Kolaydoviç)**. **akı Xəfiyyə Polisi (**Şəxsi heyəti 14 nəfərdən ibarət idi). **Rəis (Əbdül Məcid Rebirov)**, köməkçi İlya İnalişvili, bayır xidməti (rəis Süleyman bəy Sübhanverdixanov, kargüzar (İvan Markelov). Xəfiyyə Polisinin 9 nəfər polis nəzarətçisi vardı. Agentlər milli tərkibcə müxtəlif millətlərdən təşkil edilmişdi. Bundan başqa, Qradonaçalnikliyə tabe olub Bakı şəhər Upravası ilə birgə fəaliyyət göstərən polisdə vardı

və təsərrüfat-abadlıq işlərində lazım olanda Upravaya kömək edirdi. Bu, hələ çar Rusiyası dövründən belə mövcud idi.

**Balaxanı-Sabunçu Polismeysterliyi** (Sabuncu kəndi, Martınov küçəsi, ev 213). **Polismeyster (Mustafa bəy Qabulov**). Böyük köməkçi (Vladimir Qulyanoviç), kiçik köməkçi (Sultan bəy Əhmədov). **Mərkəzi Ünvan Stolu (rəis Əbdülcabbar Ələkbərzadə).** Polismeysterlik 7 sahə polis pristavlığından və Ehtiyat Polisindən ibarət idi. **1-ci Sahə Polis** P**ristavlığı** (Sabunçu kəndi). **Pristav (İlyas Tomayev)**, köməkçi (Dursun bəy Xıdırbəyov). **2-ci Sahə Polis Pristavlığı** (Ramana kəndi). **Pristav (knyaz İvan Avalov),** köməkçi (Georgi Eliaşvili**). 3-cü Sahə Polis Pristavlığı (**Zabrat kəndi). **Pristav əvəzi (Əkbər ağa Məmmədov).** Köməkçi (Əhməd Camurzayev). **4-cü Sahə Polis Pristavlığı (**Balaxanı kəndi). (**İbrahimovun** evi). **Pristav (Ağa bəy Misirxanov**). Köməkçi **(**Qədir bəy Bala Qədirbəyov). **5-ci Sahə Polis Pristavlığı** (Suraxanı kəndi, Balayevin evi**)**. Pristav **(Lütvəlibəyov**). Köməkçi (**Bəybala bəy Kainbəyov). 6-cı Sahə Polis Pristavlığı (Binəqədi kəndi, O.Babayevin evi). 7-ci Sahə Polis Pistavlığı (**Corat kəndi). Pristav **(Xosrov İməliyev).** Köməkçi (Mirzə Əfəndiyev). **Ehtiyat Polisi (müdir İbrahim bəy Davudov).**

**Qəza Polisi :**

- **Bakı Quberniyası.** Tərkibinə Göyçay, Cavad, Quba, Şamaxı və Lənkəran qəzaları daxil idi.

**Göyçay qəzası**. Mərkəzi Göyçay şəhəri. **Qəza İdarəsi. Rəisi** (**Niftəli (Lütvəli) bəy Zülqədərov**). Böyük köməkçi (Mahmud bəy Fərzəlibəyov). Kiçik köməkçi (Hacı Abdullayev). Qəza sahə polis pristavlıqları: **Bərgüşad Sahə Polis Pristavlığı** (Ucar stansiyası). **(Pristav Nəbibəyov**). Köməkçi (Ələkbərov). **Kürdəmir Sahə Polis Pristavlığı** (Kürdəmir stansiyası) (**Pristav Hacı Yunus**). Köməkçi (Əhməd Bədirov). **İvanovski Sahə Polis Pristavlığı** (Göyçay şəhəri) (**Pristav Rüstəmbəyov**). Köməkçi (Əliş Rzayev). **Müsüslü Sahə Polis Pristavlaığı** (Müsüslü stansiyası). **(Pristav Mustafayev).** Köməkçi (İbrahimov**). Göyçay Şəhər Polis Pristavlığı (Pristav Axundov).** Köməkçi (Əlibaba Əliyev).

**Cavad qəzası**. Mərkəzi Salyan şəhəri**. Qəza İdarəsi (Rəisi Məhəmməd bəy Süleymanbəyov). Salyan Şəhər Sahə Polis Pristavlığı. Pristav (Hacıyev).** Köməkçi (Xəlil Məmmədov). **Cavad Qəza Polis İdarəsi** 5 sahə polis pristavlığına bölünürdü. Qəza sahə polis prisavlıqları: **Xıllı Sahə Polis Pristavlığı** (Bojiy Promısel kəndi). (**Pristav Haqverdiyev**). Köməkçi (N.Həsənov). **Cavad Sahə Polis Pristavlığı** (Petropavlovka kəndi) (**Pristav Hüseynbəyov**). Köməkçi (A.Axundov). **Muğan SahəPolis Pristavlığı (Pristav Feyzulla bəy Muradxanov**). Köməkçi (Ağabəyov). **Biləsuvar Sahə Polis Pristavlığı** (Qaradonlu (indiki İmişli_İ.Ə.) kəndi**) (Pristav P.Rəcəbov).** Köməkçi (Allahverdiyev).

**Quba qəzası**. **Qəza İdarəsi. Rəisi (Səlim bəy Ağakişibəyov**). Böyük köməkçi (Rüstəmağa Kərimbəyov). Kiçik köməkçi (Hüseyn Əli Hüseynzadə**). Quba Səhər Polis Pristavlığı (Pristav vəzifəsi boşdur**). **Quba Şəhər 1-ci Sahə Polis Pristavlığı (Pristav vəzifəsi boşdur**). Köməkçi (Musa Kazımbəyov). **2-ci Sahə Polis Pristavlığı (Pristav Şirəli bəy Həsənbəyov**). Köməkçi (Ələkbər bəy Nəzirov). Quba Qəza Polis İdarəsinin Sahə Polis pristavlıqları: **Rustov Sahə Polis Pristavlığı** (Rustov kəndi**)(Pristav Musa bəy Həsənbəyov**). Köməkçi (Muxtar Xəlfəyev). **Qusar Sahə Polis Pristavlığı** (Həzrə kəndi) (**Pristav Asəf Vahabov).** Köməkçi (Mürsəl bəy Qayıbov**). Müşkür Sahə Polis Pristavlığı** (Xaçmaz stansiyası) (**Pristav Məmmədəli bəy Heydərbəyov**). Köməkçi (Buta Əbdülrzayev). **Dəvəçi Sahə Polis Pristavlığı** (Dəvəçi kəndi) (**Pristav Müslüm Qasımıov**). Köməkçi (Ağəli Əliyev).

**Şamaxı qəzası**. Mərkəzi Şamaxı şəhəri. **Qəza İdarəsi. Rəisi (Talıbxan Talıbxanov**). Böyük köməkçi (İluzan bəy Rüstəmbəyov). Kiçik köməkçi (Səməd bəy Hacıbəyov). **Şamaxı Şəhər 1-ci hissə Polis Pristavlığı (Pristav Qulam Axundov**). Köməkçi (Övsəl Fərzəliyev). **Şamaxı Şəhər 2-ci hissə Polis Pristavlığı (Pristav Mahmud bəy Qasımbəyov**). **Şamaxı Şəhər Qəbristan Sahə Polis Pristavlığı (Pristav İsgəndər bəy Əsgərbəyov). Koşuyuk Sahə Polis Pristavlığı (Pristav Davud bəy Zülqədərov**). **Abdulyan Sahə Polis**

**Pristavlığı (Pristav Hacıağa bəy Hacıbəyov). Mədrəsə Sahə Polis Pristavlığı (Pristav Yusif bəy Sultanov**). Köməkçi Şirvanski**.**

**Lənkəran qəzası. Daxili İşlər Nazirliyinin Lənkəran qəzası yanında xüsusi səlahiyyətli nümayəndəsi (Bəhram xan Naxçıvanski)**. **Qəza İdarəsi. Rəisi (Rüstəm bəyKərimbəyov)**. Qəza İdarəsinin Dəftərxanası (rəis Cəfər Əfəndi Həbubullahi). Xüsusi tapşırıqlar üzrə məmur (Mir Ağadi bəy Talışxanov). Mühasib (K.Menyans). Kargüzarlar (Vladimir Yermolayev və Böyükxan Talışınski). Arxivarius və qeydiyyatçı (Sultan bəy Muradov). Fars dilindən tərcüməçi (İlyas Axundzadə). Dəftərxana qulluqçuları (Balabəy Çaxmaqsazov və Mariya Trubetskaya). Qeydiyyatçı (Anna Bernşteyn).

**Gəncə quberniyası.** Tərkibinə Nuxa, Ərəş, Şamxor (Şəmkir) və Qazax qəzaları daxil idi.

**Gəncə Quberniya General-Qubernatorluğu (General-qubernator Xudadat bəy Rəfibəyli** (1877-1920). Böyük köməkçi (1-ci müavin) (Hüseynqulu xan Xoyski). Quberniya İdarəsinin məsləhətçiləri (Mikayıl bəy İsrafilbəyov və Aleksandr Boqatko). Zemski (Georgi Çerniyavski). Mühəndis. 2 nəfər kargüzar. Mühasib. Arxivarius, qeydiyyatçı, ekzekutor və tərcüməçi. Qubernator Dəftərxanası (rəisi Konstantin Qrabovski; eyni zamanda qubernatorun böyük köməkçisi idi). Qubernator yanında xüsusi tapşırıqlar üzrə baş məmur (Abbas bəy Cavanşir). Xüsusi tapşırıqlar üzrə kiçik köməkçi (Abbasqulu bəy Babayev). **Gəncə Şəhər Polismeysterliyi (Polismeyster Hacı Əlibəyov).** Onun böyük və kiçik köməkçisi. Katib**,** onun köməkçisi, mühasib, qeydiyyatçı (eyni zamanda arxivarus idi) və tərcüməçi. **Gəncə Qəza İdarəsi**. Gəncə şəhərinin sahə polis pristavlıqları: **Gəncə Şəhər 1-ci Sahə Polis Pristavlığı (Pristav Əkbərağa bəy İsgəndərbəyov**). Köməkçi (İsgəndər bəy Vəkilov). **Gəncə Şəhər 2-ci Sahə Polis Pristavlığı (Pristav Nəsib bəy Kidayarbəyov).** Köməkçi (Məcid Abbasov**). Gəncə Şəhər 3-cü Sahə Polis Pristavlığı (Pristav Xankişi bəy Sultanov**). Köməkçi (Kazım bəy Ağasıbəyov). **Gəncə Şəhər 4-cü Sahə Polis Pristavlığı (Pristav Əsəd Tomtiyev**). Köməkçi (Süleyman Əliyev). **Gəncə Şəhər 5-**

**ci Sahə Polis Pristavlığı (Pristav Hüseyn bəy Qəniyev**). Köməkçi (Novruz Poladov). **Gəncə Şəhər 6-cı Sahə Polis Pristavlığı (Pristav Xəlfə Quliyev**). Köməkçi (AbdullaVidalov**). Gəncə Şəhər 7-ci Sahə Polis Pristavlığı (Pristav Cəfərqulu).** Köməkçi (boşdur**). Gəncə şəhər polisi yanında Xəfiyyə Şöbəsi (Rəis Mir Cavad Seyidov).** Polis nəzarətçiləri: Əli Vəliyev, Muradağa Muradov və **Mədət Quliyev (hazırda Azərbaycan Respublikası DTX-nın rəisi, Azərbaycanın Milli Qəhrəmanı**, **general-leytenant Mədət Quliyevin babası**). **Gəncə Qəza Polis İdarəsi (rəis vəzifəsi boşdur**). Böyük köməkçi (İosif Ledak). Kargüzarlar (İvan Pyatnitski və Miron Yemelyanov). Qeydiyatçı və arxivarius (Vasili Nabatçenko). Gəncə qəzasının polis sahə pristavlıqları: **Gəncə Qəza 1-ci Sahə PolisPristavlığı (Pristav Molla Qasım Bədirxanov**). **Gəncə Qəza 2-ci Sahə Polis Pristavlığı (Pristav Kəbir bəy Səfikürdski). Gəncə Qəza 3-cü Sahə Polis Pristavlığı (Pristav Hadı bəy Kərimbəyov). Gəncə Qəza 4-cü Sahə Polis Pristavlığı (Pristav Məmməd Muradov).**

**Nuxa (Şəki) qəzası. Qəza İdarəsi. Rəisi (Eyyub bəy Rəfibəyli (Rəfibəyov**). Böyük köməkçi (Zahid bəy İbrahimbəyov). Katib (Aleksandr Tarkovski). Kargüzarlar (Cəfərəli Zeynalov və Rüstəm bəy Əlicanbəyov). Qeydiyyatçı və arxivarius (Əhmədağa Şəkixanov). Nuxa şəhərinin polis pristavlıqları: **Nuxa Şəhər 1-ci hissə Sahə Polis Pristavlığı (Pristav Əhmədağa Xocambəyov). Nuxa Şəhər 2-ci hissə Sahə Polis Pristavlığı (Mürsəl bəy Sədrəddinbəyov).** Köməkçilər (Paşa Əfəndiyev, Abuzər bəy Məlikov və Səməd Məmmədov).

**Ərəş qəzası. Qəza İdarəsi. Rəisi (Rəhim bəy Şıxlinski**). Böyük köməkçi (İsgəndər Şıxzamanov). Katib (Qriqori Novoxatski). Kargüzar. Qeydiyyatçı və arxivarius (Əmircan bəy Əmircanov). Ərəş qəzasının polis pristavlıqları: **Ağdaş Şəhər Polis Pristavlığı (Pristav Əşrəf Kələntərlinski**). **Ərəş Qəzası 1-ci Sahə Polis Pristavlığı (Pristav vəzifəsi boşdur). Ərəş Qəzası 2-ci Sahə Polis Pristavlığı (Pristav Kiyar Şıxlinski). Ərəş Qəzası 3-cü Sahə Polis Pristavlığı (Pristav İsrafil bəy Bədirbəyov**).

**Şamxor (Şəmkir) qəzası.** Mərkəzi Zeqəm**. Qəza İdarəsi. Rəisi (İsgəndərbəy Qəmbərəliyev**). Böyük köməkçi (Abas Əliyev). **Şamxor qəzası 1-ci Sahə Polis Pristavlığı (Pristav İsgəndər Qasımov). Şamxor qəzası 2-ci Sahə Polis Pristavlığı (Pristav Məmmədtağı Tağıyev). Şamxor qəzası 3-cü Sahə Polis Pristavlığı (Pristav Həmid bəy Səfikürdski). Şamxor 4-cü Sahə Polis Pristavlığı (Pristav Əsgərağa Şıxlinski).**

**Qazax qəzası**. **Daxili İşlər Naz\irlitinin Qazax qəzasında xüsusi səlahiyyətli nümayəndəsi (Əmir xan Xoyski). Qəza İdarəsi. Rəis əvəzi (Abdullayev**). Böyük köməkçi (Yusif bəy Şərifov). Kiçik köməkçi (Məcid bəy Şıxlinski). **Qazax Şəhər Polis Pristavlığı (Pristav Həsən Kazımov**). Qəza sahə polis pristavlıqları: **Qazax qəzası 1-ci Sahə Polis Pristavlığı (Pristav vəzifəsi boşdur). Qazax qəzası 2-ci Sahə Polis Pristavlığı (Pristav Məmməd Rizayev). Qazax qəzası 3-cü Sahə Polis Pristavlığı (İsrafil bəy İbrahimov). Qazax qəzası 4-cü Sahə Polis Pristavlığı (Abdulla Mustafa**yev). **Mühafizə polisi (Rəis MusaTumayev**). Daxili İşlər Nazirliyinin tabeliyində olan **Sərhədi Mühafizə Dəstəsi (Komandir Hacırəhim Sübhanverdixanov).**

**Zaqatala quberniyası**. **Qubernator (Məmmədağa Şahmalıyev). Quberniya Mühafizə Polisi** (İnspektor Şamil bəy Dibirov). Quberniya mühəndisi (Məmməd bəy Sultanov). Quberniya İdarəsinin katibi (Ağabəy Şıxlinski). Qubernator yanında xüsusi tapşırıqlar üzrə məmur (Abbasəli bəy Məmmədov). Quberniya İdarəsinin mühasibi (Lev Vasili). Kargüzar (Abdulla Səfərov). Arxivarius (Həzrət Süleymanov). Əliağa Qardaşov). **Zaqatala Şəhər Polis Pristavlığı (Pristav Yusif bəy Ağayev**). Şəhər polisi üzrə nəzarətçilər: Mehralı Darışev və Şıxamir Qardaşov. Sahə polis pristavlıqları: **1. Car Sahə Polis Pristavlığı (Pristav Hacı Məcid).** Köməkçi (Rəsul Qaraəhmədov). **2. Balakən Sahə Polis Pristavlığı (Pristav Muqu İzmayılov**). Köməkçi (Əmircanov). **3. Tala Sahə Polis Pristavlığı. Pristav (Mahmud bəy Gülməmmədov**). Köməkçi (Aleksandr Qaraəhmədov). **4. Muxax Sahə Polis Pristavlığı. Pristav Məmmədəli Mansurov**. Köməkçi (Şirinbəy Mirzəbəyov).

**5. Qax Sahə Polis Pristavlığı. Pristav Teymuraz Qaraqada oğlu**. Köməkçi (Bədrəddin Abbasov). **6. Əliabad Sahə Polis Pristavlığı. 7. Almalı Sahə Polis Pristavlığı.**

**Qarabağ General-Qubernatorluğu**. Mərkəzi Şuşa şəhəri. Qubernatorluğun tərkibinə Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzaları daxil idi. **Qarabağ (müvəqqəti) general-qubernatoru Xosrov bəy Sultanov (Sultanzadə)**. Köməkçilər (Hüseyn bəy Mahmudbəyov və Qriqori Kələntərov). Məsləhətçilər (Xosrov bəy Poladov, İbrahim bəy Poladov, Levon Vartapetyan və Akop Balasanyan).

**Şuşa qəzası. Qəza İdarəsi. Rəisi (Qədir bəy Hacıbəyov**). Böyük köməkçi (Avetis Ter-Qukasov). **Şuşa Şəhər Polis Pristavlığı. Pristav (Aşot Andriasyan**). Köməkçi (Məmmədquluxan Qaradağski). Şuşa şəhərinin sahə polis pristavlıqları: **1-ci Sahə Polis Pristavlığı. Pristav (Şahzadə Ərdəşir Mirzə). 2-ci Sahə Polis Pristavlığı. Pristav(Artanis Melkumov**). Köməkçi (Mahmud bəy Axundov). Şuşa qəzasının sahə polis pristavlıqları: **2-ci Vərəndə (indiki Ağdərə - İ.Ə) Sahə Polis Pristavlığı.Pristav (Aqoparon Daniyelbəyov**). Köməkçi (Fəxrəddin bəy Şərifbəyov). **3-cü Sahə Vərəndə Polis Pristavlığı. Pristav (Baqrat Mixaylov). 4-cü Sahə Polis Pristavlığı. Pristav (Salah Ağayev). 5-ci Sahə Polis Pristavlığı Pristav (Cəfərqulu Ərəbov**). Köməkçi (Əbdürəhim Axundov). **3-cü Ağdam Sahə Polis Pristavlığı. Pristav (Hüseynəli Sofiyev).** Köməkçi (Əbdürrəhim Xocalinski).

**Zəngəzur qəzası. Qəza İdarəsi.** Qəza İdarə rəisini müvəqqəti əvəz edən böyük köməkçi (1-ci müavin**) Həbib xan Şəkinski**). Böyük köməkçi (Şahsuvar bəy Kələntərov). Kiçik köməkçi (Mahmud bəy Sərməstbəyov). **2-ci Sahə Polis pristavlığı. Pristav (Cabbar Niyazov). 3-cü Sahə Polis Pristavlığı. Pristav (Əli bəy Şərifov). 4-cü Sahə Polis Pristavlığı. Pristav (Cəmil Şirinov).**

**Cəbrayıl qəzası. Qəza İdarəsi. Rəisi (Ələkbər bəy Bəhrəmbəyov**). Köməkçi (İsrail bəy Ter-İonisyan). **1-ci Sahə Polis Pristavlığı. Pristav (Həbib Məhərrəmov). 2-ci Sahə Polis Pristavlığı. Pristav (Həsən bəy Vəzirov). 3-cü Sahə Polis Pristavlığı.**

**Pristav (Camal bəy Əlibəyov). 4-cü Sahə Polis Pristavlığı. Pristav (Arşak Balasanyan**). Köməkçi (Artyom Şahnazarov).

**Cavanşir qəzası. Qəza İdarəsi. Rəisi (Mustafa bəy Qabulov**). Böyük köməkçi (1-ci müavin) İsmayıl bəy Hacıbəyov). Kiçik köməkçi (Baqrat Kaçançyans). **1-ci Sahə Polis Pristavlığı. Pristav (Ərəblinski). 2-ci Sahə Polis Pristavlığı. Pristav (Əbdürrəhim Hacıverdiyev). 3-cü Sahə Polis Pristavlığı. Pristav (Bahadur bəy Əlikişibəyov). 4-cü Sahə Polis Pristavlığı. Pristav (Sergey Sarkisyans). 5-ci Sahə Polis Pristavlığı. Pristav (Yegişe Ter-Akopov**). **Yevlax Qəsəbə Polis Pristavlığı. Pristav (İmran Kazımıov).**

Beləliklə, yuxarıda Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin, Azərbaycan Polisinin 1920-ci ilin aprelində təşkilati və strukturca qəti formalaşdığının, onun təşəkkül prosesinin tam başa çatmasının mənzərəsi aydın görünür.

## §4. Süqut dövrü (1 aprel-14 may 1920-ci il)

... Rusiyada sovet hökuməti 1920-ci ilin əvvəllərindən Azərbaycandakı bolşeviklərin köməyi ilə milli müstəqil dövlətimizin - Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyinə son qoymaq üçün əlverişli şərait və bəhanə gözləyirdi. Bunu V.İ.Leninin hələ 1920-ci il martın 17-də İ.T.Smilqaya və S. Orconikidzeyə göndərdiyi teleqram sübut edirdi. Teleqramda deyilirdi: "Bakını tutmaq olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin". V.Leninin həmin niyyətinin əməli həyata keçirilməsi olaraq 1920-ci ilin yazında Şimali Qafqazda ağqvardiyaçı general Denikini məğlub edən XI «qırmızı» ordu Levandovskinin komandanlığı altında Dərbəndin Azərbaycanla sərhədboyu ərazilərində cəmləşməyə başladı. Azərbaycanın daxilind kommunistlər, o cümlədən ermənilər onlara kömək etməyə hazır olaraq fəallığı artırmışdılar. Belə şəraitdə, Azərbaycan Parlamentində və hökumətində böhran hökm sürürdü... 1920-ci il martın 30-da N. Yusifbəylinin axırıncı hökumət kabineti istefa verdi. Aprelin 1-də Azərbaycan Parlamenti yeni hökumətin təşkilini görkəmli

dövlət xadimi, parlamentin üzvü, sabiq daxili işlər naziri M.H.Hacınskiyə tapşırdı. Lakin o, yeni hökuməti təşkil etmək vəzifəsini həll edə bilmədi…

... Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu daxili işlər naziri M.Vəkilov öz vəzifəsində axıradək - Cümhuriyyətin süqutuna qədər məsləkinə sadiq qalaraq dönmədən və qətiyyətlə çalışmış, Daxili İşlər Nazirliyi üzrə lazımi əmrlərini verməkdə davam etmişdir. Məsələn, Daxili işlər naziri M.Vəkilovun təqdimatı və DMK-nın 1920-ci il 27 mart tarixli 3196 saylı əmri ilə respublikada yaranmış böhranlı vəziyyətdə Daxili İşlər Nazirliyinin ehtiyat qüvvələrinə əlavə 300 ştat, o cümlədən 276 əsgər ayrılmış və ehtiyat qüvvə üzrə əsgərlərin sayı 1000 nəfərə çatdırılmış, bu məqsəd üçün təkcə ərzağa 4 milyon 221 min rubl kredit ayrılmışdı. Yaxud hökumətin qərarı və M.Vəkilovun 1920-ci il 6 aprel tarixli əmri ilə Bakı Qradonaçalnikliyi yanında keçmiş Ehtiyat Polisinin bazası əsasında yeni süvari polis divizionu və piyada polis batalyonu təşkil edilmişdi. Ümimiyyətlə, mövcud faktlar sübut edir ki, həmin vaxt Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri M.Vəkilov başda olmaqla Daxili İşlər Nazirliyi ölkədə polis quruculuğunu öz varlığının son günlərinədək, yəni Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayan anlara qədər fasiləsiz aparmışdır. Quba Qəza İdarəsinin rəisi Səlim bəy Ağakişibəyov qəza polisinin vəziyyəti və döyüş hazırlığı barədə daxili işlər naziri M.Vəkilova mütəmadi məxfi raportlar yazırdı. Onun məlumatları əsasında Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi yaxınlaşmaqda olan təhlükəyə qarşı maksiumum hazırlıq və müdafiə işləri görürdü. M.Vəkilovun 1920-ci il 21 aprel tarixli əmri ilə Azərbaycana müdaxilə etməyə hazırlaşan təcavüzkar XI “qırmızı” ordunun hücumunun dəf edilməsində Milli Ordumuza kömək məqsədilə Quba Qəza İdarəsi yanında xalq milisi yaradılmışdı. Bu, onunla əlaqədar idi ki, Azərbaycan Daxili İşlər Nazirliyi, Azərbaycan Polisi 200 ildən sonra yenidən bərpa olunmuş milli dövlətçiliyimizin rəmzi olan müstəqil Xalq Cümhuriyyətinin istiqlaliyyətini itiriləcəyinə inanmırdı və onun yolunda ən ağır, qəti döyüşlərə belə atılmağa hazır idi.

... Şimaldan daha ciddi təhlükə olan, Samur çayı sərhədində cəmləşmiş 72 min nəfərlik XI "qırmızı" ordu komandanlığı 1920-ci il aprelin 25-də "Bakı üzərinə hücum" və güya "Azərbaycanın azad edilməsi" haqqında xüsusi əmr hazırlamışdı. Əmrdə aprel ayının 27-də Azərbaycanın sərhədini keçib 5 gün ərzində "Yalama-Bakı əməliyyatı"nı başa çatdırmaq nəzərdə tutulurdu. Bu zaman orada işğalçı XI orduya qarşı vuruşmaq üçün 4 topu və 10 pulemyotu olan Quba piyada alayının iki rotası ilə yanaşı 200 nəfərə yaxın sərhədi gözətçi (mühafizə - İ.Ə.) polisi dəstəsi də mövqe tutmuşdu. Bolşevik E.Y.Blyumin sonralar xatirələrində yazırdı ki, həmin vaxt səhər saat 4-də Xaçmaz-Quba sərhədində keşik çəkən və atların üstündə mürgüləyən, tez-tez oyanıb ətrafa diqqət kəsilən 200 nəfərlik "jandarma" dəstəsi ilə rastlaşmışdı. Bakıda milli mənafeyimiz əleyhinə cənfəşanlıqla fəaliyyət göstərən A. Mikoyanın başçılıq etdiyi bolşeviklərin nümayəndə heyəti aprelin 26-da Dağıstanın Port-Petrovsk şəhərinə - XI "qırmızı" ordununun qərargahına gələrək onu Azərbaycan xalqı adından (?) Bakıya dəvət etmişdi. Həmin vaxt başlıca olaraq Azərbaycanın qərbinə - Qarabağa və Zəngəzura, daşnak Ermənistanıyla sərhəddə yerləşdirilmiş Azərbaycan Ordusunun sayı 40 min nəfərə çatırdı. Dağıstan vilayəti və Azərbaycanın Qusar-Quba-Xudat rayonlarının sərhədində 5 min nəfərlik "jandarm" (əslində, sərhədi mühafizə polisi) dayanmışdı. Ordumuzun ehtiyatında 2 min nəfər polis qüvvəsi də vardı, Parlamenti Mühafizə Dəstəsi (polisi) isə cəmi 300 nəfərdən ibarət idi.

1920-ci il aprelin 27-də axşam saat 11-də Azərbaycan Parlamenti yaranmış böhranlı vəziyyətdə qan tökülməsinə yol verilməməsi üçün hakimiyyətin kommunistlərə verilməsi barədə qərar çıxardı. Beləliklə, hakimiyyət siyasi (dinc) yolla bolşeviklərin əlinə keçdi və Azərbaycan Xalq Cümhuriyyəti 2 illik (23 aylıq - 721 gün) mövcudluqdan sonra süqut etdi. Azərbaycanın zorla başlanan işğalı aprelin 28-də Bakıda və mayın 15-də qəzalarda sovet hakimiyyətinin qurulması ilə başa çatdı.

Lakin Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi və Azərbaycan Polisi mövcudluğunu faktiki olaraq hələ bir

müddət saxladı, dərhal ləğv edilmədi. Çünki, sovet hökuməti ilk dövrdə ehtiyac duyduğu Azərbaycan Xalq Cümhuriyyətinin tarixi təcrübəsindən, peşəkar kadrlarından fəhlə-kəndli milisinin təşkilində istifadə etməyə məcbur olmuşdu. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyində, onun yerli strukturlarında, polis orqanlarında böyük əksəriyyəti hüquq və digər ali ixtisas təhsili almış, habelə vaxtı ilə çar polisi və jandarmasında, habelə ordusunda xidmət etmiş peşəkar kadrlardan ibarət olduğu halda, Azərbaycan SSR-də yeni yaradılan sovet milisi orqanlarında əsasən dünənki savadsız, həm də təcrübəsiz fəhlə və kəndlilər xidmətə çəlb olunmuşdular.

… Arxivlərdə 1918-1920-ci illərə aid saxlanılan qanunverici aktlar və sənədlər sübut edir ki, Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi və Azərbaycan Polisi orqanlarının yaranması və təşəkkülü necə başlanmışdısa, onların ləğvi, sovet fəhlə-kəndli milisi və komissarlıqlarla əvəz edilməsi də tədrici bir proses kimi aparılmışdır. Azərbaycan İnqilab Komitəsi sovet hakimiyyəti qurulduqdan elə dərhal sonra özünün ilk dekretləri ilə milli demokratik dövlətimiz olan Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət orqanlarını, o cümlədən hüquq-mühafizə orqanlarını ləğv etməyə, əvəzində fəhlə-kəndli hakimiyyəti orqanları (komissarlıqlar) yaratmağa başlamışdı. Azərbaycan İnqilab Komitəsinin ilk dekretlərindən biri 1920-ci il aprelin 28-də Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının (Azərb. SSR XDİK) yaradılması və görkəmli bolşevik Həmid Sultanovun daxili işlər komissarı təyin edilməsindən, ertəsi gün 1920-ci il aprelin 29-da isə sovet milisinə rəhbərlik etmək üçün Azərbaycan SSR Baş Fəhlə-Kəndli Milisinin (Azərb. SSR FKM) yaradılması və tezliklə digər görkəmli bolşevik İbrahim Əbilovun onun rəisi təyin edilməsi haqqında olmuşdur. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 29 aprel tarixli qərarı və Bakı İnqilab Komitəsinin 1 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət hakimiyyəti orqanları buraxılmış elan olundu və tanınmış bolşevik Rəhim Hüseynov Bakı Şəhər Milisinin ilk rəisi təyin edildi. Həmin 1 №-li əmrdə deyilirdi: “Polis yenidən təşkil edilsin

və milis adlandırılsın; bütün polis sahələrində pristavlar dəyişdirilsin və komissarlar təyin edilsin. O hallarda pristav etibarlı polis işçisidirsə, onu sahə komissarı adlandırıb, öz vəzifəsini yerinə yetirməkdə saxlamaq olar”.

1920-ci il mayın 5-6-da Bakıda AK(b)P-nin Ümumbakı konfransı keçirildi. Konfrans Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş polis və jandarm orqanlarını buraxmaqla bərabər, Bakıda və yerlərdə başlıca vəzifə kimi fəhlə-kəndli milisini yaratmaq haqqında yeni qərar qəbul etdi. 1920-ci il mayın 11-də Azərbaycan SSR XDİK Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər orqanlarını əməli ləğv etmək haqqında xüsusi əmr verdi. Əmrə uyğun olaraq general-qubernator, qubernator, qəza rəisi, qradonaçalnik, polismeyster, pristav, qorodovoy və s. vəzifələr, xüsusi səlahiyyətli orqanlar, şəhər və qəzaların polis müfəttişliyi, quberniya polismeysterliyi, şəhər və qəzaların sahə polis pristavlıqlarının, ehtiyat polisin, general-qubernatorluqlar və qubernatorluqlar yanındakı xalq milisinin ştat üzrə vəzifələri, habelə Daxili İşlər Nazirliyi sistemindəki digər strukturlar ləğv edildi. Lakin əvvəlki təşkilat strukturlarından və ərazi bölgü prinsiplərindən şəhər və qəza milis orqanları yaradılarkən hələ bir müddət istifadə olundu. Məsələn, ilk vaxtlarda Bakı Polismeysterliyi dövründəki 10 sahə polis pristavlığının və Liman polisinin inzibati sərhəd (ərazi) bölgüsü, Balaxanı-Sabunçu Polismeysterliyinin inzibati-ərazi hüdudları olduğu kimi saxlanmış, yalnız adlar dəyişdirilmiş və başında komissarların durduğu sahə milis idarələri adlandırılmışdı.

1920-ci il mayın 14-də Bakı İnqilab Komitəsinin qərarı və Bakı Şəhər Milis İdarəsinin əmri ilə Balaxanı-Sabunçu Polismeysterliyi ləğv edilib Balaxanı-Sabunçu Milis idarəsi adlandırıldı. Bununla belə, xidməti ərazisinin böyüklüyü və xüsusi əhəmiyyəti nəzərə alınaraq, Bakı Şəhər və Qəza Milis İdarəsinə tabe edilməklə ona müəyyən müstəqillik verildi. Keçmiş Xəfiyyə Polisi Cinayət-Axtarış Milisi adlandırıldı. Balaxanı-Sabunçu Polismeysterliyi dövründəki 7 sahə polis pristavlığı olduğu kimi saxlandı, yalnız sahə

milis idarələri adlandırıldı ki, onlarında başında ancaq kommunistlərdən təyin edilən komissarlar durdu.

Xeyli səciyəvi faktlar vardır və göstərir ki, sovet hökuməti milis xidmətində müstəqil Azərbaycan Polisinin sabiq peşəkar kadrlarından istifadə etmiş və buna bir növ məcbur olmuşdur. Bunlara misal olaraq, Qazaxda mülkədar Cahandar bəyin oğlu ("Dəli Kür" filmindəki), vaxtı ilə pristav işləmiş Qiyas bəy Şıxlinskini (1895-1972) (sonra 1930-cu ildə sovet hakimiyyətinə qarşı qiyam qaldıraraq Türkiyəyə keçmiş, oradan silahlı mübarizəni davam etdirmişdi), məsul vəzifələrdə çalışmış, mülkədar Aslan bəyin oğulları Qiyas bəy Sarıcalinski (1896-1972) və Məmməd bəy Sarıcalinski qardaşlarını, Əbil Musayevi, vaftıilə Ağstafada pristav işləmiş İsrafil İbrahimovu (1900-1938), Riza Mövlazadəni, Rza Qaraşarlını, Həsən bəy Firidunbəyovu, Qriqori Şpakı (Bakı), ağdamlı mülkədar Nəsir bəyin oğlu Əsəd bəy Axundovu (1898-1937), ağdamlı mülkədar Camal bəyin oğlu Cəmil Mirzəyevi (1898-1951), Masallının Xıl kəndindən olan polkovnik (sonralar general-mayor olmuşdu)Əli bəy Bəylərbəyovu (1884-1938), Məmmədəmin Şəkinskini (1900-1968), Bahadur Rzayevi (1898-1989) və digərlərini göstərmək olar.

# NƏTİCƏ

XX əsrin əvvəlində xalqımızın apardığı milli-azadlıq mübarizəsi nəticəsində 28 may 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti uzun illərdən bəri itirilmiş dövlət müstəqilliyimizin yenidən əldə edilməsinin bariz nümunəsi idi. Onu nyaradanlar Azərbaycan xalqının Avropa təhsili görmüş qabaqcıl ziyalıları, buryua-demokratik nümayəndəliəri idilər. Azadlıq və istiqlal amalı uğrunda uzun əziyyətlərdən sonra xalqımızın görkəmli ictima-siyasi xadimləri F.Xoyski, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Ə.Topçubaşov, H.Ağayev, B.Cavanşir, X.Xasməmmədov, M.Vəkilov, M.H.Hacınski, X.Sultanov, A.Səfikürdsaki, M.Axıcanlı, X.Rəfibəyli, M.Y.Cəfərov və başqaları tərəfindən yaradılıb inkişaf etdirilən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı dövründə xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ediyi kimi çox iş görmüş və ən başlıcası – müstəqillik yolumuzun başlanğıcını qoymuşdur. Vaxtı ilə Azərbaycan Cümhuriyyətinin tarixi yeri barədə İ.Stalinin (Cuqaşvili) : "Bu ilyarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bidiniz?"- sualına cavabında demişdi: " Çox şey verə bilmədik, amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da milli istiqlal dadızdırdıq...".

Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin, onun bəzi görkəmli, nüfuzlu xadimlərinin səhvləri də olmuşdur... Lakin istər həmin səhvlərin öyrənilməsi, istərsədə qazanılmış müvəffəqiyyətlər bir tarixi örnək roluna, müəyyən ibrət dərslərinə malikdir. Özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmiş müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarını əxz etməklə onun yolunu bu gündə davam etdirir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, polis orqanlarımız bu gündə dövlət müstəqilliyimizin, suverenliyimizin qorunmasında, möhkəmləndirilməsində və daha da inkişaf etdirilməsində, qüdrətlənməsində və zənginləşdirilməsində, ən başlıcası,

bilavasitə ictimai-asyişin, sabitliyin mühafizə olunmasında və cinayətkarlıqla mübarizədə önəmli rol oynamaqdadır.

Mənbələr - qiymətli arxiv materialları, xarakterik aidiyyatı dövrü mətbuat və hüquqi sənədlər, habelə səciyəvi ədəbiyyatlar qəti sübut edirki, artıq 100 illik tarixi tamam olmaqda olan Azərbaycan Xalq Cümhuriyyəti daxili işlər orqanlarının, əxz edilməli həqiqi tarixi təcrübəsi vardır və bu təcrübə, bu tarixin daha ətraflı, qaranlıq qalan, öyrənilməyən tərəfləri tam tədqiq olunub təbliğ edilməli, ilk növbədə gənc nəslə çatdırılmalıdır... Gürcüstan milisinin tarixinə bir neçə sanballı monoqrafiya həsr etmiş tarix elmləri doktoru, professor Prokofi Samsonoviç.Xviçiya hələ 1987-ci ildə Tbilisidə keçirdiyimiz görüşdə fikir mübadiləsi zamanı mənə demişdir ki, Azərbaycan Xalq Cümhuriyyətində polis və milis menşevik Gürcüstanı və daşnak Ermənistanından əvvəl təşəkkül tapmış, daha mükəmməl təşkilati və struktur təcrübəsinə malik idi. Beləliklə, tarixi mənbələr, xarakterik dövri hüquqi qanunvericilik aktları, sənədləri və faktları sübut edir ki, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin, Azərbaycan Polisinin tarixi təcrübəsi hədər getməmiş, hətta ictimai- siyasi quruluşun belə dəyişməsinə baxmayaraq, özündən sonra bir örnək rolunu oynamış və bu gün də oynamaqdadır. Başqa sözlə, ulu öndər, ümummilli lider, möhtərəm prezidentimiz Heydər Əliyevin dediyi kimi: “Azərbaycan Xalq Cümhuriyyəti Polisi müasir Azərbaycan Respublikası Polisinin həqiqi sələfi, müasir Azərbaycan Polisi isə onun layiqli varisidir”.

XRONOLOGİYA

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ**

1. **FƏTƏLİ XANİSGƏNDƏR XAN OĞLU XOYSKİ** (1875- 1920). **Daxili işlər naziri olduğu dövr: 28 may – 16 iyun 1918-ci il.**

2. **BEHBUD XAN AZAD XAN OĞLU CAVANŞİR** (1877 – 1921). **Daxili işlər naziri olduğu dövr: 17 iyun 1918 – 7 dekabr 1918-ci il.**

3. **XƏLİL BƏY HACIBABA OĞLU XASMƏMMƏDOV** (1875-1945). **Daxili işlər naziri olduğu dövr: 26 dekabr 1918 – 14 mart 1919-cu il.**

4. **NƏSİB BƏY YUSİF BƏY OĞLU YUSİFBƏYLİ** (1881-1920). **Daxili işlər naziri olduğu dövr: 16 aprel – 22 dekabr 1919-cu il.**

5. **MƏHƏMMƏD HƏSƏN CƏFƏRQULU OĞLU HACINSKİ** (1876-1931). **Daxili işlər naziri olduğu dövr: 24 dekabr 1919 – 18 fevral 1920-ci il).**

6. **MUSTAFA BƏY NADİR BƏY OĞLU VƏKİLOV** (1896-1965). **Daxili işlər naziri olduğu dövr: 18 fevral – 28 aprel 1920-ci il.**

7. **General-mayor MƏHƏMMƏD SADIX BƏY HACI İSMAYIL BƏY OĞLU AĞABƏYZADƏ (AĞABƏYOV)**(1865-1944). **Nazir əvəzi (vitse-nazir) olduğu dövr: 23 oktyabr 1918 – 23 yanvar 1920-ci il.**

# ŞƏKİLLƏR



***1. Fətəli xan İsgəndər xan oğlu Xoyski** (7.12.1875, Nuxa (Şəki) – 19.6.1920, Tiflis). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, hüquqşünas. AXC-nin ilk Baş nazri və **1-ci daxili işlər naziri (28 may – 16 iyun 1918-ci il). 1920-ci il iyunun19-da** Tiflisdə ərzrumlu erməni muzdlu qatilləri Aram Erkanyan və Musaq Qriqoryan tərəfindən arxadan atılan atəşlə qətlə yetirilmişdir. Bu zaman onun cəmi 45 yaşı vardı. Qəbri Tiflisdə Nəbatat bağında azərbaycanlıların köhnə Müsəlman Qəbiristanlığı Kompleksindədir. Orada dəfn olunmuş 27 görkəmli azərbaycanlı ictimai-siyasi xadimlərdən M.F. Axundzadə (Axundov), M.Ş. Vazeh və H. Ağayevdən sonra dəfn edilmişdir. Qəbri dördüncüdür. Atası İsgəndər xan Xoyski çar ordusunun hərbçi general-leytenant idi. F. Xoyskinin milliyyətcə rus olan Yevgeniya Vasilyevnadan- ("Ceyran" ləqəbli) qadından Tamara, Murad və Ənvər adlı üç övladı vardı... F.Xoyskinin adına Bakıda prospekt, Gəncədə küçə vardır. Anadan olmasının 120 illiyi münasibətilə poçt markası buraxılmış, haqqında sənədli film çəkilmişdir. "Əli və Nino" bədii filmində aktyor Xalid Ərgənc onun surətini yaratmışdır.*



***2. Behbud xan Azad xan oğlu Cavanşir** (1877, Şuşa q., Azad Qaraqoyunlu k. (indiki Tərtər r-ndadır) - 18 iyul 1921, İstanbul). AXC-nin **2-ci daxili işlər naziri (17 iyun – 7 dekabr 1918-ci il).** Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. Almaniyada Frayburq Dağ-Mədən Akademiyasını bitirmiş ilk milli dağmədən mühəndislərindən biri. Poliqlotçu idi (6 dil - rus, ingilis, fransız, alman, gürcü və erməni dillərini bilirdi). 1921-ci il iyulun 18-də İstanbulda erməni muzdlu qatili, "Daşnaksutyun" partiyasının üzvü, 1918-ci ildə Bakıda və digər yerlərdə azərbaycanlılar və digər müsəlmanlılara qarşı Mart soyqırımının fəal iştirakçısı Misaq Torlaqyan (tarixi ədəbiyyatda Toplaqyan da yazılır) qətlə yetirilmiş və 3 gün sonra Beşikdaşdakı Yəhya Əfəndi dərgahında dəfn edilmişdir. Bu zaman onun cəmi 44 yaşı vardı. Behbud xanın həyat yoldaşı rus qızı Tamara xanım idi. Lakin övladları olmamışdı.*



***3. Xəlil bəy Hacıbaba oğlu Xasməmməd**ov **("Gurgörən")** (1873, Gəncə - 1945, İstanbul, Türkiyə). AXC-nin **3-cü daxili işlər naziri (26 dekabr 1918-ci il - 14 mart 1919-cu il).** Qəbri İstanbulda azərbaycanlı mühacirlərin ən çox dəfn olunduğu "Fəri köy" məzarlığındadır. Qəbirlərin qeydiyyat kitabında Xəlil bəyin qəbrinin nömrəsi 22-dir.Tarixi ədəbiyyatda X. Xasməmmədovun vəfat tarixi 1947-ci il yazılır. Ancaq qəbirin sinə daşının üstündə 1945-ci ildir. Bunu Xəlil bəyin kiçik qardaşı Nağı bəyin İstanbulda yaşayan oğlu Toğrul Cuvarlı söyləmiş və təsdiq etmişdir...*



***4. Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli*** *(1881, Gəncə - 31.5.1920, Kürdəmir). AXC-nin* ***4-cü hökumət kabineti dövründə*** *(14 mart - 24 dekabr 1919-cu il) Nazirlər Şurasının sədri və eyni zamanda* ***daxili işlər naziri (16 aprel - 22 dekabr 1919-cu il)*** *olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra labüd həbsdən və güllələnməkdən yaxa qurtarmaq üçün Kürdəmirə gəlmişdir. Qatillər 1920-ci il mayın 31-də Nəsib bəyi qarət edib, müəmmalı şəkildə öldürmüş və meyidini Əyricə kəndi yaxınlığında Kür çayına atmışdılar. Qəbrinin yeri dəqiq bilinmir... N.Yusifbəylinin məşhur mütəfəkkir İsmayıl Qaspralının qızı Şəfiqə Sultandan Zöhrə adlı qızı və Niyaz adlı oğlu qalmışdı. Onlar çətinliklə olsa da İstanbula köçüb orada yaşayırdılar... Bakıda və Gəncədə N.Yusifbəylinin adına küçələr vardır. Vaxtı ilə yaşadığı binaların önünə xatirə lövhəsi (barelyefi) vurulmuş, ona həsr olunmuş "Bir qətlin iki qurbanı" adlı film çəkilmişdir (2012, rejissor Elnur Pişnamazzadədir).*



**5.** ***Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski*** *(3.3.1876, Bakı - 9.2.1931, Tiflis). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. İxtisasca mühəndis idi. İmperator Nikolay adına Sankt-Peterbur İmperator Texnologiya İnstitutunu bitirmişdi. Bakının Dənizkənarı Bulvarını M.Hacınski tikdirib başa çatdırmışdır (1909-1912). AXC-nin* ***5-ci daxili işlərnaziri (24 dekabr 1919-cu il - 18 fevral 1920-ci il).*** *Sovet hakimiyyəti dövründə məsul dövlət vəzifəsində çalışsa*

*da, Zaqafqaziya Partiya Komitəsinin 1-ci katibi Lavrenti Beriya ilə aralarındakı ixtilafa görə (onlar Tiflisdə bir binada yaşayırdılar (İ.Ə.) təqib edilmiş, həbs olunmuş və 1931-ci il fevralın 9-da Tiflisdə həbsxanada "intihar"... etmişdir... Simvolik qəbri Tiflisdə Nəbatat bağında azərbaycanlıların Müsəlman Qəbiristanlığı Kompleksində M.F. Axundovun məzarının ayaq tərəfindədir. M.Hacınskinin Səadət xanımdan 8 övladı (Şamil, Nuşirəvan, Muxtar, Tofiq, Murad adlı oğlanları, Minurə, Mehriban, Leyla adlı qızları) qalmışdı. Ailəsi əzablı repressiyaya məruz qalmışdır...*



***6. Mustafa bəy Nadir bəy oğlu Vəkilov** (1886, Salahlı k. Qazax q. - 1.11.1965, Amasiya ş., Türkiyə). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, hüquqşünas. Moskva Universitetini bitirmişdi. AXC-nin **sonuncu (6-cı) daxili işlər naziri (18 fevral - 28 aprel 1920-ci il)** olmuşdur. Ən gənc - 23 yaşında Azərbaycan hökuməti tərəfindən daxili işlər naziri təyin edilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra həbs edilib güllələnəcəyini qəti bildiyindən xaricə mühacirət etmiş, əvvəlcə Tiflisə, oradan da Türkiyəyə getmişdi. Ömrünü mühacirətdə keçirmiş, lakin sovet hakimiyyətinə qarşı mübarizəni oradan da davam etdirmişdi... 1965-ci il noyabrın 1-də Amasiya şəhərində 69 yaşında vəfat etmişdİr. Qəbri Ankaradadır. Hərtərəfli və mübariz şəxsiyyət olan M.Vəkilov böyük Azərbaycan şairi Səməd Vurğunun qohumudur. Türkiyədə yaşayarkən İstanbul Universitetin tələbəsi, Şamaxı qəzasının keçmiş rəisi Talıbxan Talıbxanovun qızı Sürəyya Talıbxanlı ilə evlənmiş, lakin bir müddətdən sonra ayrılmışdılar... Amasiyada Firdovsi adlı qadınla ikinci dəfə evlənmiş, ondan Serpil adlı qızı və Nadir adlı oğlu qalmışdı...*



***7. Məhəmməd Sadıx bəy Hacı İsmayıl bəy oğlu Ağabəyzadə (Ağabəyov)*** *(15.3.1865, Göyçay ş. - 9.11.1944, Lvov ş., Ukrayna). General-mayor. AXC-nin* ***daxili işlər naziri əvəzi – vitse-nazir (23 oktyabr 1918 - 23 yanvar 1920-ci il)*** *olmuşdur... Müstəqil Azərbaycan Polisinin yaranması və təşəkkülündə əsas rollardan birini oynamış, onun yaradıcılarından olmuşdur. Sonralar şərqşünas professor adı almışdır. Keşməkeşli ömrünü mühacirətdə miskin şəkildə başa vurmuşdur. Qəbri Lvov şəhərində katoliklərin Liçakovski qəbiristanlığındadır. Doğulduğu Göyçay şəhərində bir vaxt yaşadığı evin qarşısında xatirə lövhəsi vurulmuşdur. Ona "Çinarlı şəhərin generalları" adlı ikiseriyalı sənədli film (rejissor-operator Taleh İsmayılovdur) çəkilmiş, "İki ömür yaşayan adam" adlı kitab (mərhum Əli Səmədli) həsr olunmuşdur. Lvov şəhərində adına küçə vardır. Ensiklopedik biliyə malik M.S.Ağabəyzadə həmdə şərqşünaslıq məktəbinin banisidir. Orada görkəmli alimlər arasında portireti vardır. Vaxtı ilə Ayişə adlı özbək qızı ilə ailə qursa da, o tez xəstələnib öldüyündən övladı qalmamışdır. Sonra isə ikinci dəfə evlənməmişdir...*



***8. Mehdi bəy Süleyman bəy oğlu Hacınski*** *(24.5.1879, Quba – ?,6.1941, Bakı). AXC dövründə* ***daxili işlər nazirinin müavini (sentyabr - 7 dekabr 1918-ci il)*** *olmuşdur. 1941-ci ilin iyununda Bakıda 62 yaşında vəfat etmişdir.*



***9. Əliyar bəy Mehdi bəy oğlu Haşımbəyov*** *(8.3.1856, Bakı – 29.5.1920, Bakı). Əsli Dərbənddəndir. General-mayor.* ***Zaqatalanın 1-ci qubernatoru (26 iyun 1918-ci il – 16 mart 1919-cu il)*** *olmuşdur. Azərbaycan hökumətinin qərarı və daxili işlər naziri X.Xasməmmədovun əmri ilə* ***1919-cu il martında Naxçıvanın general-qubernatoru*** *vəzifəsinə göndərilmiş, bu vəzifədə* ***1919-cu ilin avqustunadək*** *fəaliyyət göstərmişdir. Sonuncu tarixdən AXC* ***daxili işlər nazirinin intendant sahəsi üzrə müavini*** *vəzifəsinə irəli çəkilmiş, eyni zamanda Dəftərxana direktoru kimi imzalar atmışdır. Ə.Haşımbəyov AXC-nin süqutuna qədər xidmət göstərmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulan kimi dərhal həbs olunmuş və 1920-ci il mayın 29-da Nargin (Böyük Zirə) adasında gecə saat 2-də güllələnmişdir. Bu zaman onun cəmi 55 yaşı vardı.*



***10. İbrahim bəy İsa bəy oğlu Heydərov ("Heydəroğlu")*** *(3.8.1879, Dərbənd – 1949, Ankara, Türkiyə). AXC* ***daxili işlər nazirinin müavini (6 yanvar - 10 mart 1920-ci il)*** *olmuşdur... 1949-cu ildə Ankarada 70 yaşında vəfat etmişdir. Məzarı oradakı Cəbəçi qəbiristanlığındadır. Dərbəndli general-leytenant Balakişi Ərəblinskinin nəvəsi Nisə xanımdan Minnətullah adlı oğlu, Leyla, Fatma, Mina və Şermin xanım adlı 5 övladı olmuşdur. Onlar məşhurluqla uzun müddət Ankarada və İstanbulda ömür sürmüşlər...*



***11. Şəfi bəy Mustafa bəy oğlu Rüstəmbəyli ("Aran")** (1893, Aydınqışlaq k., Qutqaşen (indiki Qəbələ) – 1960, İstanbul, Türkiyə) (Bəzi tarixi ədəbiyyatlarda Ş.Rüstəmbəylinin Ağdaşın Məmmədli kəndində doğulduğu yazılır. Lakin son araşdırmalar göstərir ki, Şəfi bəy Aydınqışlaq kəndində əsilzadə ailədə dünyaya gəlmişdir - İ.Ə.). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi**.** Kiyev Müqəddəs Vladimir Universitetinin hüquq fakültəsini bitirmişdir.AXC **daxili işlər nazirinin müavini (24 dekabr 1919-cu il - 6 yanvar 1920-ci il; 10 mart - 27 aprel 1920-ci il)** olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Ali İnqilabi Tribunal tərəfindən həbs olunması və güllələnməsi barədə hökm çıxarılmışdı və bunun üçün axtarılırdı. Lakin Şəfi bəy gizli yolla əvvəl Tiflisə, sonra da İstanbula getməyə macal tapmışdı... Bütün ömrü mühacirətdə keçmiş, oradan da sovet hakimiyyətinə qarşı mübarizəni davam etdirmişdir. Ş.Rüstəmbəyli 1960-cı ildə İstanbulda 67 yaşında "Vətən!", "Azərbaycan!", - deyə-deyə gözlərini əbədi yummuşdur.*



***12. Ömər Faiq Əfəndi Nemanzadə** (24.12.1872, Azqur k., Ahıska (Ahalsıx) q., Gürsüstan - 10.10.1938, Tiflis)**.** Görkəmli jurnalist-yazıçı. AXC **DİN-in Xüsusi İnzibati Polis İnspeksiyasının (Müfəttişliyinin) ilk rəisi (16 sentyabr - 29 sentyabr 1919-cu il)**. 30-cu illər repressiyasının qurbanlarından biri. 1938-ci il oktyabrın 10-da Tiflisdə Xüsusi İstintaq Komissiyasının yanındakı "üçlük"ün qərarı ilə güllələnmişdir.*



***13. Nağı bəy Əlizadə (Əliyev)*** *(1897, Bakı - 1920, Bakı). AXC* ***Parlamenti MühafizəPolisinin ilk rəisi (19 fevral 1919-cu il - 28 aprel 1920-ci il).*** *Podpolkovnik idi. Azərbaycanda sovet hakimiyyəti qurulan kimi dərhal həbs olunmuş və 1920-ci ildə Nargin (Böyük Zirə) adasında güllələnmişdir. AXC-nin qurucusu* ***M.Ə.Rəsulzadə*** *"Azərbaycan Cümhuriyyəti" adlı kitabında Nağı bəyi "****İstiqlal Şəhidi"*** *adlandırmışdır.*



***14. Məhəmməd Bağır bəy Saleh bəy oğlu Şeyxzamanlı (Şeyxzamanov)****(1889, Gəncə - 29 may 1920, Bakı). AXC* ***DİN-in Əks-İnqilabla Mübarizə Təşkilatının ("Müsavat Əks-Kəşfiyat Xidməti"nin) ilk sədri (11 iyun - 20 avqust 1919-cu il).*** *Azərbaycanda sovet hakimiyyəti qurulan kimi dərhal həbs edilmiş və 1920-ci il mayın 29-da Nargin (Böyük Zirə) adasında gecə saat 2-də güllələnmişdir. Böyük* ***M.Ə.Rəsulzadə*** *"Azərbaycan Cümhuriyyəti" kitabında M.B.Şeyxzamanlını* ***"İstiqlal Şəhidi"*** *adlandırmışdır.*



***15. Nağı bəy Saleh bəy oğlu Şeyxzamanlı (Şeyxzamanov) ("Keykur")*** *(1883, Gəncə - 1967, İstanbul). AXC* ***DİN-in Əks-İnqilabla Mübarizə Təşkilatının ("Müsavat Əks-Kəşfiyat Xidməti"nin sədri) (20 avqust 1919-cu il - 6 mart 1920-ci il).*** *Azərbaycanda*

*sovet hakimiyyəti qurulandan sonra təqiblərdən can qurtararaq mühacirətə yollanıb orada yaşamış.., fəaliyyətini orada davam etdirmiş... və orada da vəfat etmişdir. N.Şeyxzamanlı 1967-ci ildə ABŞ-da 84 yaşında vəfat etmiş və nəşi İstanbula gətirilərək məşhur "Fəri köy" qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin sabiq daxili işlər naziri Xəlil bəy Xasməmmədovun yanında dəfn olunmuşdur. Bunu Nağı bəyin İstanbulda yaşayan oğlu Yavuz bəy söyləmiş və təsdiq etmişdir. Nağı bəyin ABŞ-da yaşayan daha bir oğlu Zahid bəy orada nüfuzlu bir şəxs idi. N.Şeyzamanlı keşməkeşli mübarizələrlə dolu həyatı haqqında "Azərbaycan İstiqlal mücadiləsi xatirələri" adlı maraqlı kitab qoyub getmişdir.*



***16. İbrahim ağa Paşa ağa oğlu Vəkilov ("Kosaoğlu İbrahim Vəkilzadə Qazaği")*** *(7.5.1853, Qırax Salahlı k., Qazax q. - 26.6.1934, Bakı)****.*** *General-mayor. AXC dövründə* ***Gəncənin ilk qubernatoru (23 iyun 1918-ci il - 14 mart 1919-cu il),*** *Milli Ordumuzda* ***ilk hərbi bayrağımızın*** *da yaradıcısı olmuşdur... 1934-cü il iyunun 26-da Bakıda 81 yaşında vəfat etmişdir. Yelena Yefimovna ilə ailə qurmuşdu. Qalib bəy (sonralar ordu polkovniki olmuşdur), Faris bəy adlı oğlanları və Reyhan xanım adlı qızı qalmışdı...*



***17. Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyli (Rəfibəyov)****(1877, Gəncə - 6.6.1920, Bakı). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. Gəncənin məşhur Rəfibəylilər nəslinin görkəmli nümayəndəsi. AXC-nin 2-ci hökumət kabineti dövründə səhiyyə naziri olmuşdu. Azərbaycan hökumətinin qərarı və Daxili İşlər Nazirlyinin əmri ilə X.Rəfibəyli* ***Gəncənin qubernatoru*** *təyin edilmiş və bu vəzifədə axıradək qətiyyətlə və sədaqətlə çalışmışdı* ***(6 may 1919-cu il – 30 aprel 1920-ci il****). Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra repressiyaya məruz qalmış və 1920-ci il mayın 12-də saxta ittihamlarla həbs olunmuş, Bakıya gətirilərək, güllələnmişdir... X.Rəfibəylinin 43 yaşında güllələnməsi barədə bir neçə ehtimal vardır. Mövcud ədəbiyyatlarda onun Nargin (Böyük Zirə) adasında güllələnməsinin tarixi 27 may, 1 iyun, 2 iyun və 6 iyun tarixlərindən birinə aid edilir. 6 iyun 1920-ci il tarixi daha qəbulolunandır. Meyidinin dənizə atılması ehtimalı da vardır... X.Rəfibəylinin Cəvahir xanımdan Kamil bəy, Rəşid bəy və Nigar xanım adlı övladları qalmışdı... Azərbaycanın məşhur xalq şairəsi* ***Nigar Rəfibəyli (yazıçı Anarın anası)*** *Xudadat bəyin qızıdır. Oğlu Kamil "Arran" Türkiyədə yaşamışdır... X.Rəfibəylinin Gəncədə yaşadığı evinin önünə xatirə lövhəsi vurulmuşdur. Adına Gəncə şəhərində küçə vardır.*

**

***18. Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov** (1878, Tuğ k. Xocavənd, Şuşa q. - 18.5.1942, Keme ş., Kareliya MSSR). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. AXC dövründə **Lənkəranın 1-ci general-qubernatoru (12 avqust - dekabr 1919-cu il**) olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra keçmişinə görə bir neçə dəfə (1920, 1931) həbs olunmuşdur. 1931-ci ildə həbs edilib 10 il müddətinə sürgünə göndərilmişdi. 1942-ci il mayın 18-də Keme şəhərində ürək partlamsından 64 yaşında vəfat etmişdir. Hələ Ləkəranda xidmət edərkən Məryəm xanım Bayraməlibəyova ilə evlənmişdi. Bu izdivacdan Azarya, Təlalə və Asiman adlı övladları qalmışdı... X.Məlik-Yeqanovun ailəsi sovet hakimiyyətinin dəhşətli repressiyasına məruz qalmışdır...*



***19. Xosrov bəy Əli Paşa bəy oğlu Sultanov (Sultanzadə)** (10.5.1879, Kürdhacı (Qurdqaji) k., Hacısamlı-Qaraçorlu nahiyəsi, Qasımuşağı obası (indiki Laçında), Zəngəzur q. - 7.1.1943, İstanbul, Türkiyə). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. Azərbaycan Xalq Cümhuriyətinin 1-ci hökumət kabinetində ilk hərbi nazir olmuşdur. 1919-cu il yanvarın 15-də ermənilərin arasıkəsilməz təcavüzünün qarşısını almaq üçün mərkəzi Şuşa şəhəri olan Qarabağ General-Qubernatorluğu yaradılmış və Xosrov bəy **general-qubernator** təyin olunmuşdur. O, 1920-ci il aprelin 28-dək bu vəzifədə qətiyyətli fəa-*

*liyyət göstərmiş, böyük qardaşı, xalq qəhrəmanı Sultan Sultanovla bərabər ermənilərə divan tutmuşdur. Sovet hakimiyyəti qurulduqdan bir müddət sonra təqiblərə məruz qaldığından 1922-ci ildə Araz çayını Xudəfərin körpüsündən (Cəbrayıl rayonu) keçməklə Cənubi Azərbaycana gəlmişdir. İran şahı ona mehriban münasibət bəsləmişdi. Lakin sovet casusları qardaşı İsgəndər bəyi öldürdükdən sonra 1923-cü ildə Türkiyənin Qars vilayətinə gəlmiş, bir müddət orada böyük qardaşı Sultan Sultanovla Köç köy kəndində yaşamışdır. Sonra Trabzona köçüb orada fəaliyyətini davam etdirmişdir. Ermənilər onu izləyərək 1936-cı ildə Trabzonda mehmanxanada az qala öldürəcəkdilər. Xosrov bəy labüd ölümdən ancaq dostlarının köməyi ilə qurtara bilmişdi... İkinci Dünya müharibəsi dövründədə Türkiyədə yaşayan X.Sultanov sovet-alman cəbhəsində əsir düşmüş azərbaycanlıları Almaniyanın hərbi düşərgələrindən xilas etmək üçün böyük xidmətlər göstərmişdir. X.Sultanovun Trabzonda 1947-ci ildə vəfat etdiyi tarixi ədəbiyyatlarda, hətta rəsmi xarakter daşıyan "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın birinci cildində öz əksini tapmışdır. Lakin 2016-cı ilin fevral ayının 21-də X.Sultanovun nəslindən olan Orxan Cəbrayıl onun AZ. TV-nin əməkdaşı, yazıçı-publisist Bəxtiyar Qaraca tərəfindən tapılmış məzarının fotosunu çəkib "Karabakh.media.az" saytında məlumat yaymışdır ki, Xosrov bəyin məzarı İstanbulda Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin uyuduğu böyük "Fəri köy" qəbiristanlığındadır, özüdə Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun qəbrinin yanında dəfn olunmuşdur. Qəbirin başdaşında Xosrov bəyin şəkili var, vəfat tarixi isə 7 yanvar 1943-cü il kimi yazılmışdır. Beləliklə, uzun illərdən sonra xalqımızın bu qəhrəman oğlunun məzarının həqiqi yeri bəlli olmuşdur. Bu xəbərin yayılmasında və təbliğində Xosrov bəyin qardaşı nəvəsi, Balakən RPŞ-nin sabiq polis əməkdaşı Laçın Paşayevin və xüsusən, 2015-ci ilin avqust ayında İstanbula film çəkməyə gedərkən onu təsadüfən aşkar edən yazışı-publisist Bəxtiyar Qaracanın rolu böyükdür. Xosrov bəyə Türkiyədəki xidmətlərinə görə generala bərabər "Paşa"*

*rütbəsi verilmişdir. Adına gəmi vardır. Azərbaycanda fəaliyyət göstərəndə ailəsi olmayıb. Türkyədə isə olmuşdur...*




***20.** Türkiyə. **İstanbul** şəhəri. **“Fəri köy”** qəbiristanlığı. Azərbaycanın görkəmli Ictimai-siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanzadənin (Sultanovun) məzarı. Məzarı **2015-ci ilin avqust ayında** Azərbaycan Televiziyasının əməkdaşı, yazıçı-publisist **Bəxtiyar Qaraca** aşkar etmişdir.*




***21. Şəkildə Bəxtiyar Qaraca*** *Xosrov bəy Sultanzadənin məzarı başında*

**

***22. Məhəmməd Mahmud oğlu Kovxa (Mahmudov)*** *(1859, Qazax - ?, 1933, Sibir). AXC dövründə* ***Qazaxın general-qubenatoru (23 iyun 1918-ci il - 6 may 1919-cu il).*** *Sədaqətli xidməti və xeyirxahlığı ilə ad çıxarmışdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra özü və ailəsi repressiyaya məruz qalmış, bir neçə dəfə (1926, 1929, 1933) həbs olunmuşdur. 1933-cü ilin payızında Sibirdə sürgündə 74 yaşında ürəyi partlamaqla dünyasını dəyişmişdir. Oğlu Həmid Gəncə hərbi məktəbinin ilk məzunlarından biri idi. Sovet hakimiyyətinə qarşı mübarizə aparmışdır...*



***23. Rza bəy Kərbəlayı Baba bəy oğlu Qaraşarlı (Qaraşarov)****(1891, Şuşa ş. - 1924/25, Bakı). Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü. AXC dövründə* ***DİN-in Qazax qəzasında Xüsusi Səlahiyyətli müvəkkili*** *(general-qubernator vəzifəsinə uyğun idi) xidmət* ***(6 may - 12 oktyabr 1919-cu il) etmişdir.*** *Sovet hakimiyyəti dövründə bir müddət Azərbaycan SSR XDİK-də çalışmışdır. 20-ci illərin ortalarında repressiya olunmuşdur... Məmməd bəy və Rza bəy adlı 2 övladı qalmışdı...*



***24. Əmir xan Cahangir xan oğlu Xoyski*** *("Əmiraslan xan") (1888, Gəncə - ?, 1954, İstanbul, Türkiyə). Fətəli xan Xoyskinin böyük qardaşı Cahangir xanın oğlu. Sankt-Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. AXC dövründə Bakı general-qubernatorunun böyük köməkçisi (1-ci müavini) və qısa müddətdə Gəncə qəzasının rəisi vəzifələrində (25 sentyabr - 12 oktyabr 1919-cu il) işləmiş, sonra* ***Qazax qəzasında DİN-in Xüsusi Səlahiyyətli nümayəndəsi (qubernator)*** *olmuşdur. Gəncə üsyanında (26 may - 4 iyun 1920-ci il) fəal iştirak etmişdir. Üsyan yatırıldıqdan sonra Türkiyəyə qaçmışdı. Ancaq həyat yoldaşı və iki uşağı Azərbaycanda qalmış və sovet hakimiyyət orqanları tərəfindən incidilmişdi. Onlar öz soyadlarını dəyişib "Cangirli" qoymuşdular. "Əmiraslan xan" Xoyski ömrünün sonunadək Türkiyədə yaşamış və 1954-cü ildə orada 66 yaşında vəfat etmişdir. Əmir xan 2 dəfə evlənmişdi. Birinci həyat yoldaşı, Cənubi Azərbaycandakı Maku xanları nəslindən olan Cəfər xanın qızı Əfşan xanımdan Cəfər adlı oğlu və Bəyim adlı qızı qalmışdı. Onlar sonradan Türkiyəyə köçmiş və "Xoylu" soyadını daşımaqla orada yaşamışlar...*



***25. Teymur bəy Ağa bəy oğlu Məlik-Aslanov*** *(1889, Tuğ k. (indiki Xocəvənd), Dizaq (indiki Hadrud) nahiyəsi, Şuşa q. - 17.7.1920, Bakı). AXC Dövründə Azərbaycan Cümhuriyyəti Dəmir Yol İdarəsinin rəisi və* ***Dəmir Yolunun general-qubernatoru*** *olmuşdur. Gəncə üsyanında (26 may - 4 iyun 1920-ci il) iştirakına görə sovet hakimiyyətinin xüsusi orqanları (FK) tərəfindən həbsə alınmış və İnqilabi Hərbi Səhra Məhkəməsinin hökmü ilə 1920-ci il iyulun 17-də Bakıda 31 yaşında güllələnmişdir.*



*Kəngərli Naxçıvanskilər.
Bəhram xan (öndə)
və Kamran xan (kiçik qardaşı).
Tiflis. 1900-cü illərin əvvəlləri.*

***26. Bəhram xan Əmənulla xan oğlu Naxçıvanski** (1872, Naxçıvan ş. - 1941, Maku?, İran). Məşhur Kəngərlilər nəslindəndir. Tiflisdə Qafqaz Canişiliyində hərbi qərargahda ştalmeyester (orduda süvari zabit) rütbəsində xidmət etmişdi... Cənub-Qərbi Qafqaz (Qars) - Araz Türk Demokratik Respublikasının xarici əlaqələr üzrə komissarı (yanvar-fevral 1919), **Cənub-Qərbi Azərbaycan (Naxçıvan) General-Qubernatorluğunun general-qubernatoru (28 fevral - 16 mart 1919-cu il) olmuşdur**. B. Naxçıvanski Şərur-Dərələyəz General-Qubernatorluğundaköməkçi (rotmistr rütbəsində) (avqust 1919), AXC **Daxili İşlər Nazirliyinin Lənkəran qəzasında Xüsusi Səlahiyətli nümayəndəsi (general-qubernator vəzifəsinə uyğun) (dekabr 1919 – 28 aprel 1920)** olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1926-cı ildən başlayarq Kəngərli Naxçıvanskilər nəsli BDSİ tərəfindən təqiblərə məruz qalmışdır. Onların çoxu Təbrizə, Makuya, Urmiyaya mühacirət edib oradakı qohumlarının yanında yaşamışlar... B.Naxçıvanski də Cənubi Azərbaycana köçmüşdür. B.Naxçıvanski Qarabağ xanı Mehdi-*

*qulu xanın qızı, məşhur şairə Xurşudbanu Natəvanın nəvəsi, hazırda Azərbaycan Respublikası Milli Məclisinin millət vəkili Aqiyə Naxçıvanskinin əmisidir...*



***27. Əbdül Səməd bəy Cəmil bəy (ağa) oğlu Cəmillinski** (1892, Cəmilli k., Cavanşir q. - 7.11.1937, Bakı). Hüquqşünas ixtisası vardı, Sankt-Peterburq Universitetini bitirmişdir. Polikovnik rütbəsinə malik idi. AXC dövründə **Cənub-Qərbi Azərbaycan (Naxçıvan) Respublikasının general-qubernatoru (avqust 1919 -16 mart 1920**) olmuşdur. Ə.Cəmillinski sovet hakimiyyəti dövründə repressiyanın qurbanı olmuş, həbs edilərək 1937-ci il noyabrın 7-də gecə 45 yaşında birinci (79 nəfərin içərisində) güllənmişdir. Ə.Cəmillilinski görkəmli Azərbaycan şairəsi X.Natəvanın qız nəvəsi, Cənub-Qərbi Azərbaycan Respublikasının general-qubernatoru B.Naxçıvanskinin xalası oğludur. Ə.Cəmillinskinin Əbdülsəməd, Kənan, Məhəmməd adlı oğlanları və Zərəngiz adlı qızı vardı...*



***28.Məhəmməd bəy Nəsrullah bəy oğlu Şahmalıyev** (1870, Samux k., Gəncə q. - 1924, Bakı). Hüquqşünas idi, Odessadakı "Novorossiysk Universiteti"ni bitirmişdir. AXC dövründə **Zaqatala quberniyasının qubernatoru (16 mart 1919 - 27 aprel 1920**) olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra M.Şahmalıyevin mal-mülkü müsadirə olunmuş, özü isə həbs edilmiş və məhkəməsi olmuşdu. Onu labüd güllələnmə gözləyirdi. Lakin vaxtı ilə*

*Odessada tələbə yoldaşı olmuş, Azərbaycan SSR XKS-in o zamankı sədri N.Nərimanov bundan xəbər tutmuş, Məhəmməd bəy güllələnmədən xilas olmuşdu. Bununla belə, ev dustağı edilmişdi. M.Şahmalıyev indiki Sabir adına bağın yerində yerləşən evindəki mənzilində 4 il ev dustağı həyatı yaşamış, 1924-cü ildə elə həmin mənzilindəcə 54 yaşında dünyasını dəyişmişdir. Məhəmməd bəyin həyatdan vaxtsız köçmüş ilk ömür-gün yoldaşı Fatma xanımdan Şahpəri adlı qızı olmuşdu. Fatma xanımdan sonra Əminə xanımla evlənmişdi (Şahmalıyevlər ancaq öz nəsillərindən evlənər, başqa nəslə də qız verməzdilər). Bu izdivacdan 5 övladı: Ehsan bəy, Şamil bəy, Mehralı bəy adlı oğlanları, Səltənət xanım və Ədalət xanım adlı qızları doğulmuşdu. M.Şahmalıyevlərin övladları və törəmələri Moskva, Odessa, Daşkənd və başqa şəhərlərdə yaşayırlar...*



***29. Yusif Ziya Mustafa oğlu Talıbzadə ("Axund Yusif")*** *(20.1.1877, Tiflis - 18.5.1923, Türküstan). AXC dövründə* ***Mobil Könüllü Əsgərlər Dəstəsinin rəisi (1 iyun 1918 - 27 mart 1919), sonra DMK-nın 1919-cu il 27 aprel tarixli qərarı ilə DİN-in İctimai Asayişi Mühafizə üzrə Bakı Yardım Alayının (indiki DİN Daxili Qoşunlarının) ilk rəisi (27 mart1919-cu il - 27 aprel 1920-ci il) olmuşdur.*** *Polkovnik idi. Sovet hakimiyyəti dövründə Orta Asiyada "Qırmızı orduya" qarşı döyüşdə (18 may 1923) ağır yaralanmış və Amu-Dərya (Ceyhun) çayını üzə-üzə keçəndə batmışdır. Yusif Ziya Talıbzadə görkəmli yazıçı-şair Abdulla Şaiqin (Talıbzadə) böyük qardaşıdır. Yusif bəyin Cənnət xanımdan olan oğlu Tələt Qarsda (Türkiyə) yaşayırdı...*



***30. Murad Gəray bəy Tlexas*** *(21.10.1874, Yekaterinodar (indiki Krasnodar), Rusiya - 29.5.1920, Bakı). General-mayor. Milliyyətcə cərkəzdir. AXC dövründə Azərbaycan Ordusunda Baş Artileriya İdarəsinin rəisi işləyirdi. AXC DMK-nın 1919-cu il 13 sentyabr tarixli əmri ilə bir peşəkar hərbçi kadr kimi əvvəl* ***Bakı Möhkəmləndirilmiş Hərbi Rayonunun general-qubernatoru****, sonra isə Azərbaycan hökumətinin başçısı və eyni zamanda daxili işlər naziri N.Yusifbəylinin* ***1919-cu il 4 dekabr*** *tarixli əmri ilə* ***Bakının general-qubernatoru*** *təyin edilmiş və bu vəzifədə Azərbaycan Cümhuriyyətinin süqutuna qədər qətiyyətlə və sədaqətlə xidmət göstərmişdir. Sovet hakimiyyəti qurulan kimi M.G.Tlexası güya "ağqvardiyaçıların xəfiyyəsidir",- deyə dərhal həbs etmiş, ona saxta ittihamla məhkəmə qurmuşdular. M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən məhkəmədə özünü olduqca mərd və qürurlu aparan Murad Gəray bəy 1920-ci il mayın 21-28-də Viktor Naneyişvilinin (İ.Stalinin qayınatası) sədrliyi ilə keçirilən iclasda Ali İnqilabi Tribunal M.Tlexasa güllələnmə kəsmişdi. M.Tlexas ertəsi gün mayın 29-da bir qrup milli təəssübkeşimizlə birlikdə gecə saat 2-də Nargin (Böyük Zirə) adasında 46 yaşında güllələnmişdir. Böyük* ***M.Ə. Rəsulzadə*** *M.G.Tlexası "Azərbaycan Cümhuriyyəti" kitabında "****İstiqlal Şəhidi****" adlandırmışdır. Murad Gəray bəy Bakıda "Araz" kinoteatrı yerləşən 4 mərtəbəli binada (keçmiş "Parapet" – indiki Fəvvarələr bağı ilə üzbə-üz binada) yaşayırdı. Onun Əminə xanımdan 2 qızı vardı. Böyük qızı Cənnət xanım İranın Bakıdakı konsulunun arvadı idi...*



***31. Qudiyev Puda Əliyeviç*** *(12.2.1880, Vladiqafqaz - 29.8.1920, Bakı). Milliyyətcə inquşdur. AXC dövründə* ***Bakı şəhər polismeysteri (29 aprel - 14 iyun 1919 il), Bakı şəhər qradonaçalniki (15 iyun 1919 - 28 aprel 1920 il)*** *olmuş, sovet hakimiyyəti qurulduqdan dərhal sonra həbs edilmiş və Teymur Əliyevin sədrlik etdiyi Azərbaycan SSR Ali İnqilabi Tribunalın hökmü ilə 1920-ci il avqustun 29-da 40 yaşında ikən güllələnmişdir. Birinci arvadı Qali Xasbulatovadan Əhməd və Məhəmməd adlı oğlanları, ikinci arvadı fars mənşəli Qəmər Soltandan Leyla adlı qızı və üçüncü arvadı Tamaradan 3 uşağı (ikisinin adı Əhməd və Aslan idi) qalmışdı... AXC-nin yaradıcısı* ***M.Ə.Rəsulzadə*** *"Azərbaycan Cümhuriyyəti" kitabında P. Qudiyevi "****İstiqlal Şəhidi"*** *adlandırmışdır.*



***32. Müseyib bəy Qəhrəman bəy oğlu Axıcanlı (Axıcanov)*** *(12.10.1892, Tomarxanlı k., Cavad (Salyan) q., Bakı qub. - 30.4.1920, Bakı). Azərbaycanın görkəmli ictimai-siyasi xadimi. Hüquqşünasdır. Kiyev Müqəddəs Vladimir İmperator Universitetini (1912) bitirmişdir. AXC-nin qurucularından biridir. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü idi. Bakının müvəqqəti qubernatoru, türk zabiti yarbay (podpolkovnik) Mehmet Fəthinin böyük köməkçisi* ***(vitse-qubernator*** *-* ***Qərb modeli****-İ.Ə.)****(20 oktyabr - 30 dekabr 1918), Bakı qubernatoru əvəzi (17 noyabr 1918 - 5fevral 1919****) olmuşdu. Azərbaycanda sovet hakimiyyəti*

*qurulanda dərhal sonra bütün əmlakı və evi müsadirə olunmuş (indiki Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin binası (Ə.Cavad-12) Müseyib bəyin vaxtı ilə yaşadığı evidir), gecə saat 3-ün yarısında evindəcə həbs edilmiş və 1920-ci il aprelin 30-da Nargin (Böyük Zirə) adasında cəmi 28 yaşında ikən güllələnmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı **M.Ə.Rəsu**lzadə "Azərbaycan Cümhuriyyəti" kitabında Müseyib bəy Axıcanlını "**İstiqlal Şəhidi**" adlandırmışdır. Əsilzadə ailəsindən çıxmış, çox nüfuzlu və xeyirxah şəxs olan yüzbaşı Qəhrəman bəyin oğlu, ilk azərbaycanlı istedadlı hüquqşünaslardan biri M.Axıcanlı, təəssüf ki, evlənməmiş, dünyadan nakam köçmüşdür. Müseyib bəyin qardaşı İbrahim bəy də Azərbaycan Cümhuriyyətinin kadr zabiti idi. Bütün Axıcanovlar kimi o da acı tale yaşamış və repressiyaya məruz qalmış, Fransiyaya mühacirət etmişdi. Haqqında heç bir məlumat yoxdur... Xalqımızın mərhum böyük bəstəkarı Süleyman Ələsgərov Müseyib bəy Axıcanlının xalası oğludur.*



***33.** İstiqlaliyyət küçəsi**. 5 aprel 1919-cu il**. Azərbaycan Milli Ordusunun Gəncədən Bakıya girdiyi gün. Milli Ordu ilə birlikdə*

*Azərbaycan Polisi dəstələri də şəhərə daxil olur (İstefada olan polkovnik-leytenant , hərbi tədqiqatçı jurnalist Şəmistan Nəzirlinin şəkilə şərhi...).*



***34. Rəşid bəy Əbdüssalam oğlu Axundzadə** (28.3.1880, Salyan ş. - ?, 1940, Rusiya). Kiyev Universitetinin hüquq fakultəsini bitirmişdir. AXC dövründə Azərbaycan Parlmentinin üzvü, Azərbaycan hökumətində İşlər İdarəsinin müdiri və **Bakı şəhərinin gubernatoru (1 yanvar - 25 avqust 1919**) olmuşdur. Nüfuzlu din xadiminin (Qafqaz şeyxinin) oğlu və Bakının qubernatoru olduğu üçün sovet hakimiyyəti tərəfindən represiyaya məruz qalmış, 1937-ci ildə həbs edilərək sürgünə göndərilmiş və 1940-cı ildə orada 60 yaşında ikən həlak olmuşdur...*



*Şəkildə Əli bəy Zizikski*
*ailə üzvlərinin önündə.*
*Ayaq üstə duran qardaşı Abdulladır.*

***35. Əli bəy Harun bəy oğlu Zizikski** (1878, Zizik k., Quba - 17.9.1928, Bakı). Azərbaycan İstiqlal Hərəkatının və Azərbaycan*

*Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən biri. AXC dövründə Bakı müvəqqəti qubernatoru, türk zabiti yarbay Mehmet Fəthinin böyük köməkçisi (1-ci müavini)(15 sentyabr - 20 oktyabr 1918***)** *olmuşdur. Polkovnik rütbəsi vardı. Azərbaycan Parlamentinin üzvü (7 dekabr 1918 - 27 aprel 1920) idi. Sovet hakimiyyəti dövründə repressiyaya məruz qalmış və DSİ-nin erməni müstəntiqi A.Sumbatyan tərəfindən saxta ittihamlarla həbs olunaraq 1928-ci il sentyabrın 17-də 50 yaşında güllələnmişdir. Qubada adına küçə vardır.*



***36. Həmdulla Əfəndi Əfəndizadə*** *(1881, Qalagah k., Dəvəçi nahiyəsi, Quba q. - 1919, Bakı). Milli istiqlal fədailərimizdən biri. AXC dövründə Bakının müvəqqəti qubernatoru, türk zabiti, yarbay Mehmet Fəthinin köməkçisi (müavini*)**(15 sentyabr - 7 dekabr 1918)** *olmuşdur. Azərbaycan Parlamentinin üzvü. Sovet hakimiyyəti qurulduqda onunla barışmayan, 2 minlik könüllü dəstəsi toplayaraq Əli bəy Ziziksk, "Qaçaq Mayıl" və başqa milli təəssübkeşlərlə birlikdə silahlı müqavimət (30 avqust - 7 sentyabr 1920) göstərmiş, döyüşərək bolşeviklərə itki vermişdir. Yalnız 1928-ci ildə ələ keçirilmişdir. H.Əfəndi 1929-cu ildə 40 yaşında Bakıda Nargin (Böyük Zirə) adasında güllələnmişdir...*



***37. Xosrov bəy İbrahim bəy oğlu Poladov*** *(1860, Şuşa ş. - ?). AXC dövründə* ***Qarabağ General-Qubernatorluğunun məsləhətçisi****, Şuşa Qəza İdarəsinin məmuru,* ***Ağdam İnzibati İdarəsinin rəisi*** *olmuş, bütün Qarabağ əhalisinin böyük hörmətini qazanmışdır. Polkovnik rütbəsi vardı. Qarabağda erməni-daşnaklara qarşı qətiyyətli mübarizəsi ilə yaddaşlarda qalmışdır.*



***38. Əhməd bəy Murtuzaqulu (Mürsəlqulu) oğlu Fərzəlibəyov*** *(25 sentyabr 1982, Şuşa şəhəri-30 may 1930, Solovki, Ağ dəniz, Uzaq Şimal, Rusiya). AXC dövründə* ***1919-20-ci illərdə Göyçayda müstəntiq işləmişdir.*** *Qardaşları Mehrəlı bəy və Mahmud bəy Azərbaycan Polisi sıralarında xidmət göstərmişlər... Sovet hakimiyyəti dönəmində keçmişinə görə repressiya olunmuş, dəfələrlə həbs edilmiş, 1930-cu il mayın 30-da Uzaq Şimala, Ağ dənizdə yerləşən məşhur Solovki həbs düşərgəsinə göndərilmişdi... Qönçə xanımdan Cəmil bəy, Paşa bəy adlı oğlanları, Xuraman xanım, Qənirə xanım və Firuzə xanım adlı qızları vardı...*

***39. Hüseynqulu xan Cahangir xan oğlu Xoyski*** *(22.9.1869, Gəncə - 1955, İstanbul, Türkiyə). Hərbçi polkovnik. AXC-nin Tiflisdə yaranması xəbərini Gəncə camaatına birinci o gətirmişdir. AXC dövründə* ***Gəncə qubernatoru İ.Vəkilovun (23 iyun – 5 may 1919), Gəncənin general-qubernatoru X.Rəfibəylinin (6 may 1919 – 30aprel 1920)*** *böyük köməkçisi (1-ci müavini) olmuşdur. Sovet hakimiyyətinə qarşı Gəncə üsyanının (26 may - 4 iyun 1920) təşkilatçılarından biridir. Üsyan yatırıldıqdan sonra tutulub mütləq güllələnəcəyini bilərək Türkiyənin İstanbul şəhərinə qaçmağa macal tapa bilmiş və ömrünün sonunadək orada yaşamışdır. Həyat yoldaşı Şirinbəyim xanımdan 4 övladı: Zahid xan, İsgəndər xan, Valiyyə xanım və Samin xanım adlı övladları vardı. Zahid xan ABŞ-da (Nyu-York) mühacir həyatı yaşamışdı. Qızı - mühacirlər arasında çox nüfuzu olan, Gəncə üsyanının rəhbərlərindən biri polkovnik Cahangir bəy Kazımbəylinin (Kazımbəyovun) həyat yoldaşı Valiyyə xanım 1947-ci ildə təyyarə ilə İstanbuldan Romaya uçarkən Yunanıstanın paytaxtı Afina şəhəri üzərində qəza nəticəsində 12 nəfər yüksək rütbəli soydaşımızla birlikdə həlak olmuş və İstanbulda "Fəri köy" qəbristanlığında böyük təntənə ilə dəfn edilmişdir. H.Xoyski Türkiyə prezidenti M.K.Atatürklə şəxsən tanış idi. Ömürünün sonunda Türk Hava Yollarında çalışırdı. 1955-ci ildə İstanbulda 85 yaşında vəfat etmiş və "Fəri köy" qəbiristanlığında qızı Valiyyənin yanında dəfn olunmuşdur.*





***40. Bəhram bəy Əsəd bəy oğlu Vəzirov*** *(23. 12. 1857, Şuşa ş., Vərəndə (indiki Ağdərə) nahiyəsi, Mirzəcamallı-Şərufbəyli obası - 1927, Sibir, Rusiya). Azərbaycan milli-istiqlal hərəkatının iştirakçılarından biri. Hüquq təhsili vardı. AXC dövründə Cəbrayıl qəzasının 2-ci Sahə Polis Pristavlığının pristavı, Qarabulaq (indiki Füzuli) dövlət həbsxanasının rəisi işləmişdir. "İttihad" (Birlik) üzvü idi və həmin partiyadan Azərbaycan Parlamentinə millət vəkili seçilmişdi. Həmdə şair idi. "Fədai" təxəllüsü ilə şerlər yazırdı.Klassik Azərbaycan şairi Qasım bəy Zakirin nəvəs idi. Fars və rus dillərini yaxşı bilirdi. Sovet dövründə keçmişinə görə repressiyanın qurbanı olmuş, ailəsi ilə birlikdə 1927-ci ildə sürgün edilmiş və oradada vəfat etmişdir. Dilarə xanımdan Gülrux adlı qızı, İsgəndər adlı oğlu qalmışdı...*



*Polkovnik Azad bəy Qocamanbəyov.*
*1919-cu il.*

***41. Azad bəy Ağasadıq bəy oğlu Qocamanbəyov*** *(1860- 1920). 1860-cı ildə Şamaxı qəzasının Məlik-Çobanlı kəndində məşhur mülkədar ailəsində anadan olmuşdur. Hərbçi idi. Çar ordusunda xidmət*

*göstərmiş və polkovnik rütbəsinə layiq görülmüşdür. Rus-yapon müharibəsində iştirak etmişdir. AXC dövründə Şamaxı Qəza Polis İdarəsində müxtəlif vəzifələrdə işləmiş, **1919-cu ildən 1920-ci ilin fevralınadək Şamaxı qəzasının rəisi olmuşdur**. 1918-ci ildə erməni daşnaklarla döyüşlərdə böyük hünərlər göstərmişdir... 1920-ci il fevralın əvvəlində Şamaxıda 60 yaşında vəfat etmiş və Laləzar qəbristanlığında dəfn olunmuşdur. Gülarə xanımdan Seyfulla adlı oğlu vardı...*



*Şəkildə Mikayıl bəy İsrafilbəyov (ortada).*

***42. Mikayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov** (fevral 1875, Zəyəm kəndi, Yelizavetpol (Gəncə) qub., Gəncə qəzası - 1920, Gəncə... Bakı...?). Polis məmuru nüfuzlu Hüseyn bəyin ailəsində anadan olmuşdur. AXC dövründə **Gəncə Qəza Polis İdarəsində pristav, qəza rəisinin köməkçisivə Qəza Polis İdarəsinin rəisi vəzifələrində, Gəncə Quberniya İdarəsinin hərbi, polis və inzibati məsələlər üzrə müşaviri (11 iyun 1919-cu ildən 30 aprel 1920-ci ilədək**) xidmət göstərmişdir. Sovet hakimiyyətinə qarşı Gəncə üsyanında (26 may - 4 iyun 1920-ci il) fəal iştirak etmiş , naməlum şəraitdə yoxa çıxmışdır. Bir ehtimal belədir ki, üsyan iştirakçısı kimi bolşeviklər tərəfindən həbs edilərək Gəncədə məhkəməsiz güllələnmişdir... Digər real ehtimalımız belədirki, M.İsrafilbəyov həbs olunaraq Bakıya gətiril-*

*miş və bir qrup başqa milli təəssübkeşlərimizlə birlikdə 1920-ci il iyunun 6-da Nargin (Böyük Zirə) adasında güllələnmişdir... Mikayıl bəy Dünya xanım Qambay bəy Cəmillinskaya ilə ailə qurmuşdu. Bu ailəlikdən Zərintac və Qəmər xanım adlı iki qız övladı dünyaya gəlmişdi. Mikayıl bəyin nəticəsi Əziz (nəvəsi Tamilla xanımın oğlu) Bakıda yaşayır...*



***43. Mehrəli bəy Murtuzaqulu (Mürsəlqulu) oğlu Fərzəlibəyov** (1878-1942).1878-ci ildə Şuşada əsilzadə ailədə anadan olmuşdur. "Müsavat" Partiyasının üzvü idi. AXC dövründə **Bakı Polismeysterliyində baş qulluqçu (23 iyun 1918-14 mart 1920), Bakı Polismeysterinin böyük köməkçisi (1-ci müavini), Şamaxı Qəza rəisi (14 mart – 11 mayl 1920-ci il)** vəzifələrində işləmişdir. Sovet hakimiyyəti qurulanda bir müddət ona toxunmamışdılar. Lakin 30-cu illərin repressiya dalğası ondan da yan keçməmiş, məhz Azərbaycan Cümhuriyyətinin keçmiş məsul məmuru olduğu üçün təqiblərə məruz qalmış, 1942-ci ildə həbs olunmuşdu....*



***44. Əyyub bəy Məşədi bəy oğlu Rəfibəyli (Rəfibəyov)("Əyyub bəy Sayqın")**(1890, Gəncə - 10.1.1979, Ankara, Türkiyə). AXC dövründə **Gəncə şəhər Polismeysterliyinin pristavı, Nuxa qəzasının rəisi** olmuşdur. Bolşeviklərə qarşı Gəncə üsyanının (26 may - 4 iyun 1920) təşkilatçılarından biridir. Üsyan yatırıldıqdan sonra Türkiyəyə getmiş və orada mühacir həyatı yaşamışdır. Siyasi mühacir sayılmışdır. Ömrünün sonunadək*

*Qarsdan, Trabzondan, İstanbuldan və Ankaradan müxtəlif vasitələrlə SSRİ-yə qarşı 40 il mübarizəni davam etdirmişdir. 1979-cu ildə Ankarada 89 yaşında vəfat etmidir. Övladları İstanbulda yaşayır...*



***45. Lütvəli (Niftəli) bəy Mehralı bəy oğlu Zülqədərov** (1881, Xılxına k., Şəmşəddil nahiyəsi, Gəncə qəzası - 6 iyun 1920. Bakı). AXC dövründə **Cəbrayıl (Karyagin), Gəncə və Ərəş qəzalarında polis pristavı (23 iyun 1918 - 23 iyun 1919), Şamaxı, Göyçay, Cavad qəzalarının (23 iyun 1919 - 13 fevral 1920) və Cavanşir qəzasının (14 fevral - 19 mart1919) rəisi** işləmişdir. Sovet hakimiyyətinə qarşı Gəncə üsyanında (26 may - 4 iyun 1920) fəal iştirak etmişdir. Buna görə həbs edilərək 1920-ci ilin iyunun 6-d Bakıda güllələnmişdir. Repressiya olunan Zülqədərovlar sovet dönəmində Mehralıyevlər soyadını götürməyə məcbur olmuşdular. Lütvəli (Niftəli) bəyin oğlu Kamran sonralar general olmuşdu... Qızı Sima xanım Bakıda yaşayırdı və 1996-cı ildə hələ sağ idi...*



***46. Rəhim bəy Tahir bəy oğlu Şıxlinski** (1902, İkinci Şıxlı k., Qazax q. - 22 iyul 1937, Bakı). Qori Seminariyasını biritmişdir. AXC dövründə **Şuşa Polismeysterliyində pristav**, **Ərəş qəzasının rəisi (dekabr 1919 - 28 aprel 1920**) olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra repressiyaya məruz qalmış, 1937-ci ildə Tiflisdə həbsə alınmış və güllələnmişdir...*



***47. İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanlı (Ziyadxanov) Qacar*** *(15.8.1867, Gəncə - 6.6.1920, Bakı). Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən biri. Hüquqşünasdır. Moskva Universitetini bitirmişdir. I Dövlət Dumasına deputat seçilmişdi. AXC* ***dövründə Gəncə şəhər polismeysteri olmuşdur.*** *Podpolkovnik rütbəsi vardı. Ermənilər İ.Ziyadxanlını Azərbaycanda özləri üçün“ən qorxulu adam” adlandırırdılar. İ.Ziyadxanlı 300 nəfərlik alayı ilə 1918-ci ilin martında daşnak Stepan Lalayanın quldur dəstələrini darmadağın etmişdi. AXC-nin 2-ci hökumət kabinetində hərbi işlər üzrə müvəkkil, sonra isə İranda diplomatik nümayəndəsi idi. Bakıya qayıdan kimi bolşeviklər tərəfindən 1920-ci il aprelin 29-da XI ordunun Xüsusi Şöbəsinin rəisi, xalqımızın qəddar düşməni Semyon Pankratov tərəfindən yeznəsi Kamil Səfərəliyevin evində həbs olunmuş və həmin il iyunun 6-da Nargin (Böyük Zirə) adasında 53 yaşında güllələnmişdir.* ***M.Ə.Rəsulzadə*** *“Azərbaycan Cümhuriyyəti” kitabında onu “****İstiqlal Şəhidi****” adlandırmışdır. Sənubər xanımdan Əbülfət və Cavad ağa adlı oğlanları vardı...*



***Həbib xan Şəkinski.*** *1919-cu il.*

***48. Həbib xan Süleyman xan oğlu Şəkinski*** *(1880, Şuşa ş. - 1956, Bakı). AXC dövründə Qarabağ General-Qubernatorluğunun tərkibinə daxil olan* ***Zəngəzur qəza rəisinin böyük köməkçisi (1-ci müavini) və rəis əvəzi olmuşdur...*** *1956-cı ildə Bakıda 76 yaşında vəfat etmişdir. Ağca ("Həcər") xanımdan Süleyman adlı oğlu, Barat və Səkinə xanım adlı qızları vardı. Barat xanım Şəkinskaya (1914-1999) sonralar məşhur aktyor və xalq artisti olmuşdur.*



***49. Həbib xan Şəkinski.*** *1919-cu il.*



***50. Əşrəf bəy Həsən bəy oğlu Qarxunlu (Tağıyev)*** *(1867, Yuxarı Qarxunlu k. (indi Yevlaxdadır), Şirvan Dairəsi - 3.3.1930, Bakı). AXC-nin görkəmli xadimlərindən biri. Azərbaycan Parlamentinin üzvü,* ***Ərəş qəzasının rəisi*** *olmuşdur. Azərbaycana köməyə gəlmiş və Gəncədən Bakını azad etməyə yollanan Qafqaz İslam Ordusunun komandanı, general Nuru Paşanı 1918-ci ilin iyulunda Yevlax stansiyasında qarşılamışdı. Nuru Paşa onun evində qonaq olmuşdu. Xeyirxah, səxavətli və mərd adam kimi camaat arasında, özünün topladığı "Ərəş alayı" ilə erməni-daşnaklara qarşı vuruşmalarda ad çıxarmasıyla yaddaşlarda qalmışdır. Sovet hakimiyyəti qurulduqda təcrübəli kadr kimi bir müddət hərbi tərcüməçi işləmişdir. Lakin sonra keçmişinə görə təqib olunmuş, bir neçə dəfə (7 oktyabr 1924, 27 yanvar 1930) həbs olunmuş, əvvəl 10 il həbs cəzasına məhkum edilmiş, ancaq sonra bu ölüm cəzası ilə əvəzlənmişdi. Əşrəf bəy 1930-cu il martın 3-də 63 yaşında "xalq düşməni" kimi Bakıda güllələnmişdir. Şəkili Maral xanımdan Knyaz və Məhəmməd adlı oğulları və Ceyhun adlı qızı vardı. Bakıda Kərim adlı nüfuzlu nəvəsi (Məhəmmədin oğlu) yaşayırdı...*



*Kərim xan İrəvanski*
*(şəkildə sağdan ayaqüstə)*

***51. Kərim xan Abbasqulu xan oğlu İrəvanski*** *(15 noyabr 1883, İrəvan ş., Rusiya- 9 oktyabr 1919, Saritsın, Volqaboyu, Rusiya). Əsilzadə ailədə anadan omuşdur. Hərbçi idi. Çar ordusunda xidmətlərinə görə polkivnik hərbi rütbəsinə layiq görülmüşdü. AXC dövründə 1918-ci ilin sonu - 1919-cu ilin əvvəllərində erməni daşnak ordusu ilə döyüşlərdə azərbaycanlılardan ibarət 1000 nəfərdən artıq Naxçıvan süvarilərinə komandirlik etmiş və düşmənə tutarlı zərbələr vurmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətinin 28 fevral 1919-cu il tarixli qərarı ilə Cənub-Qərbi Azərbaycan (Naxçıvan) General-Qubernatorluğunun hərbi hissə üzrə köməkçisi (müavin) təyin edilmiş və bu vəzifədə həmin il martın 26-dək xidmət göstərmişdir. Sonra Rusiyaya qayıtmış, Volqaboyunda Saritsın cəbhəsində gedən döyüşlərdən birində (9 oktyabr 1919) həlak olmuşdur. Qafqazda Nalçik şəhərində Volnı Aul qəbristanlığında dəfn olunmuşdur. Milliyyətcə balkar olan, əsilzadə ailədən çıxmış Şənudə adlı qızla ailə qurmuşdu...*

**52. Əli bəy İsmayıl bəy oğlu Hacıəlibəyov** *(1880, Gəncə - 1939 , Bakı). AXC dövründə* ***Gəncə şəhər Polismeysterliyində polis pristavı, polismeyster köməkçisi (23 iyun 1918 - 5 may 1919), polismeyster (6 may 1919 - 30 aprel 1920****) olmuşdur. Bolşeviklərə qarşı Gəncə üsyanının (26 may - 4 iyun 1920) fəal iştirakçısıdır. Böyük milli təəssübkeş Əli bəy Hacıəlibəyov 30-cu illərdə represiyanın qurbanı olmuşdur. O, 1939-cu ildə artıq həyatda yox idi...*



**53. Mədət Məşədi Kərim oğlu Quliyev**. *AXC dövründə* ***Gəncə şəhər Polismeysterliyinin Xəfiyyə Şöbəsinin baş polis nəzarətçisi və həbsxana rəisi (1919-1920-ci illər)*** *vəzifələrində xidmət göstərmişdir. Sovet hakimiyyəti zamanı erməni şuğulçularının saxta ittihamları ilə DSİ tərəfindən dəfələrlə (1925, 1927, 1930, 1931) həbs edilmiş, lakin günahsız olduğundan hər dəfə buraxılmışdı. Nəhayət, 1931-ci ilin fevralında yenə həbsə alınmış, işgəncələrə məruz qalmış və həmin ayın 17-də güllələnmişdir. Mədət Məşədi Kərim oğlu hazırda Azərbaycan Respublikası DTX-nın rəisi, general-leytenant,* ***Azərbaycanın Mill Qəhrəmanı Mədət Qəzənfər oğlu Quliyevin babasıdır.***



***54. Sarı Ələkbər İmamqulu oğlu ("Qaçaq Sarı Ələkbər", "Sarıyal")****(1885, Gəncə ş. - 1956, Qars, Türkiyə). Böyük milli təəssübkeşdir. Cəsur, mərd adam kimi indidə xatırlanır. AXC dövründə* ***Gəncə şəhər Polismeysterinin böyük köməkçisi (1-ci müavini), s****ilahdaşı qaçaq Qənbər Qəni oğlu Bəhmənli ilə bolşeviklərə qarşı Gəncə üsyanının (26 may - 4 iyun 1920) rəhbərlərindən biri olmuşdur. Üsyan yatırıldıqdan sonra labüd həbsdən və güllələnmədən yaxa qurtarıb Türkiyəyə keçməyə müvəffəq olmuş, ömrünün sonuna qədər Qarsda yaşamış, işləmiş (gübrə zavodu açmışdı) və böyük hörmət qazanmışdır. Ailəsi sovet hakimiyyətinin təqiblərinə və sürgünə (Qazaxıstana) məruz qalmışdır. Cəvahir xanımdan Qulu adlı oğlu və Brilyant adlı qızı qalmışdı. Onlar İstanbulda böyük hörmət qazanmışdılar. "Sarıyal" ləqəbilə çox hörmət qazanmış Sarı Ələkbər 1956-cı ildə Qarsda 71 yaşında vəfat etmişdir.* ***M.Ə.Rəsulzadə*** *"Azərbaycan Cümhuriyyəti" kitabında Sarı Ələkbəri "****İstiqlal Şəhidi****" adlandırmışdır. Sarı Ələkbərin vaxtı ilə Gəncədə Balabağbanlar qəsəbəsində yaşadığı binaya xatirə lövhəsi (28 may 1992) vurulmuşdur.*





*Şəkildə pristav ştabs kapitan*
***Qiyas bəy Şıxlinski***

***55. Qiyas bəy Cahandar bəy oğlu Şıxlinski*** *(1895, İkinci Şıxlı k., Qazax q. - 1972, Bandurma, Türkiyə). AXC dövründə* ***Ərəş Qəza***

***İdarəsi rəisinin köməkçisi, 2-ci Sahə Polis Pristavlığının pristavı*** *olmuşdur. Bolşeviklərə qarşı Gəncə üsyanında (26 may - 4 iyun 1920) fəal iştirak etmişdir. Sovet hakimiyyəti qurulduqda peşəkar kadr kimi Azərbaycan SSR FK-DSİ-nın sədri M.C.Bağırovun (Zaqatala üsyanını yatırılan zaman Qiyas bəy onu ölümdən qurtardığı üçün dost olmuşdular) himayəsi ilə bir müddət Qazax Qəza Milisinin rəisi vəzifəsində işləmişdi. Sonra sovet hakimiyyətinə qarşı çıxmış və 1930-ci il iyulun 29-da qohumları və silahlı dəstəsilə Türkiyəyə keçmiş, oradan SSRİ-yə qarşı mübarizəni davam etdirmişdir. Oğlu Cingiz bəy Alqazax (1938-1992) polkovnik rütbəsində Türk Hava Qüvvələrində hərbi təyyarəçi kimi şöhrət qazanmışdı. Qiyas bəyin Kamil adlı oğlu da nüfuzlu idi. Ümumiyyətlə, Q.Şıxlinskinin 3 oğlu və 2 qızı vardı... Ömrü cəlayi-vətən olan Qiyas bəy Şıxlinski 1972-ci ildə Türkiyədə Bandurma şəhərində 77 yaşında vəfat etmişdir. Qiyas bəy "Dəli Kür" bədii filmindəki Cahandar ağanın prototipidir. O, mərhum xalq yazıçısı İsmayıl Şıxlının dayısıdır.*



***56. İsmayıl bəy Hacı bəy oğlu Hacıbəyov.****1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. AXC dövründə* ***Şuşa qəzasında polis pristavı****,* ***Cavanşir qəza rəisinin böyük köməkçisi (1-ci müavini)*** *(1920-ci il aprelin 28-dək) işləmişdir... İsmayıl bəyin Soltan bəy və Osman bəy adlı oğlanları, Dilguşə xanım adlı qızı vardı...*



***57. Mahmud bəy Murtuzaqulu (Mürsəlqulu) oğlu Fərzəlibəyov*** *(1871-1937). 1871-ci ildə Şuşa şəhərində əsilzadə ailəsində anadan olmuşdu. Tiflisdə ali təhsil almışdı... AXC dövründə qardaşları Mehrəli bəy və Əhməd bəylə bərabər polis orqanlarında xidmət etmişdi.* ***Göyçay Qəza İdarəsinin rəisi Niftəli (əslində, Lütvəlidir) bəyin böyük köməkçisi (1-ci müavini)*** *vəzifəsində* ***(1919)*** *işləmişdir.*



***58. Bakı Polismeysterliyinin (10 aprel 1840-cı ildə təsis edilmişdir) binası. 1919-20-ci illər.*** *Birja küçəsi, № 21. İndiki Ü.Hacıbəyov küçəsində Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə üzbəüz bina.*



*Bakı şəhər polismeysteri,* ***polkovnik Rüstəm bəy Mirzəzadə (Mirzəyev).*** *Oturanlardan soldan birinci, vəznəli formada.*

***59. Rüstəm bəy Hidayət bəy oğlu Mirzəzadə (Mirzəyev)****(1860, Gəncə ş. - 29.5.1920, Bakı). Hüquqşünas idi. AXC dövründə* ***Bakı şəhər polismeysteri (23 iyun 1919 - 7 aprel1920) və Balaxanı-Sabunçu polismeysteri (7 aprel - 28 aprel 1920)*** *olmuşdur. Polkovnik idi. Azərbaycanda sovet hakimiyyəti qurulan kimi Bakı general-qubernatoru M.G.Tlexas, Bakı qradonaçalniki P.Qudiyev, sabiq Bakı qubernatoru M.Axıcanlı və başqaları ilə birlikdə ilk növbədə həbs edilmiş, Azərbaycan SSR Ali İnqilabi Tribunalın hökmü ilə 29 may 1920-ci ildə gecə saat 2-də Nargin (Böyük Zirə) adasında 60 yaşında güllələnmişdir. Böyük* ***M.Ə.Rəsulzadə*** *"Azərbaycan Cümhuriyyəti" kitabında R.Mirzəzadəni* ***"İstiqlal Şəhidi"*** *adlandırmışdır.*



***60. Yusif bəy Məmməd bəy oğlu Sultanov (****1860, Şuşa q., Zəngəzur sahəsi, Bəxtiyarlı k.,Püsyan nahiyəsi - ?). Çar dövründə Rusiyanın 3-cü dərəcəli Aleksandr və İranın 4-cü dərəcəli "Şire-Xurşid" ordenləri ilə təltif olunmuşdu. AXC dövründə* ***Zaqatala şəhərinin polis pristavı, Şamaxı qəzasının Mədrəsə Sahə Polis Pristavlığının pristavı (1918-1920****) olmuşdur. Qubalı Fətəli xanın nəvəsi ilə ailə qurmuşdu. Bahadur bəy adlı oğlu, Gövhər xanım, Sevda xanım və Rübabə xanım adlı qızları vardı...*



***61. İsrafil Ələkbər oğlu İbrahimov ("Saqqal" İbrahim)****(1900, Qaraqoyunlu k., Sürməli q.,İrəvan quberniyası - 21 yanvar 1938, Bakı). AXC dövründə* ***Qazax Şəhər 3-cü Sahə PolisPristavlığının pristavı*** *və* ***Ağstafa (Poylu) Dəmiryol Stansiyasının polis pristavı*** *işləmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra peşəkar kadr kimi Azərbaycan SSR XDİK-də xalq daxili işlər komissarının müavini, Baş Milis İdarəsinin, İslah Əmək Müəssisələri Baş idarəsinin rəisi və s. məsul vəzifələrdə çalışmışdır. 30-cu illərdə "Şamaxı işi"nə görə ittiham olunmuş, həbs edilərək 1938-ci il yanvarın 20-dən 21-nə keçən gecə sabiq xalq daxili işlər komissarı Həmid Sultanovla birlikdə güllələnmişdir. O, 41 yaşında həmin gecə güllələnən 7 nəfər içərisində 3-cü, Həmid Sultanov isə 1-ci güllələnmişdir. İsrafil İbrahimovun Validə və Nəzakət adlı qızları vardı. 80-ci illərin ortalarında onlar Bakıda yaşayırdılar...*

**

***62. Tərlan bəy Abdulla bəy oğlu Əliyarbəyov** (28.11.1892, Ağsu ş. - 15.2.1956, Bakı). Çar dövründən hərbçi idi. AXC dövründə Azərbaycan Polisində xidmətə cəlb olunmuş, **Şamaxı qəza rəisinin köməkçisi (27 noyabr 1919 - 28 aprel 1920)** işləmişdi. Sovet hakimiyyəti dövründə peşəkar kadr kimi orduda xidmətə keçmiş, komandir vəzifələrində çalışmışdır. Böyük Vətən müharibəsində (1941-1945) iştirakı zamanı göstərdiyi qəhrəmanlığa görə **general-mayor rütbəsinə və Sovet İttifaqı Qəhrəmanı (1944**) adına layiq görülmüşdür. 1956-cı il fevralın 15-də Bakıda 64 yaşında vəfat etmişdir. Pərviz və Nadir adlı oğlanları Azərbaycan Polisində rəis vəzifələrində xidmət etmişlər... Şamaxı şəhərində T.Əliyarbəyovun adına küçə var və ona abidə qoyulmuşdur.*

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


***Arxiv materialları***

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi (ARMAİ), fond 51, 104.

ARMAİ, Bakı Qubernator İdarəsinin fondu: f.1046, siy. 5, iş 154, 168, 169; siy. 2, iş 14-a

Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), fond 51, siyahı 2, iş 185.

ARDA, Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin fondu - 894, siy. 1, iş 31; siy. 2, iş 78, 140, 141.

ARDA, f. 894, siy. 1, iş 50; siy. 2, iş 10, 32, 87; siy 7, iş 21.

ARDA, f. 970, siy. 1, iş 1.

ARDA, f. 649, siy. 1, iş 229.

ARDA, f. 1046, siy. 2, iş 14; siy 3, iş 29.

ARDA, Bakı Şəhər Qradonaçalnikliyinin fondu, siy. 48, iş 1.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Arxivi, f. 4.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPAİİSSA), f. 19, siy. 1, iş 187, 193.

ARPAİİSSA, f. 188, siy. 3, iş 10.

ARPAİİSSA, f. 276, siy. 2, iş 20, 21, 24.

ARPAİİSSA, f. 277, siy. 2, iş 10, 11, 12, 52. 55, 80, 81, 93 .

ARPAİİSSA , f. 456, siy. 18, iş 38.

***Ədəbiyyat***

Адрес-Календарь Азербайджанской Республики на 1920 г. (1й год здания). Под редакцией А.И. Ставровского. Правительственная Типография аз «Азербайджань». Баку, 1920, 64 стр.

Azərbaycan Cümhuriyyəti hökumətinin əmr və sərəncamları, 1919, № 1.

Azərbaycan çekistləri. Bakı, “Yazıçı”, 1983, 293 səh.

Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı, “Gənclik”, 1990, 96 səh.

Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bak, “Azərnəşr”, 1992, 191 səh.

Azərbaycan Demokratik Respublikası (1918-1920). Qanunvericilik aktları (Sənədlər külliyyatı). Bakı, “Azərbaycan” nəşriyyatı, 1998, 560 səh.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). Birinci cild. Bakı, “Azərbaycan” nəşriyyatı, 1998, 976 səh; 2-ci cild, Bakı, “Azərbaycan” nəşriyyatı, 992 səh. 2005.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. 1-ci cild. Bakı, “Lider nəşriyyat”, 2004, 440 səh.

“Azərbaycan“ qəzeti, 28 may, 25 sentyabr, 22, 23 noyabr, 10 dekabr 1918-ci il (rusca); 23 fevral, 30 aprel, 3 və 22 iyun, 12 iyul 1919-cu il; 27 may 1995-ci il; 28 may 1998-ci il; 20 iyul 2005-ci il.

Актуальные проблемы изучения гумаритарных наук. Межвузовский сборник научных статей. №-1, Ваку, 2005.

Azərbaycan Polisi tarixi (Azərbaycan və rus dillərində). **Tədris proqramı**. Bakı, AR DİN Polis Akademiyası, 20 səh.

“Azərbaycan Polisi Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 24 may 1998-ci il tarixli Fərmanı. Bakı, 1998.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi. Bir günün təntənəsi. 2 İyul 2007-ci il.

Azərbaycan Polisi-90. 1918-2008. Şanlı tarix. Qəhrəmanlıq salnaməsi. Bakı, DİN Mətbəəsi, 2008, 250 səh.

Azərbaycan Polisi-90. 1918-2008. “Azərbaycan Polisi” jurnalı, № 7 (iyul), Bakı, 2008, 51 səh..

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi. Neqativ fondu, №-5718.

Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Yeddinci buraxılış. Bakı, "Adiloğlu", 2010, 224 səh.

**Babayeva S**. Qarabağın general-qubernatoru **Xosrov bəy Sultanov.** "Azərbaycan" qəzeti, 23 may 1993-cü il.

Bakı polisi-165. 1840-2005. Qısa tarixi və müasir dövrü. Bakı, 2005, "Turan evi", 396 səh.

"Bakı Xəbər" qəzeti, 9-10 may, 2018-ci il.

**Балаев Айдын**. Азербайджанское национально-демократическое движение: от «Мусавата» до Народного Фронта. 1917-1920 гг. Ваку, «Элм», 1990, 95 стр; 1992, стр 104.

**Baykara Hüseyn.** Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, 276 səh.

**Bayramov Xanlar**. Gəncə üsyanı. Sənədlər və materiallar. Bakı, Ləman Nəşriyyat Poliqrafiya MMC, 2010, 290 səh.

**Behbudov Tahir**. Zirvədən uca ömür. **General-mayor Sadıx bəy Ağabəyzadə.** "Dirçəliş**"** jurnalı, №-56, Bakı, 2002**.**

**Бехбудов Таир.** Формирование и функционирование системы органов МВДАзербайджана (до середины 1980-х гг.). Баку, Типография Минстерства Юстиции Азерб. Республики. 1995, 35 səh.

**Бехбудов Таир**. Полиция в азербайджане во второй половине XIX-начале XX в.в. Баку, "Nafta-Press", 1999, 101 стр.

**Бехбудов Таир**. Английская полиция в Баку 1918-1919 гг.. Баку, «Nafta-Press", 2003, 138 стр.

**Бехбудов Таир**. Время вспоминать, время напоминать. О генерал-майор **Садык бек Агабекзаде.** «Вести Баку», 4 декабря 2005**.**

**Бехбудов Таир**. История Бакинской полиции. Баку, «Мутарджим», 2009, 80 стр.

**Бехбудов Таир**. Азербайджанская полиция: история, теория, практика. Баку, «Мутарджим», 2012, 336 стр.

**Behbud xan Cavanşirlə** müsahibə. "Azərbaycan" qəzeti, №-24, 1 noyabr (19 oktyabr) 1918-ci il.

**Bəxtiyar Qaraca**. **Xosrov bəy Sultanov haqqında**: ”Taleyin didərgin saldığı Vətən övladı”. “Azərbaycan” qəzeti, 20 sentyabr 2015-ci il.

**Bünyadov Ziya.** Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, 1985, 268 səh.

**Bünyadov Ziya, Əliyev Mövsüm. Fətəli xan Xoyski**. Bakı, 1997, 41 səh.

**Bünyadov Ziya**. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, 332 səh.

**Cəfərli Məmməd**. Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları. Bakı, 1997, BDU, 31 səh.

Cümhuriyyətin Gəncə liderləri. “Azərbaycan” qəzeti . 28 may 1998-ci il.

**Çingizoğlu Ənvər**. **Bəhram bəy Vəzirov.** “Soy” dərgisi. Özəl buraxılış. Bakı, 2008, 88 səh.; İnternet.

**Çingizoğlu Ənvər. Behbudovlar**. Bakı, “Mütərcim“, 2008, 168 səh.

**Çingizoğlu Ənvər. Xosrov bəy Sultanov** (tarixi-bioqrafik tədqiqat). Bakı, “Mütərcim”, 2012, 104 səh.

**Çingizoğlu Ənvər**. Qarabağlı hüquqşünaslar (1822-1920). Bakı, “Mütərcim”, 2012, 252 səh.

**Dadaşov Aydın. Məhəmməd Həsən Hacınski**. Bakı, BDU, 2004, 254 səh.

**Dadaşov Aydın. Hacınski** nəslinin rəvayəti. “Pəncərə. Mədəniyyətə baxış” jurnalı, № 4, Bakı, 2008.

**Dadaşov Aydın. Məhəmməd Həsən Hacınskinin** nəsli haqqında. “Respublika” qəzeti, 24 iyun 2004-cü il.

**Darabadi Pərvin**. 1918-1920-ci illərdə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr. “Hərbi bilik” jurnalı. № 4-5, 1994.

**Darabadi Pərvin**. Onbirinci ordunun Bakı əməliyyatı (rusca). “Tarix” qəzeti. Elm” qəzetinə əlavə. №5, Aprel 1997-ci il.

Декреты Азревкома (1920-1921 гг). Сборник документов. Баку, Азернешр, 1988, 519 стр.

**Denstervil Lionel**. Britaniya imperializmi Bakıda və İranda. 1917-1918-ci illər (Xatirələr). (rusca).Tiflis,1925, 237 səh.

Документь по истории Баку 1810-1917. Баку, 1978.

**Dünyamalı Kərim**. Yaddaşlarda qorunan tarix. Bakı, ”Mütərcim”, 2006, 200 səh.

**Elbrus Şahmar**. Azərbaycan Polisi (1 kitab). Bakı, “Dünya”, 1997, 320 səh.

**Elbrus Şahmar**. Daxili İşlər Orqanları generalları. Bakı, 1999, “Səda”, 504 səh.

**Əhmədov Ramiz**. Mir Cəfər Bağırov. Bakı, “Nurlan”, 2002, 520 səh.

**Əliyarlı İltifat**. İstiqlal mücahidlərimiz. **Cavad bəy Məlikye-qanov**. “Ədalət” qəzeti, 3 may 2002-ci il.

**Əliyarlı İltifat**. Azərbaycan Polisinin qurucuları. **General-mayor Məhəmməd Sadıq bəyAğabəyzadə**. “Ədalət” qəzeti, 2 iyul 2002-ci il.

**Əliyarlı İltifat. Məhəmməd Həsən Hacınskinin son aqi-bəti**. “Ədalət” qəzeti. 3 iyul... 2002-ci il.

**Əliyarov İ.M.** Bakı Kommunası dövründə Azərbaycan fəhlə-kəndli milisinin təşkili və fəaliyyəti (aprel-iyul 1918-ci il). Azərbay-can SSR EA-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №-1.

**Əliyarov İ.M.** Azərbaycanda milisin yaranma və fəaliyyəti tarixindən (mart-oktyabr 1917-ci il). Azərbaycan tarixinin problem-ləri. Bakı,”Elm”, 1992, 346 səh.

**Əliyarlı İltifat**. Repressiya qurbanları. Arxivlərdə yaşayan ömrün qırx birinci ilində. **İsrafil İbrahimov.**“Mübariz keşikdə” qəzeti, 5, 12 dekabr 1996-cı il.

**Əliyarlı İltifat**. Oda erməni terrorunun qurbanı olub. **Fətəli xan Xoyski.** “Bizim əsr” qəzeti**,** 8 dekabr 2002-ciil.

**Əliyarlı İltifat, Behbudov Tahir.** Müstəqil Azərbaycan Poli-sinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı, “Qismət”, 1998, 160 səh.

**Əliyarlı İltifat, Behbudov Tahir.** Azərbaycan Polisinin neçə yaşı var? “Qanunçuluq”jurnalı.1998, № 6 (46).

**Əliyarlı İltifat. Fətəli xan Xoyskinin xatirəsinə.** Terror qurbanları. “Mübariz keşikdə qəzeti, 20 iyun 2002-ci il.

**Əliyarlı İltifat, Behbudov Tahir**. Azərbaycan Daxili İşlər Orqanlarının tarixi. Ensiklopedik soraq kitabı. Xronoloji toplu. 1840-2003-cü illər. Bakı,”Mütərcim”, 2003, 248 səh.

**Əliyarlı İltifat**. General haqqında film çəkiləcək. **Məhəmməd Sadıq bəy Ağabəyzadə** kimdir?“Mübariz keşikdə” qəzeti, 10 noyabr 2005-ci il.

**Əliyarlı İltifat**. **Daxili işlər naziri Mustafa bəy Vəkilovun mühacir həyatı**. “Mübariz keşikdə” qəzeti, 31 may 2007-ci il.

**Əliyarlı İltifat.** İstiqlal mücahidlərimiz. Gəncə üsyanının başçıları. **Sarı Ələkbər**. “Mübariz keşikdə” qəzeti, 16 avqust 2007-ci il.

**Əliyarlı İltifat (Şahsevən). Tahir Behbudov**. İstiqlal fədailəri. Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirləri və silahdaşları (1918-1920). Bakı, “Mütərcim”, 2013, 494 səh.

**Əliyarlı İltifat (Şahsevən**). Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirləri və silahdaşları (1918-1920). Bakı, “Mütərcim”, 2017, 476 səh.

**Əliyev Mövsüm. Nəsib bəy Yusifbəyli**. “Odlar yurdu” qəzeti, № 13, iyul 1988; “İncəsənət” qəzeti, 28 sentyabr 1993-cü il.

**Əliyev Mövsüm. Behbud ağa Cavanşir**. “Odlar yurdu” qəzeti, № 4, fevral 1989-cu il.

**Əlioğlu Mövsüm. Mustafa bəy Vəkilov**. “Odlar yurdu” qəzeti, № 4, fevral 1989-cu il.

**Əliyev Mövsüm. Məhəmməd Həsən Hacınski**. “Odlar yurdu”, № 10, may 1989-cu il.

**Əliyev Mövsüm. Fətəli xan Xoyski**. “Odlar yurdu» qəzeti, № 17, sentyabr 1989-cu il.

**Fərzəliyev Yusif**. Qarabağın general-qubernatoru **Xosrov bəy Sultanov.** “İqtisadçı” qəzeti, 29 mart 2009-cu il.

**Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyi**nin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Azərbaycan Respublikasınn Prezidenti Heydər Əliyev. “Azərbaycan” qəzeti, 19 dekabr 1993-cü il.

**Fətəli xan Xoyskinin doğum haqqında şəhadətnaməsi**. Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri (ATŞCX). 5-ci buraxılış. Bakı,"Adiloğlu", 2004 (rus dilində).

**General-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadənin** xidməti fəaliyyəti haqqında Rusiya Dövlət–Hərbi Tarix Arxivi Agentliyinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının dosenti, polis polkovniki **Tahir Behbudov**un adına göndərilmiş 19 sentyabr 2011-ci il tarixli 2981 nömrəli məktub.

Gəncə üsyanın rəhbərlərindən **Sarı Ələkbər** haqqında. "Azadlıq" qəzeti, 13 noyabr 2012-ci il.

Gəncə. Tarixi oçerk. Bakı, "Elm", 1994, 152 səh.

**Hacıyev Aydın**. Naxçıvan Qars və Araz-Türk Respublikasının tarixindən. Bakı, Azərnəşr,1996, 124 səh.

**Hacıyev Qasım, Ənvər Çingizoğlu**. Qarabağlı hərbiçilər. Bakı, "Təknur", 2011, 320 səh.

**Həsənov Cəmil**. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, Azərnəşr, 1993, 362 səh.

**Heydər Əliyev** və Azərbaycanın Daxili İşlər Orqanları. Bakı, DİN, 2003, 369 səh.

**Hüseynov Rafael**. **Rəfibəylilər**. Bakı, 1996.

Xalqın keşiyində.Dövlətimizn müdafiəsində. **Azərbaycan Polisinin 90 illiyi** münasibətilə. "Mübariz keşikdə" qəzeti, 28 may 2008-ci il.

**Xoyski Fətəli xan**. Həyat və fəaliyyəti (Sənədlər və materiallar) (Azərbaycanca və rusca). Bakı, 1998, 152 səh.

**İbrahimli Xaləddin**. Azərbaycan mühacirəti tarixi. Bakı, "Adru", 2012, 400 səh.

**Исмаилов Е. Фатали хан Хойский** и его родословная. Генеалогический вестник. Выпуск №28, Санкт-Петербург, 2007.

"Kaspi" qəzeti, 7 noyabr 2009-cu il.

**Qasımov Cəlal**. Yaddaşın bərpası. Bakı,"Mütərcim", 1999, 256 səh.

**Qasımov Cəlal, Xaqani Bağırov**. Azərbaycan milli təhlükəsizlik orqanlarının tarixi. Azərbaycan təhlükəsizlik orqanlarının 90

illiyinə həsr olunur (rusca). Bakı, "İNDİGO", 2009, 512 səh.

**Qasımov Şikar**. Xalq qəhrəmanı **Sultan bəy**. Bakı, "Elm", 2011, 385 səh.

**Qəniyev Seyfəddin**. 1918-ci il Şamaxı soyqrımı. Bakı, "Nurlar", 2009, 152 səh.

**Qoca (İsayev) Elşad**. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı,"Şuşa", 2000, 143 səh.

**Məmmədova Aygün. Fətəli xan Xoyskinin əsli-nəcabəti haqqında.** "Elm" qəzeti. 4 oktyabr 2002-ci il

**Məmmədov Ramin. Şəfi bəy Rüstəmbəyli haqqında**. Qəbələ: İnsanlar, talelər, ziyalılar. Bakı, "Şirvannəşr", 1998, 320 səh.

Минстерство Внутренних Дел России 1802-2002. СПб, 2002.

Минстерство Внутренних Дел Азербайджанской Республики. Из истории полиции Азербайджана и еeправохранительной деятельности. Баку, Типография МВД Азербайджанской Республики, 1999 , 24 стр.

**Милман Арон.** Политической строй Азербайджана в 19-начале 20 вв. Баку. Азернешр, 1966 г., 318 стр.

Milli Məclis. Analitik İnformasiya jurnalı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti-90. Xüsusi buraxılış. Bakı, MM, 2008, 100 səh.

**Mir Cəfər Bağırovun** silahdaşı **Əli bəy Zizikski haqqında**. "Azadlıq" qəzeti, 4 oktyabr 2012-ci il.

**Musayev İsmayıl.**Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, BDU, 1996, 328 səh..

**Нагдалиев Фархад.** Ханы Нахичеванские в Российской Империи. Москва, "Новый Аргумент", 2006, 432 стр.

**Назанский В.И.**Отчето состояния Полисмейстерства с 1-го мая 1910-по 1-го января 1914 г. Баку, 1914.Фонд библиотеки имени Салтыкова Шедрина.

**Назарли Азиза.** XI Красная Армия в Северном Азербайджане: оккупация**,** расправы,бесчинства. Баку, «Elm və Təhsil”, 2014, 392 стр.

**Nemanzadə Ömər Faiq**.Bakı,”Yazıçı”, 1983, 150 səh.

**Nəsibzadə Nəsib**. Azərbaycan Demokratik Respublikası (Məqalələr və sənədlər). Bakı, “Elm”, 1990, 112 səh.

**NəzirliŞəmistan. Daş Salahlı Məmməd Koxa**. Bakı, “Şirvannəşr”,1997, 24 səh.

**Nəzirli Şəmistan**. Azərbaycan generalları. Bakı, “Gənclik”, 1991, 129 səh.

**Nəzirli Şəmistan**. Cümhuriyyət generalları. Bakı, Hərbi Nəşriyyat”, 1995, 212 səh.

**Nəzirli Şəmistan. Qarxunlu Əşrəf bəy**. Sənədli povest. Bakı, “Elm və həyat”, 1998, 180 səh.

**Nəzirli Şəmistan. Topoqrafiya generalı İbrahim ağa Vəkilov.** Bakı, “Zaman”, 2002, 293səh.

**Nəzirli Şəmistan**. Güllələnmiş generallar. Bakı, «”Kooperasiya”, 2006, 624 səh.

**Nəzirli Şəmistan. Məmməd Koxanın acı taleyi**. “Xalq qəzeti”, 26 noyabr 2006-cı il.

**Nəzirli Şəmistan**. 1920-ci il Qarabağ döyüşləri. Bakı, 2009.

**Nuriyeva Minaxanım. Behbud xan Cavanşir**. “Respublika” qəzeti. 12 dekabr 1999-cu il.

“Panorama” qəzeti. Azərbaycan Demokratik Respublikasının daxili işlər naziri haqqında. Erməni terrorunun qurbanı. **Behbud xan Cavanşir**. 16,17, 21, 22. 23, 24, 25 oktyabr 1997-ci il.

**Rəsulzadə Məhəmməd Əmin**. Azərbaycan Cümhuriyyəti. Bakı, “Elm”, 1990, 116 səh.

**Seyidzadə Dilarə, Asif Rüstəmli.Fətəli xan Xoyski**. Vətənə və xalqa sədaqət nümunəsi. “Dirçəliş” jurnalı, № 5, Bakı, 1998.

**Сеидзаде Диляра.** Азербайджанские депутаты Государственной Думе России. Баку, Азернешр, 1991, 139 стр.

**Rüstəmov Səbahəddin (Eloğlu)**. Zəngəzur hadisələri.Bakı, Azərnəşr, 1992, 58 səh.

СУ Азерб. ССР. 1920, №7.

**Süleymanov Manaf**. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərnəşr, 1987, 320 səh.

**Şeyxzamanlı Nağı bəy**. Azərbaycan İstiqlal mücadiləsi xatirələri. Bakı, "Xan" 1997, 176, səh.

Шелкопляс И.А. Полицейская реформа в России в 60-х годах 19 века. Минск, 1981.

Шинджикашвили Д.И. Минстерство внутренних дед царской России в период империализма. Омск, 1974.

**Şirvani Zəkəriyyə. Fətəli xan Xoyski.** "Dirçəliş" jurnalı, №-79, Bakı, 1991.

**Tahirzadə Ə.S., Tahirli O.Ə. İbrahim bəy Heydərov ("Heydəroğlu").** Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Səkkizinci buraxılış. Bakı, "Adiloğlu", 2012, 298 səh.

"Tarix" qəzeti. "Elm" qəzetinə əlavə. Azərbaycan Xalq Cümhuriyyətinin ilk sədri Fətəli xan Xoyski.(Birinci məqalə). 7 sentyabr 1991-ci il; İkinci məqalə 21 sentyabr 1991-ci il.

**Vilayət Quliyev.** Baş nazir **Nəsib bəy Yusifbəylinin** naməlum aqibəti..."Zerkalo" qəzeti (rusca), 31 mart, 7, 14, 21, 28 aprel, 5. 12**, 19 may 2002-ci il.**

**Vilayət Quliyev. Nəsib bəy Yusifbəyli** və onun həyat yoldaşı Şəfiqə xanım Sultan (Qaspıralı) haqqında ."525-ci qəzet", 31 dekabr 2010-cu il.

Всегда на страже. 1920-1980.Страницы истории Азербайджанской милиции. Баку, Азернешр, 1980, 104 стр.

Yaddaşın bərpası. MTN-in orqanı "Sərhəd" qəzeti, № 1 (Qəzet-jurnal). Bakı, 1999, 40 səh.

**Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə**. Bakı, "Gənclik", 1991, 208 səh.

**Zapletin Georgi**. Azərbaycan Polisinin tarixi. 1900-1933. Bakı, "Azərbaycan Ensiklopediyası" Poliqrafik Birliyk Nəşriyyatı, 1999, 304 səh.

**İltifat Əliyarlı-Şahsevənli**

**Azərbaycan Polisinin yaranması**
**və təşəkkülü tarixindən**
***(1918-1920-ci illər)***

Bakı – Mütərcim – 2018

Çapa imzalanıb: 19.05.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 8 ç.v. Tiraj: 200. Sifariş № 140.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az